Xalqın qəzeti!
# Xalq qəzeti
№ 118 (30234) 6 iyun 2023-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Naxçıvan Muxtar Respublikası inkişaf edir, çiçəklənir, bütün məsələlər öz həllini tapır – təhlükəsizlik, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, infrastruktur. Biz bundan sonra da bu yolla gedəcəyik ki, tarixi diyarımız olan Naxçıvan Muxtar Respublikasında işlər həmişə yüksək səviyyədə görülsün, insanlar daha da yaxşı yaşasınlar.**

## Dünya növbəti dəfə Azərbaycan–Türkiyə qardaşlığının şahidi oldu



**Adətən, Azərbaycanın hansısa ölkə ilə dostluq və tərəfdaşlığı barədə söz açarkən xatırladırıq ki, bu münasibətlər zamanın çox sınaqlarından çıxmışdır. Ancaq Türkiyə Cümhuriyyəti ilə əməkdaşlığımızın hansısa sınaqdan çıxmasına ehtiyac olmayıb və olmayacaq. Çünki bizim mənəvi-əxlaqi kitabımızda qardaşın qardaşı sınaması termini yoxdur və olmayacaq. Ancaq bu əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin nəinki ötən illərdəkinə, hətta ötən gündəkinə nisbətən daha yüksək səviyyəyə qalxması həmişə "günün reallığı" olmuşdur.**

Bütün türk xalqlarının sevdiyi, bəşəriyyətin sabit gələcəyinə nail olmaq üçün çalışan dünya siyasətçilərinin inam və ehtiramla qəbul etdiyi Rəcəb Tayyib Ərdoğan möhtəşəm siyasi fəaliyyətini davam etdirmək üçün növbəti beş il üçün fəaliyyətə başlaması da Bakı ilə Ankara arasındakı münasibətlərin daha ali səviyyəyə qaldırılmasını təmin edəcəkdir. Yəni, qardaş ölkənin dövlət başçısı qarşıdakı beş ildə də türk xalqına, Türkiyədə yaşayan bütün xalqların təmsilçilərinə, böyük öndər Mustafa Kamal Atatürkün qurub yaratdığı Türkiyə Cümhuriyyətinə, tarixi türk dövlətçiliyinə, Türkiyə–Azərbaycan dostluğuna və ümumiyyətlə, müasir dünyada hamının sülh, əmin-amanlıq şəraitində yaşamasına indiyədək necə xidmət etmişdisə, yenə də həmin fəaliyyətini davam etdirəcək.

(ardı 4-cü səhifədə)

## Müqəddəs Taxt-Tac dahi Heydər Əliyevi daim minnətdarlıq hissi ilə xatırlayacaq



**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ölkənizlə bağlı əmin-amanlıq və firavanlıq arzularımı, həmçinin atanız, Zati-aliləri cənab Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi çatdırıram.

Azərbaycanın inkişafı, Müqəddəs Taxt-Tac ilə diplomatik münasibətlərin qurulması istiqamətində dahi Heydər Əliyevin səyləri daim minnətdarlıq hissi ilə xatırlanacaq. Uca Tanrıdan diləyirəm ki, Azərbaycana və onun xalqına bundan sonra da tərəqqi, rifah, cansağlığı və əmin-amanlıq nəsib etsin.

Möhtərəm Prezident, Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, bütün həmvətənlərinizə Allahdan ruzi-bərəkət diləyirəm.

**Dərin hörmətlə,**

**FRANSİSK,**
**Roma Papası**

## Hay xisləti: normal jestə anormal reaksiya



Səhifə ⇨ 4




Səhifə ⇨ 3-9

## Moskva İrəvana güzəştə gedirmi?

## Sığorta-pensiya sistemi liberal islahatlara əsaslanır

Səhifə ⇨ 7

## Ararat, mandat və şpaqat



Səhifə ⇨ 3

## Ermənistan üçün "doğum şəhadətnaməsi"

**Sərlövhə təəccüblü qarşılana bilər. Nəzərə alsaq ki, doğum canlıya xas xüsusiyyətdir, şəhadətnamə isə onun baş verdiyini rəsmiləşdirən sənəddir, Ermənistana münasibətdə "doğum şəhadətnaməsi" ifadəsinin işlədilməsi, bəlkə, bir o qədər yerinə düşmür.**

Qərinələrlə başımıza gətirdikləri vandalizm aktlarına görə onları insan saymamalı, doğuma layiq görməməliyik, öz yerində. Ancaq fakt budur ki, hazırkı durumda Ermənistan doğulmayıb, sancı çəkir. Hələ doğulub-doğulmayacağını da bilmək olmaz. Proses son dərəcə ağır gedir. Buna görə doğum şəhadətnaməsindən danışmaq tez görünə bilər.

Mətləbə keçməzdən əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin bir fikrini yada salaq: "Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var – bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır".

(ardı 3-cü səhifədə)



## Ukrayna: bütün cəbhə boyu ağır döyüşlər gedir

**Son günlər Rusiya-Ukrayna savaşı yenidən aktiv fazaya keçib. Dünən cəbhənin bir çox istiqamətlərində qızğın döyüşlərin getdiyi barədə məlumatlar yayılıb. Hər iki tərəfdən itkilərin olduğu bildirilir.**

"The Associated Press" agentliyi ABŞ-dakı Müharibə Araşdırmaları İnstitutuna istinadən yazıb ki, Ukrayna hərbçiləri dünən Zaporojye vilayətində bir neçə istiqamətdən hücuma keçiblər və müəyyən qədər irəli gediblər.

Hələlik söhbət məhdud taktiki uğurlardan gedir. Lakin təhlilçilərin fikrincə, bu, Ukraynanın çoxdan gözlənilən əks-hücum əməliyyatlarına başladığına dəlalət etmir.

UNİAN agentliyinin verdiyi xəbərə görə, dünən Ukrayna ordusu Donetsk vilayətinin qərb hissəsində, Zaporojye vilayətinin isə şərqində uğurlu lokal hücum əməliyyatları həyata keçirib. Ukraynanın mexanikləşdirilmiş hərbi birlikləri Rivnopolya istiqamətində irəliləyə biliblər.

(ardı 14-cü səhifədə)

## Türkiyədə qaz habı layihəsi ilin sonunadək gerçəkləşəcək



Səhifə ⇨ 7

## Yəməndə münaqişə yenidən alovlanıb



Səhifə ⇨ 14

## Özbəkistanda Mirziyoyevin prezidentliyə namizədliyi qeydə alınıb

Səhifə ⇨ 14

## Bakı Türk dünyasının kitablarına qucaq açıb

**Bakının Hüseyn Cavid prospektində, AMEA-nın binasının önündə böyük bir canlanma var.**

İnsan axını bizi şəhərcikdə təşkil olunan II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalına aparır. Türk dünyasının elm, mədəniyyət, incəsənətinin inkişafına, təbliğinə həsr olunmuş festivalda müxtəlif dillərdə ən gözəl ədəbiyyat, incəsənət nümunələri diqqəti cəlb edir, nəfis əl işlərinin nümayişi maraq doğurur. Festival tədbirləri üçün böyük səhnə qurulub.

(ardı 15-ci səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və ölkənizin vətəndaşlarını bütün kanadalılar adından təbrik edirəm.

Kanada ötən il diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdiyimiz Azərbaycanla əlaqələri möhkəmləndirməkdən məmnundur. Bizim tərəfdaşlığımız ortaq dəyərlərə, o cümlədən Cənubi Qafqazda uzunmüddətli sülhə və sabitliyə, eləcə də fəal Azərbaycan-Kanada icması tərəfindən qurulan xalqlararası əlaqələrə əsaslanır.

Müsbət ikitərəfli əlaqələrimiz qadınların səlahiyyətlərinin artırılması, qlobal təhlükəsizlik və ətraf mühitin mühafizəsi kimi mühüm məsələlərin həlli istiqamətində birgə səylərimizlə daha da möhkəmlənir. Kanada Azərbaycanla münasibətlərini daha da inkişaf etdirməyə, həmçinin vətəndaşlarımız üçün daha yaxşı gələcək naminə birgə səy göstərməyə hazırdır.

Bu bayram münasibətilə Sizə və Azərbaycan xalqına əmin-amanlıq, rifah arzulayıram.

**Hörmətlə,**

**Meri SAYMON,**
**Kanadanın General-Qubernatoru**

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına davamlı tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında səmimi dostluq əlaqələrinin möhkəmləndirilməsi üçün Sizinlə birgə işləməyə hazır olduğumu bir daha bildirirəm.

**Dərin hörmətlə,**

**Maki SALL,**
**Seneqal Respublikasının Prezidenti**

## “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuşdur.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir.

Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaratmışdır. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir. Bu isə öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə **qərara alıram:**

**1.** “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) 2023–2024-cü illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində, 2025–2027-ci illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini isə 2024-cü il iyulun 1-dək hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının Tədbirlər Planına və müəyyənləşdiriləcək maliyyə vəsaitinin həcminə uyğun olaraq, üç ay müddətində 2023–2024-cü illər üzrə, 2024-cü il sentyabrın 1-dək isə 2025–2027-ci illər üzrə tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrasının təmini üçün daha təfsilatlı tədbirlər planlarının layihələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Dövlət Proqramının icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin, dövlət investisiya proqramlarının və Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2023-cü il**

## “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 678; 2019, № 1, maddə 79) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

“3-1. Birdəfəlik ödəmənin verilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsdən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin şəxs tərəfindən təmin edilir.”.

**2.** 6.1-ci bəndə “birlikdə” sözündən sonra “(bu Fərmanın 3-1-ci hissəsinin müddəaları nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 283 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət əmlakının ixtisaslaşdırılmış pul hərraclarında satışı Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 283 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 498; 2023, № 1, maddə 70) ilə təsdiq edilmiş “Dövlət əmlakının ixtisaslaşdırılmış pul hərraclarında satışı Qaydaları”nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

“3.3-1. Hərracda iştirak etmək üçün nəzərdə tutulan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər sifarişçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.”.

**2.** 3.6-cı bəndin dördüncü abzasına “tam şəkildə təqdim olunmadıqda” sözlərindən sonra “(bu Qaydaların 3.3-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 iyul tarixli 533 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 iyul tarixli 533 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 470; 2006, № 7, maddə 590; 2009, № 3, maddə 163; 2010, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2022, № 12, maddə 1444) ilə təsdiq edilmiş “İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

“4.2-1. Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar iddiaçılardan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi iddiaçıların razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya iddiaçılar tərəfindən təmin edilir.”.

**2.** 4.4-cü bəndin dördüncü abzasına “təqdim olunmadıqda” sözlərindən sonra “(bu Qaydaların 4.2-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2617; 2019, № 10, maddə 1581; 2020, № 2, maddə 87; 2021, № 12, maddə 1405; 2022, № 8, maddə 846) ilə təsdiq edilmiş “Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası”nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

“3.2-1. Tikintiyə icazənin alınması üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

**2.** 3.3-cü bəndin birinci cümləsinə “təqdim olunmadıqda” sözlərindən sonra “(bu Qaydanın 3.2-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 253 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 253 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1703; 2020, № 4, maddə 397, № 12 (I kitab), maddə 1483; 2023, № 3, maddə 347) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası”na aşağıdakı məzmunda 7.4-1-ci bənd əlavə edilsin:

“7.4-1. Təhsil xərclərinin maliyyələşdirilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 iyul tarixli 308 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 iyul tarixli 308 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 627; 2013, № 4, maddə 373; 2016, № 2 (II kitab), maddə 251; 2023, № 1, maddə 70) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.1.2-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Ərizəyə əlavə olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir;”.

**2.** Aşağıdakı məzmunda 9.2-1-ci bənd əlavə edilsin:

“9.2-1. Daşınmaz əmlak obyektinin formalaşdırılmasına dair ərizəyə əlavə olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2023-cü il**

# Ermənistan üçün "doğum şəhadətnaməsi"

## *Paşinyan ölkənin üzərindən "bic" damğasının götürülməsini istəyir, amma...*



(əvvəli 1-ci səhifədə)

Ermənistan baş naziri Nikol Paşinyan mayın 24-də Ermənistan üçün "kadastr şəhadətnaməsi" almaq zərurəti haqqında ilk dəfə danışmağa başlayanda ölkədə bir çoxları onun ortaya növbəti absurd saqqızı atdığını düşündülər. Hesab etdilər ki, baş nazir diqqəti əsas məsələlərdən yayındırmaq məqsədi ilə cəmiyyətə "yem verməkdədir". Ölkənin ciddi sayılan ekspertləri "yemi uddular" da. Yəni, mövzu ətrafında müzakirə başlatdılar.

Amma baş nazir fikirlərində ciddi, ən əsası isə haqlıdır. O, özünün haqlı olduğunu mayın 24-dən keçən növbəti bir həftədə yenidən isbatlamaq qərarına gəldi. Görünür, məsələnin geniş müzakirə olunduğunu və üzərinə yeni təzyiq dalğasının gəldiyini hiss etdi və sübuta yetirmək istədi ki, təzyiqlərdən qorxub çəkinmir. "Mən nəticə əldə etmək, gələcək nəsillərimizə Ermənistan Respublikasının artırılmış və tam hüquqlu kadastr "şəhadətnaməsi"ni buraxmaq istəyirəm" – deyə Paşinyan vurğuladı. Aydın göründü ki, o, opponentlərinin etiraz və ittihamlarına məhəl qoymur.

Nikolun bu sətirləri Ermənistanda, sanki, barıt çəlləyini ildırımın vurması təəssüratı yaratdı. Xəstə cəmiyyətin ayrı-ayrı təmsilçiləri bildirdilər ki, guya min illərdir (?) regionda mövcud olan suveren ölkə (?) üçün "kadastr arayışı" absurddur. Onu da bildirənlər tapıldı ki, belə bir sənəd Ermənistanın bütün əvvəlki ərazi tarixinin üstündən xətt çəkərək, cəmi 29 min kvadratkilometrdə mövcudiyyət deməkdir və bu yolverilməzdir.

Ermənistandakı avantürist qövm üçün Paşinyanın "kadastr şəhadətnaməsi" Azərbaycanla sülh müqaviləsidir. Yəni, ölkəmizin 86,6 min kvadratkilometrdə suveren hüquqlarının tanındığı müqavilə. Ən əsası isə 86,6 min kvadratkilometrə Qarabağ ərazisi də daxildir. Başlıca məqamlardan biri də budur ki, həmin xəstə qövmün təmsilçilərinin fikrincə, sülh müqaviləsi Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ümid etdiyi kimi, erməni qisasının yolunu bağlayacaq, Qarabağın və digər itirilmiş torpaqların geri qaytarılması ideyasını dəfn edəcək. Nəticədə "Ermənistanın dirçəliş ideyası öləcək və Vətəni yenidən azad etmək ümidləri puça çıxacaq". Yəni, ortada ölkəmizlə sülh perspektivinə dair belə bir son dərəcə sarsaq ambisiozluq var. Sonra da bildirirlər ki, Azərbaycan Ermənistana qarşı ərazi iddiası irəli sürür. Özləri...

Erməni təfəkkürü Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazinin tanınmasından boyun qaçırmaqla, qəsbkarlığı perspektivə daşımaq niyyətini ortaya qoymaqdadır. Ortada bu dərəcədə böyük həyasızlıq var. Həyasızlıq var ki, Ermənistandan Qarabağa gedən ermənilərin sərhəd-buraxılış məntəqəsindən keçməsini onların hüquqlarının məhdudlaşdırılması kimi görürlər, ancaq hesab edirlər ki, Naxçıvana gedən Azərbaycan vətəndaşları Ermənistan ərazisindən keçəndə mütləq pasport nəzarəti görməlidirlər. Hərçənd Qarabağ da, Naxçıvan da ölkəmizə məxsusdur və bunu əlahəzrət tarix təsdiqləyir. Belə görünür, ölkədə tarixi gerçəkliklərin fərqinə varan bir şəxs varsa, o da Paşinyandır.

"Kadastr şəhadətnaməsi" söhbəti tarixdən qaynaqlanmaqdadır. Ancaq Ermənistanda tarixə nəzər salan yoxdur. Daha doğrusu, tarixə fərqli "baxış" mövcuddur. Mövzu ətrafında baş qaldırmış diskussiyalarda bildirilir ki, Paşinyanın türklərə çoxdan vəd edilmiş, beynəlxalq səviyyədə razılaşdırılmış və imzalanmış sənəd vermək istəyir. Elə bir sənəd ki, "erməni xalqı hər dəfə öz ərazilərinin (?) qaytarılması məsələsini qaldıranda ona əngəl yaranacaq. Beləliklə, Ermənistana məxsus olanı tələb və azad etməyə cəhd göstərmək işğalçılıq adlandırılacaq...

"Kadastr şəhadətnaməsi" ətrafındakı söhbətlərin Nikola təzyiq müstəvisini şərtləndirən cəhətlərdən birinə də diqqət yetirək. Bildirilir ki, baş nazir Qarabağın Ermənistana məxsusluğunun "təsbit edilməsinə dair" indiyədək qəbul edilmiş bütün daxili sənədlərin və qanunların üstündən xətt çəkmək istəyir. Bu sənədlər içərisində Ermənistanın Müstəqillik Bəyannaməsi də var, preambulasında da Bəyannaməyə istinad olunan ölkə Konstitusiyası da. Eyni zamanda, Ermənistanın və Qarabağın birləşdirilməsi haqqında Ermənistan SSR Ali Sovetinin 1 dekabr 1989-cu il tarixli qərarı.

Ermənistan hökumətinin 8 iyul 1992-ci il tarixli qərarının da Paşinyan tərəfindən ləğv ediləcəyi vurğulanır ki, sonuncu sənədə əsasən Qarabağın Azərbaycanın tərkibində yer almasının göstərildiyi istənilən beynəlxalq və ya daxili sənəd Ermənistan Respublikası üçün qəbuledilməz sayılmalıdır. Nəhayət, "kadastr şəhadətnaməsi"nin qondarma rejimin məhvi demək olduğu üzərində dayanılır. Bildirilir ki, "Dağlıq Qarabağ Respublikası"nın yaradılması ilə bağlı 1991-ci il dekabrın 10-da keçirilmiş referendumun nəticələri, o cümlədən, "DQR-in yaradılması haqqında Bəyannamə" ləğv məhkumdur.

***

Göründüyü kimi, Paşinyanın "kadastr şəhadətnaməsi" söhbəti erməni avantürizminin alt qatlarının özünü göstərməsi ilə müşayiət olundu. Bir daha sübut olundu ki, xəstə təfəkkür sahibləri heç bir halda dinc dayanmağı düşünmürlər və ilk fürsətdəcə Azərbaycan üzərinə yenidən hücuma keçmək niyyəti güdəcəklər. Ancaq bu söhbətdə son dərəcə vacib məqam da meydana çıxmaqdadır.

Paşinyan məlum açıqlaması ilə, faktiki olaraq, Ermənistanın mövcud olmadığını göstərməkdədir. Onun fikirləri ölkənin özünə məxsus ərazisinin yoxluğunun təsdiqidir. Deməli, istənilən an hazırda Ermənistan Respublikası adlanan dövlət yer üzündən silinə bilər. Əslində Paşinyan ermənilərin əsrlərlə ayrı-ayrı dövlətlərə sığınaraq, başlarını saxladıqları keçmişin geri qayıda bilməsinə dair təbil zəngi çalır.

Nikol, faktiki olaraq, erməni qövmünün qəsbkarlıq nəticəsində əldə etdiklərinin ona məxsus olmadığını dünyanın da dərk etdiyini, dərk etmək məcburiyyətində qaldığını, yalanlara inanmadığını vurğulayır. Ən əsası isə yaranmış şansdan danışır. O, şansdan faydalanaraq gələcək nəsillərə erməni dövləti mirasını qoymağı təklif edir. Min illik dövlətçilik ənənəsi kimi iddiaların mif, illüziya mahiyyətini qabardaraq, reallığı görmək çağırışını gerçəkləşdirir.

Görünün isə budur ki, Nikolun çağırışına səs verən yoxdur. Halbuki olmalıdır. Çünki onun söylədikləri, eyni zamanda, Ermənistanın dövlət kimi Yer üzündən silinəcəyi təqdirdə, bunun dünya tərəfindən qəsb kimi qiymətləndirilməyəcəyinin anonsudur. Bu yerdə Azərbaycan Prezidentinin daha bir fikrini xatırladaq. Dövlətimizin başçısı erməni avantürizminin sülh müqaviləsinin imzalanmasına maneçilik törədən mənfi təmayüllərinə münasibətdə artıq bir neçə dəfə bildirib ki, Ermənistan indiki şərtlərlə razı deyilsə, sərhəd ölkəmizin lazım bildiyi yerdən keçəcəkdir.

Sonda əvvəldə vurğuladığımız məqama qayıdaq. Bəli, baş nazir Nikol Paşinyan erməni dövləti üçün doğumu təsdiqlətmək istəyir. O, hazırda dövlətin bic olduğunun fərqindədir. Ancaq Ermənistanda bic statusunda yaşamağı üstün tutanların sayı az deyil. Həm də ona görə ki, ölkəyə və cəmiyyətə dövlətçilik yox, sürü təfəkkürü hakimdir. Sürü ilə mübarizədə ən yaxşı təsir vasitəsi isə onu qovmaqdır.

**Ə.CAHANGİROĞLU,**
***"Xalq qəzeti"***

# Moskva İrəvana güzəştə gedirmi?

## *Əgər ermənilər Zəngəzur dəhlizi ilə Naxçıvana gediş-gəlişimizə maneə yaratsalar, özləri də Laçın yolunda eyni problemlə üzləşəcəklər*

**Cənubi Qafqazda sülh prosesinin intensivləşməsi vasitəçilər və tərəflər arasında müəyyən razılaşmaların əldə olunması ilə müşayiət olunur. Bu mənada Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın ölkənin İctimai Televiziyasına müsahibəsində söylədiyi fikirlər diqqət çəkib. A.Qriqoryan deyib ki, Azərbaycan–Ermənistan sərhədinə nəzarəti Rusiya deyil, Ermənistan həyata keçirəcək.**

### *Vaxt uzandıqca şərtlər dəyişir*

"Kommunikasiyaların qarşılıqlı açılması ilə bağlı vacib bir detal var. Bizim fikrimizcə, indi bütün maraqlı tərəflərə aydındır ki, sərhədə nəzarəti tamamilə Ermənistan həyata keçirəcək. Bu məsələ ilə bağlı İrəvanın mövqeyi kifayət qədər dəqiqdir", – deyən A.Qriqoryan Ermənistanın burada üç əsas prinsipi gözlədiyini qeyd edib.

Onun sözlərinə görə, söhbət Ermənistan ərazisindən keçən yollar üzərində suveren və hüquqi nəzarətdən gedir. Bu zaman qarşılıqlılıq prinsipini önə çəkən İrəvan rəsmisi Ermənistanın da Azərbaycan ərazisindən hərəkətinə imkan yaradılmasının vacibliyini vurğulayıb. A.Qriqoryan hesab edir ki, kommunikasiyaların qarşılıqlı açılması bu prinsiplər çərçivəsində reallaşa bilər.

Əslində, Ermənistan TŞ-nın katibi A.Qriqoryan bu açıqlaması ilə həm də Zəngəzur dəhlizinin işə salınması yolunda ilk baxışda görünməyən maneəni aşkar göstərmiş oldu. Burada söhbət dəhlizə nəzarətlə bağlı Moskva və İrəvan arasında üstörtülü mübarizədən, daha doğrusu, problemdən gedir.

Deyəsən, Kreml sülh prosesinin özü üçün heç də məqbul sayılmayan hazırkı mərhələsində İrəvana güzəştə getməyə qərar verib. Üç gün əvvəl Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri səviyyəsindəki işçi qrupunun Moskvada düzənlənmiş iclasından sonra Kremlin rəsmi məlumatında pozitiv tonun yer alması, yəqin, yuxarıda dediyimiz məsələ ilə bağlı müştərək anlaşmanın əldə olunmasına işarə idi.

(ardı 9-cu səhifədə)

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan növbəti spekulyativ fikirləri ilə gündəmə gəlib. O, dünən ölkə parlamentində ilkin büdcə dinləmələri zamanı çıxış edərək bildirib ki, rəsmi İrəvan Qarabağın gələcəyi ilə bağlı danışıqlar aparmaq üçün "Qarabağ xalqı"ndan, daha dəqiq desək "Artsax xalqından" mandat almayıb.**

Əvvələ, "Artsax xalqı" ifadəsi üzərində dayanaq. 86,6 min kvadratkilometr ərazidə Azərbaycanın suveren hüquqlarını tanıdığını bildirən Ermənistanın xarici siyasət idarəsinin rəhbəri anlamalıdır ki, ərazi bütövlüyünü qəbul etdiyi ölkə onun işlətdiyi ifadəni qətiyyən məqbul saymır. Yəni Bakı üçün "Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər" məntiqi əsasdır.




## *Ermənistanın XİN rəhbəri baş-ayaq düşüncə tərzindən qalmır*

Bəli, Mirzoyan buna məhəl qoymur və bildirir ki, Ermənistan dövlətinin başlıca vəzifəsi Xankəndi ilə Bakının dialoq apara biləcək dəqiq platformasının və ya mexanizminin yaradılmasıdır. Sual olunur: bir halda ki, Qarabağ erməniləri İrəvana bölgənin gələcəyi ilə bağlı danışıq aparmaq mandatı verməyiblər, nə üçün dialoq mühiti formalaşdırmaq naminə çalışır? Digər tərəfdən, belə çıxa bilər ki, əgər Qarabağ erməniləri, o cümlədən qondarma rejimdəki beş-altı separatçı bir yerə yığılıb Mirzoyana mandat versə, o, statusla bağlı danışıq aparmağa qol çırmayacaq (?).

Özünün ziddiyyətli fikirlərini davam etdirən Ermənistan XİN rəhbəri növbəti təzada baş vurmaqdadır. Mirzoyan bildirir ki, Xankəndi–Bakı dialoq platformasına dair məsələ həllini tapmasa, Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması real, tamhüquqlu, uzunmüddətli və sabit ola bilməz. Nəzərə alaq ki, Qarabağdakı separatçı rejim Azərbaycanın tərkibində status əldə etməkdən deyil, müstəqil dövlət olmaqdan dəm vurur. Məlumdur ki, bu baxış üçün mandat məntiqi yaddır.

İndiki halda Ermənistan bir şey edə bilər ki, o da separatçıları rəsmən tanımaqdır. Bunu isə etmir, daha doğrusu, etməyə qorxur. Belədə, obrazlı desək, tutmaqdan çəkinən it hansı duruma düşürsə, Mirzoyan da həmin vəziyyətdədir.

Daha bir sual da meydana çıxır: bir halda ki, "Qarabağ xalqı" Ermənistana mandat vermir, nə üçün Xankəndi–Bakı dialoqu İrəvanın Bakı ilə sülh gündəliyində prioritet olmalıdır? Mirzoyan nə üçün bildirməlidir ki, "Artsax xalqının" hüquq və təhlükəsizliyinin təminatı baxımından çoxlu açıq məsələlər var? Nəyə görə o və Ermənistan hakimiyyətindəki digər şəxslər həmin məsələlər sırasında "Qarabağın blokadası", "Laçın dəhlizinin qanunsuz bağlanması" kimi mənasız ritorikaya baş vurmalıdırlar?

Mirzoyanın anlaşılmaz məntiqindəki digər absurd məqama diqqət yetirək. O bildirir ki, Qarabağ əhalisinin qaz və işıq təminatındakı problemlər Ermənistan deyil, "Qarabağ xalqının" seçdiyi qurumlar tərəfindən qaldırılmalı və həll edilməlidir. "Bizim vəzifəmiz bu dialoqun başlanğıcını, mexanizmlərini və platformasını təmin etməkdir", - deyən XİN rəhbərinin fikirlərindən yeqin heç kəs heç nə başa düşmədi.

Deməli, ərazidəki təminat məsələlərini Azərbaycan həll etməlidir, separatçılar da orada qalıb müstəqillik davası aparmalıdırlar? "Qarabağ xalqının" seçdikləri kimdir və ya kimlərdir görəsən? Hər halda ortada Azərbaycanın separatçı kimi tanıdığı tör-tökündülərdən başqa kimsə yoxdur. Onlar da ağızdolusu bildirirlər ki, Azərbaycanla dialoq mümkünsüzdür, Bakının yurisdiksiyası qəbuledilməzdir, dözülməzdir və sair. Bu durumda da Mirzoyanın Qarabağ ermənilərindən söz açması, hansısa mandatdan danışması məntiqsizdir.

Bu cür axmaq avatürizm nümayişindən sonra Mirzoyan həyasızcasına onu da bildirir ki, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünün miqyas göstərilməklə tanıması, İrəvanın heç bir torpaq iddiasının olmadığını göstərən siyasi bəyanatdır. Ancaq Azərbaycan, nə xarici işlər naziri, nə də prezident səviyyəsində, Ermənistanın ərazi bütövlüyünü 29,8 min kvadratkilometrlik sərhədləri daxilində tanıdığını bəyan etməyib. "Azərbaycan Prezidentinin iştirakı ilə keçirilmiş görüşün nəticələri Aİ Şurasının rəhbəri Şarl Mişelin bəyanatında təqdim edilib. Burada tərəflərin bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanıdıqları bildirilib və konkret rəqəmlər göstərilib. Bakıdan isə heç bir ictimai təsdiq olmadı", – deyən erməni XİN rəhbəri bunun təzliklə baş verəcəyinə ümid bəslədiyini dilə gətirib.

A.Mirzoyan unudur ki, Bakı söz oyununa getmir. Ölkəmiz mövqeyində konkretdir. Azərbaycan Prezidenti və rəsmiləri Ermənistanın sülh müstəvisindəki manipulyasiyalarını da yaxşı görür. Mirzoyanın, sözünün əvvəli ilə axırı düz gəlməyən, bəyanatındakı məntiqin qəbuledilməzliyi də göz önündədir. Ancaq erməni XİN rəhbərinin çıxışında, spekulyativ də olsa, bir pozitiv məqam var. Onun sözlərindən belə çıxır ki, Azərbaycan Ermənistanı 29,8 min kvadratkilometrlik ərazidə tanıdığını bildirməyənədək, təhlükə saçacaq, bunu 2022-ci ilin sentyabr hadisələri göstərdi və ona görə İrəvan delimitasiya və demarkasiya parametrlərinin təzliklə müəyyənləşməsində maraqlıdır. Pozitivlik də elə bundadır ki, XİN başçısı Bakının güc tətbiqi qorxusunu içində yaşatmaqdadır. Əks halda, onun avantürizmi, şübhəsiz, daha yüksək diapazonda özünü göstərərdi.

Yeri gəlmişkən, A.Mirzoyan parlamentdəki çıxışında Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı məsələnin üzərində xüsusi dayanıb. O, mövcud istiqamətdəki prosesin nə vaxt həyata keçiriləcəyi ilə bağlı yekun razılaşmanın əldə edilmədiyini vurğulayıb. "Yalnız öhdəlik var ki, bu proses Alma-Ata Bəyannaməsinin müddəalarına uyğun olsun. Bunun hansı konkret xəritədə keçiriləcəyi ilə bağlı yekun razılaşma yoxdur. Bildiyimə görə, Kişineu sammitində Azərbaycan Prezidenti 1975-ci ilin SSRİ Baş Qərargahının xəritəsindən istifadə perspektivi ilə bağlı heç bir etiraz bildirməyib", - deyən Ermənistan XİN rəhbəri qeyd edib ki, konkret hansı xəritənin daha sərfəli olduğu da qeyri-müəyyəndir, İrəvan 1975-ci ilin xəritəsini məqbul sayır.

Anklavlara gəlincə, Mirzoyan bunu Ermənistan–Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası üzrə birgə komissiyanın həll edəcəyini bildirib. Onun sözlərinə görə, anklavlarla bağlı məsələ nisbətən yaxın zamanlarda qaldırılmağa başlayıb və buna görə öyrənilməlidir. Xüsusən, anklavların formalaşmasının hüquqi əsasları öyrənilməlidir. "Siyasi nöqteyi-nəzərdən etiraf edirik ki, SSRİ-nin son illərində belə anklavlar olub. Lakin fikrimcə, bu, delimitasiya və demarkasiya komissiyasının məşğul olmalı olduğu məsələdir", - deyən Mirzoyanın anklavların da 86,6 min kvadratkilometrə daxil olduğunu bildirməsi onu göstərir ki, məsələ ətrafında ilk baxışdan hansısa müzakirəyə ehtiyac qalmır. Anklavlar Azərbaycana qaytarılmalıdır. Vəssalam!

Sonda onu da bildirək ki, Ermənistanın XİN rəhbərinin çıxışındakı təzadlı məqamlar həm ölkə rəhbərliyinin avantürist mahiyyətinin məhsuludur, həm də hiss olunur ki, baş nazir Nikol Paşinyanın özü kimi, onun komandasının təmsilçiləri də özlərini itiriblər. Əlbəttə, bu adamlar özlərini siyasətçi sayır, guya, dövlət idarə etdiklərini düşünürlər. Amma onu düşünmürlər ki, siyasət qeyri-ciddiliyin doğurduğu baş-ayaq sevmir və belə davranışın cəzası ağır olur.

**Ə.RÜSTƏMOV,**
***"Xalq qəzeti"***

# Dünya növbəti dəfə Azərbaycan–Türkiyə qardaşlığının şahidi oldu

## Türk dünyasında yeni dönəm başlayır

(əvvəli 1-ci səhifədə)

Ankarada keçirilən möhtəşəm tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın məxsusi salamlanması, cənab Ərdoğanın çıxışında Azərbaycanla münasibətlərə xüsusi toxunması və digər məqamlar sübut etdi ki, Ankarada Bakının öz yeri vardır.

... Geridə qalan 20 il sübut etdi ki, cənab Ərdoğan böyük coğrafiyası, hərtərəfli potensialı, təbii sərvətləri, möhtəşəm hərbi gücü olan Türk dünyasının ehtiramla qəbul etdiyi liderdir. "Dünyanın harasında bir türkün burnu qanayırsa, biz həmin ağrını öz canımızda hiss edirik" – deyən Ərdoğan dünyanın bütün güc mərkəzlərinə qarşı təkbaşına, mərdi-mərdanə etiraz etmişdir. Məsələn, Krım probleminə münasibət bildirən Türkiyə Prezidenti Qərb liderlərini qətiyyətlə tənqid edirdi: "Krımla bağlı konkret mövqeyimizi 2014-cü ildən bu yana təkrarlayırıq. Həm Rusiya, həm də Ukrayna ilə müzakirələrimizdə bu mövzunu daim gündəmdə saxlamışıq. Qərb Krımın işğalına reaksiya versəydi, indi bu mənzərəni görərdikmi?! Amma Qərb Krımın işğalına göz yumdu. İndi isə onlar nələrsə danışırlar... Təəssüf ki, beynəlxalq ictimaiyyət bu ədalətsizliyin aradan qaldırılması üçün lazımi həssaslığı göstərmədi və zəruri dəstəyi vermədi. Ukrayna haqlı mübarizəsində yalnız qoyuldu. Evlərini tərk edən milki şəxsləri, qorxu və narahatlıq dolu uşaqları, xaraba olan şəhərləri, ölən dinc şəxsləri gördükcə kədərimiz artır".



Türkiyə Prezidenti həm Şuşa Bəyannaməsinin imzalanmasından sonrakı çıxışında, həm də Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının açılış mərasimlərində demişdir ki, bir həq zaman haqqın yanında olmuş, ədalətli tərəfləri müdafiə etmişik. Biz bunu nəinki otuz il düşmən tapdağında qalmış torpaqlarımızın işğaldan azad edilməsi prosesində, eləcə də Rusiya – Ukrayna münasibətlərinin ən kritik vəziyyətə çatması zamanı, dünyada yaranan taxıl probleminin həlli prosesində, Afrika ölkələrinin sosial-iqtisadi durumunun dünya liderlərinin nəzərinə çatdırılmasında, eləcə də, terrorçu qruplaşmaların Yaxın Şərqdəki fəaliyyətinə son qoyulması məqsədilə rəsmi Ankaranın atdığı addımlarda gördük və şahid olduq.

Azərbaycan Prezidenti İlham Əliyev də qardaş ölkə liderinin dövlət idarətməsindəki mükəmməl təcrübəsini və beynəlxalq aləmdəki nüfuzunu daim yüksək qiymətləndirir. Dövlət başçımız bu il aprelin 29-da İstanbulda keçirilmiş "TEKNOFEST" aerokosmik və texnologiya festivalındakı çıxışında fəxrlə xatırlatmışdır ki, bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir: "Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir. Türk Ordusu bu gün dünya çapında ən öndə olan ordularin sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir və uzun illər bundan sonra Türkiyənin təhlükəsizliyini təmin edəcəkdir".

> *Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir.*
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının Prezidenti***
>
> **İstanbul, 29 aprel 2023-cü il**

Millət vəkili Vüqar Bayramov Azərbaycan – Türkiyə münasibətlərinin bugünkü səviyyəsinə, eləcə də, Rəcəb Tayyib Ərdoğanın liderlik keyfiyyətlərinə münasibət bildirərkən demişdir ki, Türkiyə Azərbaycanın haqq işinə hər zaman dəstək verən ölkələrdəndir: "İstər Vətən müharibəsində, istərsə də Qarabağ və Şərqi Zəngəzurda quruculuq prosesində Türkiyənin dəstəyi hər zaman hiss edilib. İşğaldan azad olunan ərazilərimizdəki hər iki beynəlxalq hava limanlarının açılışında, Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin təməlqoyma mərasimində Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı və eləcə müttəfiqlik bəyannaməsinin Şuşada imzalanması da bunları təsdiq edir".

Xatırladaq ki, Türkiyə iqtisadiyyatı son 20 ildə Ərdoğanın rəhbərliyi ilə 3 dəfə böyüyüb. 2003-cü ildə 314 milyard dollar ÜDM-ə malik olan ölkə iqtisadiyyatı indi 900 milyard dollardan böyükdür. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması gözlənilir. Bu isə o deməkdir ki, xarici şoklar olmasa, bu il ölkə trilyon dollarlıq iqtisadiyyata malik məmləkətlər qrupuna daxil olacaq. Digər tərəfdən, Türkiyə 20 il öncə daha çox aqrar və xidmət sektorları üzrə ixtisaslaşmışdırsa, indi ölkə müasir sənaye dövlətinə çevrilməkdədir. Türkiyə hazırda hərbi, avtomobil sənayesində xüsusi üstünlüyə malik olan ölkələrdən hesab olunur.

Sonda xüsusilə vurğulayaq ki, beynəlxalq aləmdə davam edən ikili standartlardan bezar olmuş ölkələrin xalqları və siyasətçiləri cənab Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür" ifadəsini az qala, hər gün təkrar edirlər. Cənab Ərdoğan bu ifadəni BMT Təhlükəsizlik Şurasının beş daimi üzvünə etiraz olaraq demişdir. Biz fəxr edirik ki, Türkiyə Prezidentinin həmin tezisini dəstəkləyən və təkrarlayan ilk siyasətçilərdən biri məhz Prezident İlham Əliyev olmuşdur.

Cənab Rəcəb Tayyib Ərdoğan dünən yeni dönəm prezidentliyinə başladı. Biz əminik ki, bu gündən etibarən Türkiyədə və Türk dünyasında sözün həqiqi mənasında yeni dönəm başlayır.

Uğur olsun Türkiyə! Yaşasın Azərbaycan – Türkiyə dostluğu və qardaşlığı.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Hay xisləti: normal jestə anormal reaksiya

**Ermənistanın baş naziri Nikol Paşinyanın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirak etmək üçün Ankaraya səfəri gözlənildiyi kimi, erməni cəmiyyətinin radikal-revanşist-daşnak kəsiminin, habelə diasporun etirazı ilə qarşılanıb. Miflərin, erməni yalanlarının əsiri olan, Türkiyə ilə düşmənçiliyi davam etdirməkdən niyyətli urapartiotlar, Azərbaycanın qazandığı tarixi Zəfəri hələ də həzm edə bilməyənlər baş nazirin səfərini növbəti alçaldılma, aşağılanma hesab etdiklərini bildirirlər. Bəzi şərhlərdə isə N.Paşinyanın Ankara səfərinin sıradan hadisə olmadığı, bunun Türkiyənin regional miqyasdan çıxaraq, əsas geosiyasi oyunçuya çevrilməsinin göstəricisi olduğu qeyd olunur.**



## Ankara getdikcə ən etibarlı paytaxta çevrilir

Məsələn, "Ermənistanın səsi" qəzetində dərc olunmuş "Öz gələcəyinə doğru addım" sərlövhəli məqalədə deyilir: "Ankarada Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi çərçivəsində Nikol Paşinyan Türkiyə lideri ilə qısa söhbət edib. Bundan əvvəl xəbər verilmişdi ki, Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyev arasında Türkiyənin keçmiş baş naziri Binəli Yıldırımın da iştirak etdiyi ayaqüstü qısa müzakirə olub. Paşinyanın Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev ilə nə danışdığını geniş ictimaiyyətin, xüsusən də erməni ictimaiyyətinin bilməsinə ehtiyac yoxdur. Anlamaq üçün hadisə yerindən şəkillərə, Paşinyanın üzündəki ifadəyə baxmaq kifayətdir: onlar Ermənistanın baş naziri üçün xoş olan nədənsə danışırdılar. Ehtimal etmək olar ki, söhbət Ərdoğanın Paşinyana ayaq üstdə qısaca dediyi "apaqa ka"dan (erməni dilində "gələcək var" deməkdir-S.H) gedirdi".

Ancaq revanşist əhval-ruhiyyəli müəllif Ara Məliksetyan yazır ki, söhbət Ermənistanın, "Artsax"ın və erməni xalqının gələcəyindən deyil, Paşinyan və onun komandasının gələcəyindən gedir: "Bu yaxınlarda Nikol Paşinyan bəyan etmişdi ki, Ukrayna ətrafında davam edən geosiyasi böhran kontekstində Ermənistan üçün manevr imkanları getdikcə daralır. Aydındır ki, manevr imkanları ilk növbədə onun özü üçün daralır. Həm də imkanların daralması Ukrayna cəbhəsində Rusiya ilə Qərb arasında qarşıdurmanın kəskinləşməsi ilə bağlı deyil. Sahə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması tarixinin yaxınlaşması ilə daralır. Aydındır ki, sənədi imzalamaqla, bundan irəli gələn bütün nəticələrlə Paşinyan bu gün aralarında manevr apardığı əsas geosiyasi oyunçuların marağına səbəb olmayacaq. Onun artıq Bakı üçün də o qədər dəyəri qalmayacaq. Bununla belə finala doğru irəliləyən Ermənistan-Azərbaycan nizamlanma prosesindən fərqli olaraq, Ermənistan-Türkiyə prosesi hələ startdadır. Hələlik son tarixlər yoxdur və Ankaranın hələ uzun müddət Ermənistanın baş naziri postunda Paşinyana ehtiyacı olacaq. Türkiyənin Ermənistandan almaq istədiyi çox şey var. Faktiki olaraq, Ankara getdikcə ən etibarlı paytaxta çevrilir. Paşinyan bunun əsasında Ermənistanda hakimiyyətini qoruyub saxlaya bilər. Digər tərəfdən, Türkiyə özü açıq şəkildə regional çərçivədən kənara çıxaraq, əsas geosiyasi oyunçuya çevrilir".

Müəllif daha sonra yazır: "Bu şəraiti nəzərə alsaq, Paşinyanın nə Ərdoğanın inauqurasiya mərasiminə dəvəti qəbul etməsi, nə Türkiyə Prezidenti ilə görüşdə sevincli üz ifadəsi, nə də Türkiyənin təhrikçiliyini (?) və minlərlə erməninin həyatına son qoyan 44 günlük müharibədə birbaşa iştirakını (?) unutması qətiyyən təəccüblü deyil. Paşinyanın Türkiyəyə səfəri onun "apaqa"sında ciddi, həyati vacib addımdır".

## Oskanyan: "Bu işin açarı Bakıdadır"

"Doğru olan getməmək idi. Burada Paşinyanın ləyaqət problemi də var. Ərdoğan sözün həqiqi və məcazi mənasında təkcə erməni xalqını deyil, Paşinyanın özünü də təhqir (?) edib. Bu təhqirlər (?) heç kəsdə mərasimdə iştirak etmək istəyinə səbəb ola bilməzdi". Bunu isə revanşistlərin daha bir nümayəndəsi – Ermənistanın keçmiş (1998-2008) xarici işlər naziri Vardan Oskanyan öz "Facebook" səhifəsində yazıb.

O qeyd edib ki, N.Paşinyanın mərasimdə iştirakı Ermənistandakı və diaspordakı geniş dairələrdə təəccüb və qəzəbə səbəb olub: "Düzünü desəm, bu səfər məni nə təəccübləndirdi, nə də qəzəbləndirdi, çünki Paşinyan Ankarada erməni xalqını yox, özünü təmsil edirdi. O, hətta öz partiyasını və ya bütün hökuməti də təmsil etmədi, çünki heç kim məni inandıra bilməz ki, orada onun iştirakına qarşı çıxmayacaq adam yoxdur. Onun Ankarada hansı dəyərləri tapdaladığı sualının emosional və mənəvi tərəfini bir kənara qoyacam. Siyahı çox uzundur. Mən məsələni yalnız siyasi və diplomatik baxımdan təqdim edəcəm".

Oskanyan qeyd edib ki, Paşinyan bu səfəri ilə diplomatiyadan uzaq olduğunu bir daha göstərdi: "Mən tez-tez demişəm və təkrar etməkdən də çəkinməyəcəyəm ki, əgər onun minimal diplomatik bacarığı olsaydı, biz ilk növbədə müharibədən qaçardıq və bu gün Qarabağın bütün ərazisinə, onu Ermənistanla bağlayan 20 kilometrlik Laçın dəhlizi ilə birgə "Artsax"a malik olardıq. Paşinyan anlamır ki, zəlzələdən sonra Türkiyəyə yardım göstərməklə və Ərdoğanın andiçmə mərasimində iştirak etməklə, Ermənistan-Türkiyə münasibətlərinin tənzimlənməsi baxımından Ankaranı özünə cəlb edə bilməz. Türkiyə məqsədəuyğun hesab etdiyi zaman addımını atacaq. Üstəlik, Ermənistan-Türkiyə sərhədinin açılmasının və diplomatik münasibətlərin qurulmasının açarı Bakıdadır. İndi Qarabağ Bakıya verilir və Azərbaycanın digər şərtləri də tezliklə yerinə yetiriləcək. Türkiyə səfər edib-etməməsindən asılı olmayaraq sərhədi açacaq".

Hayların keçmiş baş diplomatı qeyd edib ki, Ermənistanla Türkiyə arasındakı münasibətlər, məsələn, Fransa və Yunanıstanın bu ölkə ilə münasibətlərindən daha vacib hesab etmək olmaz: "Ancaq nə Makron, nə də Mitsotakis o mərasimdə iştirak etmədilər. Həm də ona görə ki, Ərdoğan onları şəxsən təhqir (?) edib. Doğru olan getməmək idi. Əgər bütün erməni xalqı arasında bu səfərdən əziyyət çəkəcək bir nəfər olsaydı, getməyə ehtiyac yox idi, çünki getməməklə itirəcəyimiz heç nə yox idi".

**Haşiyə:** Ötən yazılarımızın birində revanşist düşərgəni təmsil edən 68 yaşlı V.Oskanyanın iflic xəstəliyindən əziyyət çəkdiyini bildirmişdik. Ancaq onun "Facebook" paylaşımı əqli inkişafdan da geri qaldığını, regionda gedən proseslərdən, o cümlədən müttəfiq olduqları Yunanıstanda hakimiyyət dəyişikliyinin baş verməsindən xəbərsiz olduğunu üzə çıxarıb. Əgər belə olmasaydı, Kiriakos Mitsotakisi Yunanıstanın baş naziri kimi təqdim etməzdi. Oskanyanın yunan hökumətinə mayın 25-dən bəri İoannis Sarmasın rəhbərlik etdiyini bilməsində fayda var.

> *Ekspert rəyi*
>
> **Rizvan HÜSEYNOV,**
> **hərbi-siyasi şərhçi**
>
> 
>
> – İndiki mərhələdə Ermənistanın Türkiyə və Azərbaycanla münasibətlərinin normallaşması əslində, daşnaklar və revanşistlər üçün ən böyük təhdiddir. Çünki "Daşnaksütyun" partiyasının yaradılmasının əsas məqsədi türklərə qarşı daim qırğınlar törətməkdir. Əgər bunu etməsələr, onlar siyasi arenadan getməlidir. Türkiyə və Azərbaycanla münasibətlər düzələ, belə deyək, zərbə altında ilk qalan daşnaklar olacaq. Erməni kilsəsinin vuran əli onlardır. Kilsənin başqa gücü yoxdur. Diasporun başlıca zərbə qüvvəsini daşnaklar təşkil edir. Paşinyan bunu çox yaxşı bilir. Başa düşür ki, daşnakları sıxıb Ermənistanda onların fəaliyyətinə qadağa qoysa, bununla xaricdən uzanan bəzi əlləri də kəsmiş olacaq.
>
> Yay ayları ərzində müxtəlif səviyyələrdə intensiv Ermənistan-Azərbaycan danışıqları olacaq. Artıq Türkiyədə prezident seçkiləri başa çatıb. Rəcəb Tayyib Ərdoğanın qələbəsindən sonra Türkiyə də aktiv fazaya başlayır. Eyni zamanda Ankara bütövlükdə regionda gedən proseslərdə fəal rol oynayacaq. Bu mərhələdə Paşinyan revanşistlərin, daşnakların qarşısını alsa, deməli, sülhün və sabitliyin bərqərar olması üçün ciddi manea qalmayacaq.

## Paşinyan mərasimdə niyə ikinci cərgədə əyləşib?

Qeyd etdiyimiz kimi, Paşinyanın mərasimdə iştirakı, Ankarada kimlərlə görüşməsi, söhbət etməsi və sair nüanslar haylar arasında qızğın diskussiya predmetidir. Dünən parlamentdə müzakirələr zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyana müxalifətçi "Hayastan" fraksiyasından olan deputat Artur Xaçatryan N.Paşinyanın mərasimdə niyə ikinci cərgədə əyləşməsi ilə bağlı sual ünvanlayıb. A.Mirzoyan deputata belə cavab verib: "Bu, protokol məsələsidir, bütün baş nazirlər ikinci cərgədə oturmuşdular. Ərdoğan üçün önəmli şəxs olan Macarıstanın Baş naziri Orban da ikinci cərgədə əyləşib. Bu, sadəcə, protokol məsələsidir".

## Bardakçı ilə foto da müzakirələrə səbəb oldu

Diaspor erməni, "California Courier" qəzetinin naşiri və redaktoru Arut Sasunyan isə "Facebook" səhifəsində N.Paşinyan və türk jurnalist Murad Bardakçının Ankarada çəkdirdiyi fotosunu paylaşıb. O, fotonun altında yazıb: "Paşinyanın yanında dayanmış qırmızı qalstuklu şəxs Təlәt Paşanın fəaliyyətini tərənnüm etməklə məşğul olan türkiyəli jurnalist Murad Bardakçıdır. Paşinyan komandasının bu şəklin çəkilməsinə necə icazə verməsi təəccüblüdür".

## Türkyönlülər fəlakətə apara bilər

"Biz kimik? Bu sual çox vacibdir, çünki Ermənistanda cəmiyyətin türkyönlü hissəsi fərqinə varmadan həm özünü, həm də başqalarını fəlakətə sürükləyə bilər". Bu barədə isə "Alternativ layihələr" qrupunun eksperti Vahe Ovannisyan öz məqaləsində yazıb.

"Türkiyə prezidenti Ərdoğanın andiçmə mərasimində Nikol Paşinyanın iştirakı və alçaldılma (?) epizodları Ermənistan cəmiyyətində narazılıq dalğasına və bunu ifadə etmək istəyinə səbəb olmur. Niyə? Bəlkə bu, cəmiyyətin əhval-ruhiyyəsidir? Ola bilsin ki, bu gün cəmiyyətin əhəmiyyətli hissəsinin "Birləşmək" şüarı altında kvazi oyanışı var, lakin bu, bu gün türk dünyasının birləşməsini nəzərdə tutur. 1988-ci ildə bu, erməni dünyasının (?) hissələrinin birləşməsi demək idisə, indi türk dünyasının hissələrinin birləşməsi deməkdir. Bunun bütün erməni xalqının ideyası olduğunu düşünmək fikrindən uzağam, lakin bu ideyanın çoxlu daşıyıcıları mövcuddur və onun gücü var".

Bundan əlavə, Ermənistan parlamentindəki "Şərəfim var" fraksiyasından olan deputat Tiqran Abramyan, parlamentin keçmiş vitse-spikeri Eduard Şarmazanov və digərləri N.Paşinyanın Ankaraya səfərini tənqid ediblər. Ancaq bu radikal-revanşist kəsim deyəsən hələ də dərk etmir ki, Ermənistan 44 günlük müharibədə biabırçı məğlubiyyətə uğrayıb. Müharibənin başa çatmasından ötən iki il yeddi aya yaxın dövr ərzində Azərbaycan yeni diplomatik-siyasi və hərbi qələbələr əldə edib. Ermənistan rəhbərliyi dövlət və xalq üçün məsuliyyət daşıyan qüvvə kimi yeni itkilərlə üzləşməmək, dövlətçiliyin, müstəqilliyin itirilməsinin qarşısını almaq üçün Azərbaycanla, Türkiyə ilə münasibətləri normallaşdırmaq yolunu tutub. Paşinyan anlayır ki, Ermənistan dövlətini qorumağın, özünün dediyi kimi "kadastr şəhadətnaməsi" əldə etməyin yolu Bakı və Ankara ilə normal qonşuluq əlaqələri yaratmaqdan keçir. Radikal-revanşist kəsim isə özlərini erməni xalqının cəfakeşi kimi göstərsə də, əslində haylara ən böyük zərbəni vururlar. Erməni xalqının onları siyasi səhnədən birdəfəlik silib atması günün tələbidir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

**Keçmiş sovet imperiyasının süqutundan sonra Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqələrinin kəsilməsi, quru yolların bağlanması bu diyarın tam blokadaya alınması ilə nəticələnmişdi. Erməni təcavüzünün güclənməsi ilə yanaşı, Azərbaycanın o zamankı rəhbərliyinin muxtar respublikanı siyasi cəhətdən təcrid vəziyyətinə salması da kəskin böhran vəziyyəti yaratmışdı.**



# Heydər Əliyevin Naxçıvana rəhbərliyi tarixi rəşadət nümunəsidir



Amma belə bir mürəkkəb şəraitdə Naxçıvana rəhbərlik etməli olan ümummilli lider Heydər Əliyev qonşu Türkiyə və İranla humanitar əlaqələrin qurulmasına nail oldu. Bu dövrdə informasiya blokadası da ciddi təhdidləri ilə qalmaqda idi. Rəsmi mediaya Naxçıvanla bağlı qoyulan qadağalar burada baş verənlərin Azərbaycan ictimaiyyətinə çatdırılmasına imkan vermirdi.

Ümummilli lider Heydər Əliyevin 1990-cı ilin iyul ayında Moskvadan Naxçıvana qayıdışı, siyasi fəaliyyətini davam etdirməsi Azərbaycandan ayrı salınmış muxtar respublikanı siyasi oyunlardan, erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində həmin tarixi proseslərin mühüm nəticələrini ümumiləşmiş şəkildə belə ifadə etmişdi: "Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi".

Ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü siyasi fəaliyyətinin mətbuatda işıqlandırılması gedişini 2 hissəyə bölmək olar: böyük siyasətçinin Naxçıvana dönüşünün ilkin mərhələsi – 22 iyul 1990-cı ildən muxtar respublikanın Ali Məclisinə sədr seçildiyi 3 sentyabr 1991-ci ilə qədər; Naxçıvana rəhbərliyə başlamasından Bakıya siyasi hakimiyyətə dəvət edilməsinədək olan müddət.

Naxçıvana qayıdışının ilk günlərində ulu öndər "Şərq qapısı" qəzeti müxbirinin "Gəlişinizin əsas məqsədi?" sualını belə cavablandırmışdı:

– Əvvəla, mən beş ildir ki, Azərbaycanda olmamışam. Axı Vətən çəkir, get-gedə daha çox çəkir. İkinci, mənim evində oturduğum böyük bacım bir neçə il əvvəl vəfat edib. O vaxt mən xəstəxanada olduğumdan bunu mənə bildirməyiblər. Son vaxtlarda bildiriblər. Mən onun xatirəsini yad etməliydim. Atamın qəbri burada, anamın qəbri Bakıdadır. Onları da ziyarət etməliydim, ya yox?"

Doğma Vətəninə rahatlıq tapmaq niyyəti ilə üz tutan dahi insan daha ciddi burulğanlara düşür, haqsızlıq və şər-böhtanlarla üzləşməli olur. Amma yenə insanların əhatəsindədir, adamlar – təkcə naxçıvanlılar yox, bütün Azərbaycan xalqı ondan xilas yolunu istəyir. Yüz minlərlə insanın kömək ummasına, təbii ki, ümummilli lider olaraq biganə qala bilməzdi.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasi Ali Məclisinin sədri seçilməyi ilə əlaqədar "Şərq qapısı" qəzetinin 6 sentyabr 1991-ci il tarixli sayında dərc edilmiş bəyanatında bu addımın obyektiv və zəruri səbəblərini açıqlanırdı: "Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan MR Ali Məclisinə sədr seçdilər. Sədr seçiləndən sonra da mən sədrlik etməkdən imtina etdim. Dünən sessiya keçirilərkən binanın qarşısına minlərlə Naxçıvan əhalisi (təkcə şəhərdən yox, rayonlardan, kəndlərdən gələnlər) kənardan sessiyaya təsir göstərir və tələb edirdilər ki, Heydər Əliyev seçilsin. Onların təzyiqinin qarşısında dura bilməzdim.

Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini, sonra sessiyadakı çıxışları nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir. Ona görə belə bir ziddiyyətli vəziyyətdəyəm və bu vəziyyətdə də qalıram. Ancaq eyni zamanda mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

Bu dövrdən Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri kimi ciddi bir statusun daşıyıcısı olması, onun siyasi imkanlarını genişləndirməklə yanaşı, məsuliyyətini də hədsiz dərəcədə artırdı. Bu barədə sonralar YAP-ın Culfa rayon təşkilatının təsis konfransında demişdi: "Mən Bakıda Amerikanın, Fransanın, Türkiyənin, İranın, İngiltərənin və Rusiyanın səfirləri ilə görüşdüm. Geniş söhbət etdik. İngiltərənin Moskvadakı səfiri ilə söhbətdə o dedi ki, əgər Amerika Naxçıvana yardım edirsə, biz də Naxçıvana kömək etmək istəyirik. Səfir dedi ki, Siz çox ağır vəziyyətdə yaşayırsınız. Fransanın səfiri ilə söhbət zamanı o dedi ki, biz də Naxçıvana köməklik edəcəyik. Mən öz növbəmdə çatdırdım ki, əgər Ermənistanın blokadada olmasından danışırsınızsa, Naxçıvan ondan da pis vəziyyətdədir. Birləşmiş Millətlər Təşkilatı qərar qəbul etmişdir ki, Ermənistana köməklik göstərilsin. Əgər əsas səbəb blokada şəraitidirsə, deməli Naxçıvana da köməklik göstərilməlidir. Bill Klinton belə qərar qəbul edib ki, Naxçıvana yardım olunsun. Bunun siyasi əhəmiyyəti çox böyükdür".

Xarici qüvvələrin təcavüz və fitnəkarlıqları azalmadığı kimi, Azərbaycanın daxilində də hakimiyyət uğrunda gedən mübarizə davam edirdi. Bunlar on birinci çağırış Azərbaycan Ali Sovetinin birinci sesiyasında açıq şəkildə hiss olundu. "Aydınlq" və "Vətən səsi" qəzetləri deputat Heydər Əliyevin sesiyadakı çıxışının tam mətnini yaymaqla, xalqın böyük siyasətçiyə olan inamını cavablandırdı. Ali Sovetin 7 mart 1991-ci il sesiyasında çıxış edən Heydər Əliyev SSRİ-nin qorunub saxlanılması barədə referendumun əleyhinə səs verməklə, o zamankı iqtidarın düzgün yolda olmadığını göstərdi. "Səs" qəzetinin 15 mart tarixli sayında dərc edilmiş bu çıxış Azərbaycanın siyasi həyatında müstəqilliyə doğru atılan addımın nümunəsi idi.

Heydər Əliyevin təklifi ilə Naxçıvan MR Ali Məclisində ümumittifaq referendumunda Naxçıvan MR-in iştirak etməməsi barədə qərarın qəbulu hakimiyyət – Naxçıvan münasibətlərini daha da kəskinləşdirdi. Bu siyasi gərginlik 1991-ci ilin bütün siyasi hadisələrində özünü göstərmiş, dövrün mətbuat orqanlarında ciddi polemikalara yol açmışdır. Hətta Moskvada "avqust qiyamının" baş verməsi və onun Azərbaycan hakimiyyəti tərəfindən dəstəklənməsi Naxçıvanda ciddi rezonans yaratmışdı.

Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası Dövlət Fövqəladə Vəziyyət Komitəsinə mənfi münasibət bildirməklə, onu dəstəkləyən yerli partiya və sovet orqanlarını ləğv etmişdi. Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sesiyasında (29 avqust 1991-ci il) "Respublikada siyasi vəziyyət haqqında" məsələnin müzakirəsi zamanı etdiyi çıxışa görə siyasi təqibə məruz qalmış Heydər Əliyev 1993-cü il iyun ayının 13-dək Ali Sovetin sesiyalarında və parlamentin iclaslarında iştirak etməmişdir.

Heydər Əliyevin bu dövrdəki fəaliyyəyi Naxçıvanın gələcək taleyi və inkişafı ilə bağlı idi. Həmin dövrdə Azərbaycanın ictimai-siyasi həyatındakı hakimiyyət qarşıdurması, ölkənin və xalqın çətin vəziyyəti, bu yöndə yolların axtarılması onu düşündürən ümdə vəzifələrdən idi. Heydər Əliyev Türkiyənin "Milliyyət" və "Hürriyyət", Amerikanın "Vaşinqton post" qəzetlərinin müxbirləri ilə görüşündə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğunu təkidlə vurğulamışdı. Ulu öndər Türkiyənin "Samanyolu" telekanalına müsahibəsində bildirmişdi: "Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, muxtar respublikadır. Naxçıvanın xüsusiyyəti ondan ibarətdir ki, vaxtilə Azərbaycana qarşı ədalətsizlik edilib və Zəngəzur diyarının Ermənistana verilməsi ilə əlaqədar Naxçıvan Azərbaycanın əsas torpağından ərazi nöqteyi-nəzərindən ayrı düşübdür".

O zaman Türkiyə və İran dövlətləri ilə diplomatik münasibətlərin qurulmasında uğurlu addımlar atılsa da, həllini gözləyən ciddi çətinliklər qalmaqda idi. İnformasiya blokadası daha ciddi fəsadları ilə gündəmdə idi. 1992-ci ilin 7 iyununda "Real" informasiya agentliyinin fəaliyyətə başlaması informasiya blokadasının yarılması üçün atılan yeni bir addım oldu. "Azərbaycan" nəşriyyatında "Real" informasiya agentliyinin hazırladığı "Naxçıvan yaşayır, döyüşür" foto-albomunun bir neçə dildə nəşr edilərək, kütləvi yayımlanması Naxçıvan reallıqlarının az da olsa ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Bundan dörd ay sonra Bakıda "Naxçıvan" həftəlik ictimai-siyasi qəzetinin nəşrə başlaması ictimaiyyətin böyük marağına səbəb oldu, eyni zamanda, Naxçıvanda baş verənlərin cəmiyyətə çatdırılmasında mühüm rol oynadı. Gərgin mübarizə və blokada şəraitində yaşayan Naxçıvan həqiqətlərinin cəmiyyətə çatdırılmasında xüsusi yeri olan qəzetə Heydər Əliyevin fəaliyyətə başlaması münasibəti ilə təbrik məktubu göndərmişdi.

Bu dövrdə Azərbaycan ziyalılarının – sonralar "91-lər"in müraciəti adlanan çağırışı mətbuatda dərc olundu. Buna cavab olaraq Heydər Əliyevin Azərbaycan ziyalılarına ünvanlanmış "Yeni, Müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubunun mətbuatda dərci ciddi sensasiya yaratmaqla, Heydər Əliyev ideyalarının möhtəşəmliyini bir daha ortaya qoydu. Bu zaman AXC Naxçıvan və Ordubad şöbələrinin Naxçıvanda dövlət çevrilişinə cəhd göstərməsi mətbuatın gündəmini zəbt etdi. Yerli və xarici jurnalistlər üçün 1992-ci ilin 27 oktyabrında mətbuat konfransı keçirən Heydər Əliyev bu dəfə də müdrik siyasəti ilə Naxçıvanda sakitliyə nail oldu.

Bir gün sonra Naxçıvan Televiziyası ilə xalqa müraciət edən Heydər Əliyev əhalini şayiələrə uymamağa, yaranmış gərginliyi aradan qaldırmaq üçün sabitliyi gözləməyə çağırdı. Eyni zamanda, həmin gün "Naxçıvan" qəzeti onun "İnsan xalq üçün yaşayanda xoşbəxt olur" sərlövhəli müsahibəsini dərc etdi. Bu qayğılı və gərgin dövr həm də YAP təşkilat komitəsinin yığıncağının və təsis konfransının keçirildiyi, eləcə də Heydər Əliyevin açıq səsvermə yolu ilə partiyanın sədri seçildiyi günlərə təsadüf edir.

Bu dövr Azərbaycan cəmiyyətinin bütün sahələrində olduğu kimi, mətbuatın inkişafında yeni mərhələ olmuş, söz və mətbuat azadlığını həyati reallığa çevirmişdir. Bu da Azərbaycan mətbuatının peşəkar və demokratik şəraitdə inkişafına şərait yaratmış, milli mətbuatı xaosdan və anarxiyadan qurtarmışdır.

1993-cü ilin yayından başlayaraq Naxçıvandakı 3 illik xilaskarlıq missiyasını müstəqil Azərbaycan dövlətinə rəhbərliyi qəbul etməklə davam etdirən ümummilli lider Heydər Əliyev mətbuatın da azad fəaliyyətinə geniş imkan yaratmış, onun inkişafını əngəlləyən bütün amillərin aradan qaldırılmasının qanunvericilik bazasında həllinə nail olmuşdur. Bundan sonra kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün silsilə tədbirlər həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyevin senzuranı aradan qaldırması mətbuatın inkişafında yeni bir mərhələ oldu. 1998-ci il 6 avqust tarixində "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" verilən fərman mətbuatı senzuradan azad etməklə yanaşı, onun inkişafını və cəmiyyət həyatındakı rolunu artırdı.

Böyük siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyev xalqa rəhbərlikdə mətbuatın gücünü yüksək qiymətləndirməklə, onun imkanlarından da səmərəli istifadəni məharətlə bacarmış və siyasi fəaliyyətinin bütün dövrlərində bunu özünün həyat prinsipi kimi qəbul etmişdir.

Ulu öndərin Naxçıvanda siyasi təcrid şəraitində media ilə qurduğu əlaqələrin təsirliliyi və yaratdığı gerçəklik bunu bir daha sübut edir. Bütövlükdə, Heydər Əliyevin ən çətin durumda Naxçıvana rəhbərliyi, onu işğaldan və fəlakətdən xilas etməsi tarixi rəşadət nümunəsidir.

**Namiq ƏHMƏDOV,**
**"Xalq qəzeti"**

# Ulu öndərə Vətən müdafiəçilərinin ehtiramı

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Kəlbəcərdə hərbi hissədə tədbir keçirilib.**



Mərasimdə çıxış edən Hərbi prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev və şöbə rəisi Nihad Şıxəliyev, Kəlbəcər hərbi prokuroru Mahir Bayramov və Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan bəhs ediblər.

# Tevfik Ulual: "Ürəyimdəki Azərbaycan"

**Şimali Kipr Türk Cümhuriyyətinin Bakı nümayəndəliyinin təşkilatçılığı ilə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Tevfik Ulualın "Ürəyimdəki Azərbaycan" adlı fotosərgisi keçirilib.**

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasından bildirilib ki, sərgidə AQSİA İdarə Heyətinin sədri Səkinə Babayeva, bir sıra ictimaiyyət nümayəndələri üzvləri və hər iki ölkənin rəsmi nümayəndələri iştirak ediblər.



Xatırladaq ki, ötən il assosiasiya ilə Şimali Kipr Türk Cümhuriyyətinin Girişimci Kadınlar Derneği əməkdaşlığa və gələcək birgə layihələrin işlənməsinə dair memorandum imzalanıb.



# Heydər Əliyev - "Xalqın adamı"

**İstanbulda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Xalqın adamı" adlı tədbir keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Türkiyə-Azərbaycan Dərnəklər Federasiyası və İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə siyasi partiyaların, vətəndaş cəmiyyətinin nümayəndələri və soydaşlarımız iştirak ediblər.

Komitə sədrinin birinci müavini Valeh Hacıyev çıxışında ölkəmizin və türk dünyasının qüdrətli liderlərindən biri olan Heydər Əliyevin həyat və fəaliyyəti barədə danışıb. Dahi şəxsiyyətin "bir millət, iki dövlət" adlandırdığı Türkiyə-Azərbaycan dostluğundan və qardaşlığından söz açıb.

Tədbirdə çıxış edən İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Məhşəti Şərif, Vətən Partiyasının sədri Dr. Doğu Perinçek, Ədalət və İnkişaf Partiyasının üzvü Metin Külünk yeni dünya düzənində ölkələrimizin yerindən və rolundan danışıblar, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Heydər Əliyevin mübarizə həyatının bənzərliyinə diqqəti cəlb ediblər.

# Baş nazir Dünya Bankının nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 5-də Dünya Bankının nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, fəaliyyət müddəti cari ayda başa çatan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus həmin vəzifədə yeni fəaliyyətə başlayacaq Rolande Praysı və bankın Azərbaycan üzrə yeni ölkə meneceri Stefani Stolmeysteri Baş nazirə təqdim edib.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, ötən müddət ərzində müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurla həyata keçirildiyi bildirilib.

Eyni zamanda, bir çox istiqamətlərdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

*"Xalq qəzeti"*

# Əli Əsədov Cevdet Yılmazı təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Cevdet Yılmaza Türkiyə Respublikasının Vitse-prezidenti vəzifəsinə təyin edilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.**

Məktubda Cevdet Yılmazın yüksək vəzifəyə təyinatı qardaş Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın ona olan böyük inam və etimadının aşkar təzahürü kimi qiymətləndirilib.

Vurğulanıb ki, son illər ərzində Türkiyə hərtərəfli inkişaf nümayiş etdirərək beynəlxalq aləmdə güc mərkəzinə çevrilib.

Məmnunluqla qeyd olunub ki, möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Türkiyə əməkdaşlığı münasibətləri bu müddət ərzində prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qətiyyətli səyləri ilə möhtəşəm yol keçərək sarsılmaz dostluq və qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlib.

Azərbaycan və Türkiyənin birgə səyləri ilə həyata keçirilən nəhəng layihələrin iki ölkənin, eləcə də regionun dünya miqyasında əhəmiyyətini artırdığı, bölgədə sülhə, əməkdaşlığa və inkişafa xidmət etdiyi bildirilib.

***

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının sabiq Vitse-prezidenti Fuat Oktaya təşəkkür məktubu ünvanlayıb.**

Məktubda Türkiyənin Vitse-prezidenti olduğu müddətdə Azərbaycan ilə münasibətlərin inkişafına yetirdiyi diqqətə görə F.Oktaya minnətdarlıq ifadə olunub.

F.Oktayın İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri kimi Azərbaycan-Türkiyə əməkdaşlığının müxtəlif sahələrdə genişləndirilməsinə verdiyi töhfə yüksək qiymətləndirilib.

# Gənc diplomatlar proqramı başa çatıb






**İyunun 5-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə həyata keçirilən Gənc Diplomatlar üçün Xarici Siyasət Proqramının məzun günü keçirilib.**

Məzun günündə xarici işlər naziri Ceyhun Bayramov, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev, XİN-in struktur bölmə rəhbərləri və gənc diplomatlar iştirak ediblər.

Tədbirdə salamlama nitqi ilə çıxış edən ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə 8 ay müddətində baş tutan Xarici Siyasət Proqramının yekunlaşması münasibətilə proqram iştirakçılarını təbrik edib, onlara diplomatik fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra 2022-ci il oktyabrın 10-dan 2023-cü il mayın 20-dək həyata keçirilən Xarici Siyasət Proqramının məzmunu, müxtəlif sahələr üzrə təşkil olunmuş təlimlər və səfərlər haqqında ətraflı məlumat verilib.

Daha sonra Xarici Siyasət Proqramının hesabat videoçarxı nümayiş olunub.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çoxmərhələli imtahan prosesi nəticəsində diplomatik xidmətə qəbul olunmuş gənc diplomatları Xarici Siyasət Proqramının məzunu olmaları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Hazırkı dövrdə transformasiyaya uğrayan beynəlxalq münasibətlər sistemində ölkəmizin milli maraqlarına əsaslanan Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursunun irəlilədilməsində diplomatların üzərinə mühüm vəzifələrin düşdüyü qeyd olunub. Nazir Ceyhun Bayramov bu istiqamətdə çağırışların öhdəsindən gəlmək üçün diplomatların bilik və bacarıqlarının artırılmasının vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən və öz diplomatik təcrübəsini iştirakçılarla bölüşən ADA Universitetinin rektoru, professor Hafiz Paşayev gənc diplomatlara fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra gənc diplomatlar Xarici Siyasət Proqramı haqqında fikir və təəssüratlarını bölüşüb, təşkilatçılara təşəkkürlərini bildiriblər.

*"Xalq qəzeti"*

# AŞPA-nın həmməruzəçiləri ilə görüş



**İyunun 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və Liz Kristofersen ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə tərəflər arasında Azərbaycanın və AŞPA-nın əməkdaşlıq gündəliyində duran məsələlər, gələcək perspektivlər, o cümlədən regionda mövcud cari vəziyyət və AŞPA Parlament Assambleyasının Azərbaycan-Ermənistan arasında normallaşma prosesinə mümkün töhfələri ətrafında müzakirə aparılıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədəki mövcud vəziyyət, Azərbaycan tərəfindən aparılan genişmiqyaslı bərpa və quruculuq layihələrindən söz açaraq Ermənistanın təxribatlarına və prosesləri ləngitmək səylərinə baxmayaraq bölgədə sülhün və sabitliyin təmini istiqamətində, o cümlədən sülh müqaviləsinin imzalanması, bütün kommunikasiyaların açılışı və digər məsələlərdə ölkəmiz tərəfindən atılan mühüm addımlardan bəhs edib.

AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri ölkəmizə səfər çərçivəsində Ağdam rayonuna səfər etdiklərini və Azərbaycan tərəfindən aparılan genişmiqyaslı yenidənqurma işləri ilə yaxından tanış olduqlarını bildiriblər. Regionda sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyi vurğulanıb.

# Kəşfiyyat fəaliyyətinin qarşısı alınıb

**İyunun 4-ü saat 20:10 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinə məxsus kvadrokopterin Ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin üzərində kəşfiyyat xarakterli uçuş apardığı müşahidə edilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində mövqelərimiz üzərində uçuş həyata keçirməyə cəhd göstərən kvadrokopterin fəaliyyətinin qarşısı alınıb.

Bundan başqa, saat 18:25 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

*"Xalq qəzeti"*

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 5-də İsrail Knessetinin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Yoel Edelşteynin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. S.Qafarova diqqətə çatdırıb ki, ölkələrimiz arasındakı fəal siyasi dialoq, yüksək səviyyəli səfərlər və görüşlər münasibətlərin inkişafında müstəsna rol oynayıb.**

# Azərbaycan və İsrail tərəfdaş ölkələrdir



O, Prezident İsxak Hersoqun may ayında Azərbaycana ilk rəsmi səfərini yüksək qiymətləndirib və bu səfərin Azərbaycan ilə İsrail arasında münasibətlərin inkişafına böyük töhfə verəcəyinə inamını bildirib.

S.Qafarova parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafında oynadığı müsbət roldan bəhs edərək, bu istiqamətdə hər iki parlamentdə qarşılıqlı dostluq qruplarının fəaliyyətini, parlament üzvlərinin səfərlərini yüksək qiymətləndirib və Milli Məclisin Knessetlə əməkdaşlığı daha da genişləndirməyə hazır olduğunu vurğulayıb.

İsrail Knessetinin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Yoel Edelşteyn göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, ölkəmizə səfəri ilə bağlı xoş təəssüratlarını bölüşüb və İsrailin Azərbaycanı özünə dost ölkə saydığını deyib.

Yuli Yoel Edelşteyn ölkələrimizin bir sıra sahələr üzrə uğurlu əməkdaşlıq əlaqələrinə malik olduğunu qeyd edərək, bildirib ki, parlamentlərimiz arasında münasibətlərin daha da inkişafı Azərbaycan və İsrail arasında münasibətlərin dərinləşməsində özünəməxsus rol oynayır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*Ə.BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# Azərbaycan nümayəndə heyəti BMT sessiyasında iştirak edir



Azərbaycan nümayəndə heyəti BMT-nin Məskunlaşma Proqramı Assambleyasının sessiyasında iştirak edir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin başçılıq etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Keniyanın paytaxtı Nayrobi şəhərindəki baş qərargahında keçirilən İkinci sessiyasında iştirak edir.

İyunun 5-dən 9-dək keçiriləcək sessiyanın əsas mövzusu "İnklüziv və effektiv çoxtərəfli yanaşma vasitəsilə davamlı şəhər gələcəyi: qlobal böhranlar şəraitində davamlı inkişaf məqsədlərinə nail olmaq"dır.

# Dünya Bankı Qrupunun Azərbaycan üzrə yeni sənədi hazırlanacaq

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Rolande Praysla görüşüb. İqtisadiyyat naziri xanım Praysı və Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Stefani Stolmeysteri yeni vəzifələrinə təyin olunmaları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.**



Nazirlikdən bildirilib ki, iqtisadiyyat naziri Azərbaycanın Dünya Bankı ilə uğurla əməkdaşlıq etdiyini, ölkəmizdə bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələrinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Nazir qeyd edib ki, Dünya Bankı ilə əlaqələrimiz çoxşaxəlidir. Bankla özəl sektorun diaqnostikası, innovasiyalar, rəqəmsal inkişaf, idarəetmə texnologiyalarının inkişafı və digər sahələrdə əməkdaşlıq Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, müasir texnologiya və yeniliklərin ölkəmizə gətirilməsi baxımından xüsusi önəm kəsb edir.

Görüşdə Azərbaycan iqtisadiyyatının prioritetləri, o cümlədən iqtisadi diversifikasiya, qeyri-neft sektorunun inkişafı, investisiyaların təşviqi və biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, əldə olunan nəticələr barədə məlumat verilib.

Rolande Prays ölkəmizin strateji inkişaf məqsədlərinə nail olunması istiqamətində bankın Azərbaycan hökuməti ilə sıx əməkdaşlığı davam etdirəcəyinə əminliyini bildirib, tərəfdaşlığın yeni istiqamətləri barədə fikirlərini bölüşüb. Tərəflər, həmçinin Dünya Bankının Azərbaycanda gələcək fəaliyyətini və investisiya layihələrinin indikativ proqramını, eləcə də 2023-2028-ci illəri əhatə edən Dünya Bankı Qrupunun Azərbaycan üzrə yeni Ölkə Tərəfdaşlıq Çərçivə Sənədinin hazırlanması üzrə növbəti addımları müzakirə ediblər.

*"Xalq qəzeti"*

# Sığorta-pensiya sistemi liberal islahatlara əsaslanır

**Son vaxtlar mediada sosial sığortaya əsaslanan pensiya sistemində mövcud mexanizmin tətbiqi ilə bağlı fərqli fikirlər səsləndirilir. Bəzi şəxslər tərəfindən vətəndaşın hesabında yığılan pensiya kapitalının pensiya yaşına çatdıqda birdəfəlik alınması ilə bağlı iddialar irəli sürülür. Əks tərəf isə bunun sosial sığorta prinsiplərinə zidd olduğunu vurğulayır, bəzi ölkələrdə tətbiq edilən belə mexanizmin, əsasən, pensiya kapitalına deyil, peşə birliklərinə ödənilən sığorta vəsaitlərinin birdəfəlik alınması kimi izah edir. Bu zaman qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq, Azərbaycanda mövcud qanunvericiliyə əsasən pensiya vəsaitlərinin gözlənilən yaş müddətindən başlayaraq aylar üzrə hissə-hissə və hər il indeksləşdirilməklə ödənilməsinin nəzərdə tutulduğu bildirilir.**

**Bu və ya digər məsələlərlə bağlı iqtisadçı-ekspert Eyyub Kərimli söhbət zamanı dedi:**

– Cari il yanvarın 1-nə olan məlumata əsasən, Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 114,2 min (ötən ilin yanvarın 1-i vəziyyətinə 1 milyon 200,5 min) pensiyaçı qeydiyyatda olub ki, bu da ölkə əhalisinin 11 faizini təşkil edir. Onların 62,5 faizi yaşa, 24,5 faizi əlilliyə, 13 faizi isə ailə başçısını itirməyə görə pensiya alır. Təyin olunan aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faiz artaraq 372,1 manat təşkil edib və orta aylıq əmək haqqının 44,3 faizinə bərabər olub.



"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda edilən müvafiq dəyişikliyə əsasən, əmək pensiyasının minimum məbləği 16,6 faiz artırılaraq 2023-cü il fevralın 1-dən 280 manat müəyyənləşdirilib. Ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2023-cü il yanvarın 1-dən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılıb.

Bununla yanaşı, ötən müddətdə əhalinin sosial müdafiəsinin təmin edilməsi məqsədilə ayrı-ayrı kateqoriyadan olan şəxslərə müxtəlif növ aylıq sosial müavinətlər təyin edilib. Məsələn, cari ilin yanvarın 1-nə olan məlumata əsasən, yaşa görə müavinət alanların sayı 1 milyon 28,3 min (ötən ilin yanvarın 1-də 1 milyon 13,6 min) nəfər, əlilliyə görə – 46,7 min nəfəri 18 yaşınadək əlilliyi müəyyənləşdirilən şəxslər olmaqla, cəmi 209,5 min (müvafiq olaraq 55,8 min və 206,1 min) nəfər, ailə başçısını itirməyə görə – 56,1 min (54,3 min) nəfər, digər müavinət növlərini alanların sayı isə 24,3 min (22,9 min) nəfər olub.

Rəsmi statistikaya nəzər salanda məlum olur ki, Azərbaycanda orta ömür müddəti azalmaqdadır. Əgər pensiya yaşının artırılması ilə bağlı qanunvericiliyə dəyişiklik ilində–2017-ci ildə ölkədə orta ömür 75,4 il olmuşdusa, ötən il bu göstərici 73,6 ilə enib. Orta ömür müddətini cinslərə bölsək, qadınlarda bu göstərici bir qədər yüksək–75,9 il olsa da, kişilərdə aşağı–71,3 ildir. Müqayisə üçün deyək ki, 2017-ci ildə kişilərin orta ömrü 73,1 il, qadınların isə 77,8 il olub.

Məsələyə şəhər və kənd yerləri üzrə yanaşsaq, vəziyyət bir qədər də dəyişir. Çünki şəhər yerlərində orta ömür müddəti daha aşağıdır. Təkcə ötən il şəhərlərdə orta ömür 73,1 il, o cümlədən kişilərdə 70,4 il, qadınlarda 75,1 il təşkil edib. Kənd yerlərində isə orta ömür müddəti 74,7 il, o cümlədən kişilərdə 72,4 il, qadınlarda 76,8 il olub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycanda 65 yaşınadək ölənlərin sayı 30 min 544 nəfər olub ki, bunun da 18 min 922 nəfəri və ya 61,9 faizini kişilər təşkil edib. Həmin il ölən kişilərin 47 faizinin yaşı 65-ə qədər olub.

Ötən il dünyasını dəyişənlərin 27 min 362 nəfəri əmək qabiliyyətli olub. Bunun da 18 min 592 nəfəri və ya 67,9 faizi kişilər olub. Yeri gəlmişkən, əmək qabiliyyətli dedikdə, bu, 2021-ci ildə kişilər üçün 15-64,5 yaş, qadınlar üçün isə 15-61,5 yaş nəzərdə tutulub. Ötən il ölkə üzrə, ümumilikdə, 40 min 261 nəfər kişi dünyasını dəyişib. Bu da o deməkdir ki, ötən il ölən kişilərin 46,2 faizi, ümumiyyətlə, pensiya almayıb.



Ancaq bu, ən yüksək göstərici də deyil. Belə ki, 2020-ci ildə ölən kişilərin 48,1 faizi, 2019-cu ildə 62,1 faizi, 2018-ci ildə 58,4 faizi, 2017-ci ildə 58,7 faizi pensiya almayıb. Ümumilikdə isə, hər iki cins üzrə ölənlərin 2017-ci ildə 31,3 faizi, 2018-ci ildə 31,2 faizi, 2019-cu ildə 33,2 faizi, 2020-ci ildə 37 faizi, 2021-ci ildə isə 35,6 faizi əməkqabiliyyətli yaşda olub, yəni pensiya almayıb. Müşahidə olunan azalmada məlum pandemiyanın rolu olsa da, reallıq budur ki, orta ömür müddəti azalıb. Bu, özünü pensiya alanların sayında da göstərməkdədir. Əgər 2020-ci ilin əvvəlində ölkədə pensiyaçıların sayı 1 milyon 270,6 min nəfər olubsa, 2022-ci ilin iyul ayında bu göstərici 8,8 faiz azalaraq 1 milyon 159,3 min nəfər təşkil edib. Cari ilin əvvəlində isə 2020-ci ilin faktiki göstəricisi ilə müqayisədə 12 faiz azalaraq 1 milyon 118,1 minə enəcəyi proqnozlaşdırılıb.

Bununla belə, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin sözlərinə görə, pensiyaçıların 68 faizi 12 ildən çox pensiya alır. Nazir Milli Məclisdəki çıxışında bu məsələdən bəhs edərək deyib ki, pensiya yaşı 65 olsa da, xüsusi kateqoriyalara edilən güzəştlər çərçivəsində effektiv pensiya yaşı 61 və 62-dir. Bu da onu deməyə əsas verir ki, pensiya almadan dünyasını dəyişənlər olduğu kimi, pensiya ödənişi müddətindən artıq pensiya alanlar və erkən yaşda pensiya hüququndan yararlananlar da az deyil.

Lakin mövzu təkcə pensiya yaşı ilə yekunlaşmır. Məsələ burasındadır ki, pensiyaların ödəmə mənbəyi olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirlərinin bir hissəsini hələ də dövlət büdcəsinin vəsaiti təşkil edir. Son illərdə əmək bazarında leqallaşma tədbirlərinin miqyasının genişlənməsinə baxmayaraq, ötən il adıçəkilən fondun gəlirlərinin 25,3 faizinin (1 milyard 307,4 milyon manatı) mənbəyi dövlət büdcəsi olub. Keçən il bu göstəricinin 21,1 faizə (1 milyard 232 milyon manata) enəcəyi gözlənilsə də, cari ildə 23,4 faizə (1 milyard 467,8 milyon manata) yüksəlib. Gələn ildən isə başlayaraq DSMF-nin xərclərinin artması fonunda dövlət büdcəsindən asılılığın daha da artacağı gözlənilir. Belə ki, 2024-cü ildə dövlət büdcəsinin fondun gəlirlərindəki payı 32,5 faiz (2 milyard 616,71 milyon manat), 2025-ci ildə 30,75 faiz (2 milyard 642,14 milyon manat), 2026-cı ildə isə 28,9 faiz (2 milyard 664,39 milyon manat) olacağı proqnozlaşdırılır.

Pensiya yaşının azaldılması isə DSMF-nin xərclərinin daha da artması deməkdir. Fonda məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların böyük templə artmadığı şəraitdə bu, dövlət büdcəsindən asılılığın daha da yüksəlməsinə gətirib çıxarmış olar. Bu baxımdan özəl pensiya fondlarının yaradılmasına böyük zərurət yaranır. Belə fondların fəaliyyəti pensiya təminatının büdcədən asılılığını azaltmaqla yanaşı, həm də dünyasını dəyişən vətəndaşların yığılmış pensiya kapitalının varislərinə ötürülməsini, həmçinin pensiya məbləğlərinin artırılmasında müsbət təsirləri şərtləndirə bilər.

**Söhbəti yazdı:**
**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**

## Bu il Azərbaycanda inflyasiya birrəqəmli olacaq

**Azərbaycan Mərkəzi Bankının (AMB) proqnozlarına görə, 2023-cü ilin sonunda ölkədə ÜDM artımı 1,8-2 faiz civarında olacaq.**



Bu barədə AMB-in sədri Taleh Kazımov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deyib.

İl ərzində qeyri-neft ÜDM-in artım tempinin 5,7 faizə çatacağını bildirən T. Kazımov bildirib ki, aprel ayında ölkədə ÜDM 0,1 faiz, qeyri-neft ÜDM-i isə 3,7 faiz artıb. O, aprel ayında inflyasiyanın səviyyəsinin 12,8 faiz olduğunu narahatedici məqam kimi xarakterizə edərək vurğulayıb ki, burada əsas ərzaq qiymətlərinin artımıdır. "Aprelin proqnozlarına görə, ilin sonunda illik inflyasiya 8,3 faiz olacaq. Yanvar ayının inflyasiya proqnozu isə 7,9 faiz olub",– deyə T. Kazımov əlavə edib.

Bank sədrinin sözlərinə görə, cari ilin aprel ayında ölkənin valyuta ehtiyatları 12 faiz ataraq 66 milyard ABŞ dollarına, AMB-nin ehtiyatları isə 2,2 faiz artaraq 9,2 milyard ABŞ dollarına çatıb.

T. Kazımov onu da bildirib ki, maliyyə sektorunun kredit portfeli 20 milyard ABŞ dollarına çatıb, depozit bazası 5 faizdən çox artıb.

Ötən müddətdə sığorta sektorunun ödənişlərində artım müşahidə edildiyini bildirən bank sədri diqqətə çatdırıb ki, ilin əvvəlindən sığorta haqları 30 faiz, ödənişlər 33 faiz artıb. Bununla yanaşı, ölkənin qiymətli kağızlar bazarında da müsbət inkişaf müşahidə olunub. Bu barədə məlumat verən T. Kazımov deyib ki, hazırda korporativ istiqraz və səhmlər üzrə 8 faiz, dövlət qiymətli kağızlarında isə 15,6 faiz artım var.

## İnvestisiya fondları üçün yeni tələb müəyyənləşdirilir

**Respublikamızda investisiya fondları və onların idarəçiləri tərəfindən reyestrə daxil edilən məlumatlarda dəyişikliklər barədə Mərkəzi Banka 5 iş günü müddətində yazılı bildiriş göndəriləcək.**

Bu, "İnvestisiya fondları haqqında" qanunda dəyişiklik edilməsi barədə layihədə öz əksini tapıb.



Sənədə əsasən, "Qiymətli kağızlar bazarı haqqında" qanunda nəzərdə tutulan sənədlər Mərkəzi Banka əvvəlcədən təqdim olunduqda və həmin sənədlərdə dəyişikliyə zərurət yaranmadıqda onların yenidən təqdim edilməsinə ehtiyac qalmayacaq. Belə bir vəziyyət isə Mərkəzi Bankın bu barədə yazılı məlumatı ilə reallaşacaq.

## Azərbaycan gələn il sutkada 551 min barel neft hasil edəcək

**Gələn il ölkəmizdə xam neft hasilatının sutkalıq həcminin 551 min barel təşkil edəcəyi gözlənilir.**




2024-cü ildə OPEC və qeyri-OPEC ölkələri üzrə isə gündəlik neft hasilatının səviyyəsi 40,46 milyon barel səviyyəsində müəyyənləşdirilib. Bu barədə razılıq OPEC+ ölkələri nazirlərinin oktyabrın 4-də keçirilən 35-ci görüşündən sonra əldə olunub.

Xatırladaq ki, bundan əvvəl OPEC 2023-cü ildə Azərbaycanın maye karbohidrogen tədarükünün sutkada 37 min barel artaraq orta hesabla 0,7 milyon barel səviyyəsinə çatacağını proqnozlaşdırmışdı.

Yeri gəlmişkən, cari ilin aprel ayında Azərbaycanda gündəlik xam neft hasilatı sutkada 512 min barel təşkil edib. Bütövlükdə isə, hesabat dövründə ölkəmizdə gündəlik neft hasilatı kondensatla birlikdə sutkada 626 min barelə çatıb.

**"Xalq qəzeti"**

# Türkiyədə qaz habı layihəsi ilin sonunadək gerçəkləşəcək



**Buradan Avropaya ildə 35,75 milyard kubmetr "mavi yanacaq" nəql ediləcək**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Ankarada seçkilərdə qələbə münasibətilə çıxışında qardaş ölkənin qaz qovşağı layihəsini həyata keçirməkdə qərarlı olduğunu, bu şəbəkənin ilin sonunadək gerçəkləşdiriləcəyini bildirib.**

Xatırladaq ki, ötən il oktyabr ayının 12-14-də Moskvada keçirilən "Rusiya Enerji Həftəsi: 2022" Beynəlxalq Forumunda Rusiya Prezidenti Vladimir Putin Türkiyədə Avropaya nəql edilən qazın qiymətinin müəyyənləşdirilməsi üçün müvafiq mərkəzlərə alternativ ola biləcək yeni qaz qovşağının yaradılması təşəbbüsü ilə çıxış edib. Bunun üçün digər məsələlərlə yanaşı, Rusiya Federasiyasından Türkiyəyə əlavə qaz kəmərləri çəkməyin lazım gəldiyini və artıq hər iki ölkənin birinci şəxslərinin bu ideyanı bəyəndikləri bildirilib.

Bu məsələ ilə bağlı "Qazprom" ASC-nin Direktorlar Şurasının sədri Viktor Zubkov da həmin il oktyabrın 27-28-də Bakıda keçirilən Avrasiya İqtisadi Forumu çərçivəsində jurnalistlərə açıqlamasında Türkiyədəki qaz habının hamıya, o cümlədən Azərbaycana da sərfəli olduğunu diqqətə çatdırıb. Viktor Zubkov, eyni zamanda, bu layihənin, sadəcə, böyük əhəmiyyətini dərk etməyin və bu məsələ ilə ciddi məşğul olmağın vaxtı çatdığını xatırladaraq Türkiyənin də bu istiqamətdə həyata keçiriləcək tədbirlərə müsbət münasibətini vurğulayıb.

Yeri gəlmişkən, o zaman Azərbaycanın Energetika Nazirliyi tərəfindən yayılan məlumatda bildirilirdi ki, əgər bu cür tədarüklər ölkədə fəaliyyət göstərən xarici şirkətlər üçün faydalı olarsa, respublika öz qazını planlaşdırılan qovşağa çatdırmağa hazırdır. Məlumatda, həmçinin qeyd edilirdi ki, ölkəmizdə "mavi yanacaq" hasilatının əsas payı dövlət şirkəti olan SOCAR-ın deyil, "Şahdəniz" beynəlxalq konsorsiumunun üzərinə düşür.

Energetika Nazirliyinin açıqlamasında daha sonra deyilirdi: "Bu, Azərbaycan üçün yeni təşəbbüsdür və diqqətdə saxlanılır. Respublikamızda qaz əsasən beynəlxalq konsorsium tərəfindən hasil edilir və SOCAR da bu prosesdə iştirak edir. Lakin bu, BP, LUKOIL və İran şirkətlərinin daxil olduğu bir konsorsiumdur və onlar üçün ən vacibi bu layihənin iqtisadi əsaslandırılmasıdır. Bundan mənfəət əldə ediləcəyi sübuta yetirilərsə, tərəflərin layihəyə müsbət münasibəti də heç bir şübhə doğurmur".

Bu məqamda qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentdə çıxışı zamanı qardaş ölkədə qaz habının yaradılması məsələsində Rusiya lideri ilə razılığa gəlindiyini xatırladaraq Avropa ölkələri tərəfindən aktiv şəkildə qaz almaq yolları axtarıldığını, Türkiyənin isə belə bir probleminin olmadığını diqqətə çatdırmışdı. "Türkiyədə Rusiya qazı üçün hab yaradacağıq. Putinin özü də bildirib ki, Avropa Türkiyə vasitəsilə qaz ala bilər", – deyə qardaş ölkənin Cümhurbaşqanı vurğulamışdı.

Aparılan hesablamalara görə, 2027-ci ilədək Türkiyədə yaradılan qaz habı hesabına Avropaya ildə 35,75 milyard kubmetr "mavi yanacağ"ın ötürüləcəyi gözlənilir. Bu gün Türkiyəyə Qara dənizin dibindən "Türk axını" xəttinin iki borusu ilə qaz nəqli həyata keçirilir. Adıçəkilən kəmər Türkiyə ərazisindən tranzitlə bu ölkəyə, eləcə də Cənubi və Cənub-Şərqi Avropa ölkələrinə qaz nəqli üçün nəzərdə tutulub. Magistral kəmər hər biri 15,75 milyard kubmetrə qədər qaz nəql etmək gücündə olan iki xətdən ibarətdir. Bundan əlavə, "Mavi axın" xətti ilə 16 milyard kubmetr qaz nəql etmək mümkündür.

Beləliklə, adıçəkilən iki kəmərlə ildə 47,1 milyard kubmetr Rusiya qazının ötürülməsi realdır. Ötən il bu həcmin yalnız 33,2 milyard kubmetri gerçəkləşib. Proqnozlaşdırılmaya əsasən, əgər Türkiyə və Avropa dövlətlərindən tələbat nəzərə alınarsa, ildə Rusiya bu xətlərlə Türkiyəyə əlavə olaraq 12,9 milyard kubmetr qaz ötürə bilər. Bununla yanaşı, Türkiyənin hazırda Tengiz-Ankara boru xətti ilə İrandan ildə 10 milyard kubmetr qaz almaq imkanı var. Cənub Qaz Dəhlizi ilə Azərbaycandan ildə 25 milyard kubmetr qaz daxil olması da nəzərdə tutulur.

Yeri gəlmişkən, ötən həftə Bakıda keçirilən Enerji Forumunda çıxış edən "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti və baş icraçı direktoru Melih Xan Bilgin bildirib ki, dünya enerji bazarında təbii qazın hələ orta və uzun müddətdə istifadəsi labüd olacaq. Bu enerji resursunun bərpaolunan enerjiyə tam keçid üçün vacib elementlərdən biri olaraq qaldığını vurğulayan şirkət rəhbəri, həmçinin deyib ki, tam keçidin təmin edilməsi üçün hökumətlərin və şirkətlərin birgə koordinə edilmiş fəaliyyəti, "ağıllı" texnologiyaların tətbiqi və əlavə investisiyalar vacibdir.

M. Bilgin bildirib ki, Türkiyənin Qara dənizdə aşkar etdiyi yataqlardan hasil edilən təbii qaz daxili istehlakda idxal qazının payının azalmasına səbəb olacaq. "Bu gün Türkiyənin təbii qaza olan tələbatının 99 faizi idxal hesabına qarşılanır. Biz buradan hasil edilən təbii qazı ölkənin daxili tələbatının ödənilməsinə yönəldəcəyik. Amma bununla belə bu yataqlardan hasil edilən təbii qazı Avropa ölkələrinə ixrac etməyi də nəzərdə tuturuq",–deyə Melih Xan Bilgin əlavə edib.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

# Azərbaycanın ən gənc Milli Qəhrəmanı – Cavanşir Rəhimov

**Yaşının 19-da şəhadətə ucalaraq yüksək ad almış Cavanşir Rəhimov qısa, lakin şərəfli ömründə özünü, sözün əsl mənasında, cavan şir kimi göstərə bilib. Cavanşir 1973-cü il iyun ayının 5-də Qax rayonunun Qaşqaçay kəndində dünyaya göz açıb. Onun 1 yaşı olanda ailələri Bakının Qaraçuxur qəsəbəsinə köçüb. Gələcək qəhrəman buradakı 104 nömrəli orta məktəbin 8-ci sinfini bitirdikdən sonra texniki-peşə məktəbində oxuyub. Eyni zamanda, karate ilə məşğul olub və idman ustası normativini ödəyib.**

Birinci Qarabağ müharibəsi başlananda hələ əsgərliyə yaşı çatmasa da, Cavanşir dəfələrlə hərbi komissarlığa üz tutub. Lakin onu "Gözlə, yaşın çatsın" cavabı ilə geri qaytarıblar. O da tez-tez atıcılıq tirinə gedərək sərrast atəş açmağı öyrənib. Nəhayət,1992-ci ildə C.Rəhimov əsgəri xidmətə çağırılıb və taleyinə Hərbi Hava Qüvvələrində xidmət etmək düşüb. İlk gündən özünü qorxmaz, cəsur əsgər kimi göstərib. Bir müddət təlim keçərək bort-atıcı peşəsinə yiyələnib.

Həmin dövrdə ermənilər Azərbaycan torpaqlarında qətliamlar törədir, işğallar həyata keçirirdilər. Ölkənin müxtəlif bölgələrindən könüllü döyüşçülər cəbhəyə axışır, düşmənə qarşı vuruşurdular. Cavanşir də könüllü olaraq müharibəyə getmək istədiyini bildirib və arzusuna çatıb. Onu baş leytenant Ruslan Polovinkonun komandiri olduğu Mi-24 döyüş vertolyotuna bort-atıcı təyin ediblər. İlk döyüş yolu Ağcabədidən başlayıb. Ağdərə, Tərtər, Ağdam, Füzuli, Laçın, Qubadlı bölgələrindən yaralıların çıxarılmasında, meyitlərin daşınmasında fəal iştirak edib, düşmənin hərbi texnikasını və canlı qüvvəsini məhv etməkdə böyük igidliklər göstərib.

Həmin il avqustun 6-da Ağdərənin Qasapet yüksəkliyindəki döyüşçülərimizi xilas etmək üçün havaya qalxan hərbi vertolyot üç dəfə uçuş edərək erməni mövqelərini atəşə tutur və düşmənin bütöv bir bölüyünü məhv edir. Növbəti uçuş öncəsi Cavanşir yaralı olsa da, qətiyyətlə həmlə uçuşuna hazır olduğunu bildirir və vertolyot yenidən havaya qalxaraq tapşırığı yerinə yetirməyə yollanır. İgid şahinlərimiz son ana qədər düşmən mövqelərinə od yağdırırlar. Amma uçan döyüş maşını güclü raket atəşinə tutularaq vurulur. Bu zaman zərbənin gücündən Cavanşir yaxınlıqdakı taxıl zəmisinə düşür. Bir aydan sonra həmin ərazidə mal-qara otaran çoban onun nəşinə rast gəlir və yaxınlıqdakı hərbi hissəyə məlumat verir. Sentyabrın 9-da Müdafiə Nazirliyinin hərbçilərinin iştirakı ilə onu Bakıdakı Şəhidlər Xiyabanında torpağa tapşırırlar.



Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə Cavanşir İzzət oğlu Rəhimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Suraxanı rayonundakı 146 saylı orta məktəb onun adını daşıyır. Qaraçuxur qəsəbə parkında büstü qoyulub.

Cavanşir əbədiyyətə qovuşandan iki il sonra kiçik qardaşına toy ediblər. Gənc ailənin oğul övladına qəhrəmanın adı qoyulub. Əmisinin adını qürurla daşıyan həmin oğlan artıq universiteti bitirib, vətənə olan borcunu da şərəflə yerinə yetirib.

…Cavanşirin ata yurdu Qaxda, rayon mərkəzindəki Səməd Vurğun adına Mədəniyyət evində qələbəlik idi. Hamı oraya Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Yaddaş" sənədli filmlər studiyasında "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən çəkilmiş "Cavanşir" filminin (rejissor Kəmalə Musazadə) təqdimatına toplaşmışdı. Qaxlı seyrçilər onun yurd, millət sevgisi və Vətənə xidmət anlayışı sərgilənən filmin epizodlarını maraqla izlədilər, Azərbaycanın ən gənc Milli Qəhrəmanının şərəfli döyüş yolu ilə yaxından tanış olub hədsiz iftixar hissi keçirdilər. XIX əsrdə məşhur Şeyx Şamil hərəkatının iştirakçısı olmuş İlisu sultanı Daniyal bəy kimi onun da öz adını tarixə yazması hər kəsin köksünü qürurla qabartdı.

"Təki Vətən yaşasın!" , – deyərək müharibənin oduna-alovuna atılan və şəhidlik zirvəsinə ucalan qəhrəman soydaşımız Cavanşir Rəhimov sağ qalsaydı, bu gün 50 yaşı qeyd ediləcəkdi. Təskinliyimiz budur ki, onun adı Azərbaycanın şərəf tarixinə qızıl hərflərlə yazılıb.

**Ə.ƏLİYEV, "Xalq qəzeti"**

# AZƏRTAC şəhid jurnalistini yad etdi

**AZƏRTAC-da 2021-ci il iyunun 4-də erməni işğalından azad edilmiş Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində peşə fəaliyyətini yerinə yetirərkən minaya düşərək şəhid olan cəbhə müxbiri Məhərrəm İbrahimovun anım mərasimi keçirilib.**



Əvvəlcə Məhərrəmin AZƏRTAC-dakı xatirə guşəsinin önünə gül dəstələri düzülüb, torpaqlarımızın azadlığı uğrunda qurban gedən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Mərasimdə çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev 22 yaşından müxbirlik fəaliyyətinə başlayan şəhid-həmkarlarının keçdiyi həyat yolu, insani keyfiyyətləri haqqında danışıb. Qeyd edilib ki, 44 günlük Vətən müharibəsi dövründə AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş əməkdaşları düşmən atəşi altında gecə-gündüz çəkilişlər aparıblar. Bu işdə Məhərrəm İbrahimovun xüsusilə böyük əməyi olub. Prezident İlham Əliyevin sərəncamı ilə şəhid jurnalist Məhərrəm İbrahimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov çıxış edərək deyib ki, Məhərrəm Vətən müharibəsinin ilk günündən cəbhəyanı bölgələrə ezam edilib və şəhid olduğu günədək fəaliyyətini davam etdirib.

Mərasimdə şəhid-jurnalistin həmkarları adından çıxış edən Elvin Mövsümov, Gözəl Ağayeva, Abdulla Suvar, Səxavət Quliyev və başqaları Məhərrəmlə bağlı xatirələrini bölüşüblər.

**"Xalq qəzeti"**

# Litva Azərbaycanın tibbi sığorta təcrübəsini öyrənir



**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində Litva Respublikasının Səhiyyə Nazirliyi yanında Dövlət Tibbi Sığorta Fondunun Baş direktoru Qintaras Katsaviçusun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Qonaqları salamlayan nazir Teymur Musayev ölkələrimiz arasında bir çox sahələrdə, o cümlədən səhiyyə və tibb elmi sahəsində uğurlu əməkdaşlıq olduğunu diqqətə çatdırıb.

Nazir əhalinin sağlamlığının qorunmasına istiqamətlənmiş və həmrəylik prinsipinə əsaslanan sosial layihə olan icbari tibbi sığortanın 2021-ci ildən etibarən respublikamızda tam tətbiq edildiyini, Səhiyyə Nazirliyinin bu prosesə dəstək verdiyini qeyd edib. Həmçinin vurğulayıb ki, icbari tibbi sığortanın tətbiqi planı səhiyyə modullarının tədricən fayda paketinə daxil edilməsini nəzərdə tutur.

Bildirilib ki, bütün islahatların əsasında səhiyyə sisteminin rəqəmsallaşdırılması dayanıb və icbari tibbi sığortanın tətbiqi bu sistemin bir hissəsidir. Bununla yanaşı, qabaqcıl tibbi texnologiyaların səhiyyə sisteminə gətirilməsi və tibbi xidmətlərə vətəndaşın əlçatanlığını, habelə bu sahədə sosialyönümlüyünün təmin edilməsi önəmli məsələlərdir. Bu istiqamətlərdə ölkədə lazımi addımlar atılır.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən Litva Respublikasının Səhiyyə Nazirliyi yanında Dövlət Tibbi Sığorta Fondunun Baş direktoru ölkəmizin səhiyyə sistemində aparılan islahatların dəstəkləndiyini vurğulayıb. Qintaras Katsaviçus, həmçinin Litvanın sığorta sisteminin tətbiqi ilə bağlı əldə edilən təcrübəni Azərbaycanla bölüşməyə hazır olduqlarını qeyd edib.

Görüşün sonunda tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəliblər.

**Z.HÜSEYNOVA, "Xalq qəzeti"**

# Düşmənin səddini yaran, Şuşaya qalxan qazimiz

## *Döyüş meydanında xilaskarı qardaşı olub*

**Vətən müharibəsində düşmənə qan udduran Xüsusi Təyinatlı Qüvvələrin şücaəti dillərdə dastan olub. Onlardan biri – Elbrus Abbaszadə haqqında söz açmaq istəyirəm. 1981-ci ildə yalnız doğulduğu Biləsuvarın Xırmandalı kəndinin, müharibədən sonra bütün Azərbaycanın övladı olan qazi Elbrusdan.**



1999-cu ildə Biləsuvar hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılan Elbrus Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrində (XTQ) xidmət edib. Çətin məşq-təlimlərdən keçib... 2001-ci ildə ehtiyata buraxılıb. Tərxis olunduğu 11 ay müddətində hər an fikrində yalnız Xüsusi Təyinatlı Qüvvələrdə xidmət barədə düşünüb. 2002-ci il fevralın 2-də Müdafiə Nazirliyinin "Gizir hazırlığı kursu"na daxil olub. Məktəbdə 3 ay oxuduqdan sonra, 2002-ci ilin aprelində 500 nəfərlə xüsusi təyinatlıların kursuna başlayıb.

Çox ağır təlimlərdən keçən gənclərdən kursu 42 nəfər bitirir. Həm fiziki, həm mənəvi gücü, iradəsi olanlar sonadək tab gətirir. Beləliklə, Elbrus arzusuna çatır, XTQ mənsubu olur. Çətin tapşırıqlarda iştirak edir, yağı düşmənə gücümüzü dəfələrlə göstərir. 2016-cı ildə aprel döyüşlərində iştirak etməklə, düşmənə xüsusi təyinatlıların nəyə qadir olduğunu sübut edirlər.

Elbrus deyir ki, yeganə amalımız 30 ildə işğalda qalan torpaqlarımızı xilas etmək idi. Ona görə gecə-gündüz məşqlərimizə davam edirdik, kurslar keçib savadımızı artırırdıq. 2016-cı ilə qədər olan bütün tapşırıqlarda dəfələrlə iştirak etmişik. O həmin günləri belə xatırlayır:

– Vətən müharibəsi başlayanda biz ilk hücuma Füzuli rayonunun Cocuq Mərcanlı kəndində, Lələtəpə deyilən ərazinin cənub istiqamətindən ön xətti yarmaqla başladıq. Döyüşlər çox yaxın məsafədə olduğundan yaralılarımız, şəhidlərimiz də çox oldu. Amma biz arzumuzun arxasınca – torpaqlarımızı işğaldan azad etməyə getmək barədə düşünürdük. Arasıkəsilmədən verilən tapşırıqları uğurla yerinə yetirirdik.

Artıq ağır döyüşlər başlamışdı. Mən kəşfiyyatçı radio-teleqrafçı vəzifəsində çalışırdım. Komandirin yanında rabitəçi idim. Bütün əmrlər, tapşırıqlar mənə gəlirdi və mən də şəxsi heyətə çatdırırdım. Demək olar ki, Füzuli istiqamətində çox ağır döyüşlər oldu. Sonra Cəbrayıl istiqamətinə çətin tapşırıqlar aldıq. Əmri yerinə yetirmək üçün əməliyyata keçdik. Sədd yarıldı, düşmən səngərinə girdik və tapşırığı uğurla yerinə yetirdik.

Oktyabrın 2-də ağır artileriyadan açılan atəş nəticəsində yaralandım. Qeyd edim ki, hazırda qardaşım da XTQ-də xidmət edir. Müharibədə xilasetmə qrupunda idilər. İş elə gətirib ki, məni döyüş meydanından o çıxarıb. Mən ona xilaskarım deyirəm. Mən digər təxliyə edilənlərlə Füzulidəki hospitala gətirildik. Əhmədbəyli hospitalında müayinə olunduqdan sonra müalicə üçün hərbi hospitala göndərdilər. Bir ay müalicə olundum.

Noyabrın 2-də döyüş bölgəsinə qayıtdım. Şuşaətrafı döyüşlərdə iştirak etdim. Həmin vaxtlarda Şuşanın azad edilməsi ilə bağlı xəbəri Prezident xalqa çatdırdı. Biz o vaxt Daşaltıda idik. Döyüşlər bitdi. Biz bir neçə ay müdafiə məqsədilə Şuşada qaldıqdan sonra əvvəlki xidmət yerimizə qayıtdıq.



Səhhətimdəki ciddi problemlərə görə mən tərxis olundum və mülki həyata başladım. İşlə bağlı müraciətimə ƏƏSMN-dən müsbət cavab aldım. Hazırda 4 saylı DOST Mərkəzində çalışıram. Gözəl kollektivimiz var, hamıdan raziyam.

Qeyd edək ki, Elbrus Vətən müharibəsindən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı" və digər medallarla təltif olunub. İşindən, dövlətin qazilərə göstərdiyi qayğıdan çox razılıq edir. Deyir ki, ikinci qrup əlil olsam da, əlimdən gələni etməyə, hər an Vətənin müdafiəsinə qalxmağa hazıram. Çünki Vətən bizim ailəmizdir. Onu biz qorumasaq, kim qoruyacaq?

**B.ZƏRİFƏ, "Xalq qəzeti"**

# AŞPA təmsilçiləri Ağdamda

**AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və Liz Kristofersen Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.**

Həmməruzəçilər Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklərlə, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi yenidənqurma və tikinti-quruculuq işləri ilə tanış olublar. Qonaqlara Ağdamın tarixi, burada törədilən erməni vandalizmi, minalanmış ərazilər barədə məlumat verilib.



Ağdam şəhər Cümə məscidinə gələn AŞPA diplomatlarına ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri barədə məlumat verilib. Qeyd edilib ki, şəhər işğaldan azad olunduqdan sonra Heydər Əliyev Fondu Cümə məscidində bərpa-restavrasiya işlərinə başlayıb.

Qonaqlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə-yeksan etdikləri binaların xarabalıqlarına da baxıblar.

Həmməruzəçilər sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olublar.

Azərbaycan Respublikası Prezidenti xüsusi nümayəndəliyinin Ağdamdakı qərargahında qonaqlara şəhərin Baş planı çərçivəsində həyata keçirilən quruculuq işləri barədə ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, "Qafqazın Xirosiması" kimi tanınan Ağdam Azərbaycan Prezidentinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək. Doğma yurdlarından 30 il ayrı düşmüş insanların şəhərə təhlükəsiz qayıdışı təmin ediləcək.

**"Xalq qəzeti"**

# Ölkələrin bədbəxtlik reytinqi

**Zimbabve, Venesuela və Suriya 2022-ci ilin son nəticələrinə görə dünyanın ən kasıb və ən bədbəxt ölkələri seçilib. Onlar yoxsulluq siyahısında (Misery Index) ilk sıraları tutublar.**



İşsizlik, inflyasiya və bank kreditləri üzrə faiz dərəcələrinə görə dünyada lider olan ölkələrin illik reytinqi hər il amerikalı iqtisadçı-professor Stiv Hanke tərəfindən tərtib edilir. Bu il siyahıda Rusiya da daxil olmaqla 157 dövlət var.

Hankenin sözlərinə görə, ən bədbəxt 10 ölkəyə Livan, Sudan, Argentina, Yəmən, Ukrayna və Kuba daxildir. Britaniya bədbəxtlər siyahısında bir il əvvəllə müqayisədə gerilədi, 153-dən 129-cu yerə yüksəldi. Bu sıçrayışın əsas səbəbi illik 10 faiz inflyasiyadır.

Lakin ABŞ son bir ildə daha xoşbəxt ölkəyə çevrilib: 102-ci yerdən 134-cü yerə yüksəlib. Bu, son onilliklərin ən aşağı işsizlik səviyyəsinə görədir.

Rusiya dünyanın ən bədbəxt ölkələri reytinqində 76-cı yeri tutur. Professor Hanke Rusiyada yüksək inflyasiyanı əlverişsiz amil adlandırıb. Misery Index siyahısında Rusiya ilə yanaşı Ermənistan, Polşa, Estoniya, Litva, Mali və Rumıniya yer alır. Belarus reytinqdə 59-cu yerdədir.

Bədbəxt ölkələrin reytinqində sonuncu pilləni İsveçrə tutur. Mərkəzi Avropa ölkəsi dünyanın ən zəngin ölkələrindən biridir. BMT-nin son indeksinə görə gözlənilən ömür uzunluğu, təhsilə sərf olunan vaxt və orta əmək haqqı baxımından ən yaxşılar sırasındadır.

Küveyt, İrlandiya, Yaponiya, Malayziya, Tayvan, Niger, Tayland, Toqo, Malta da əziyyət çəkənlər siyahısında ilk 10 finalçı sırasına daxil olub.

**Z.BƏŞİRQIZI, "Xalq qəzeti"**

# Gəncəbasara dolu düşüb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin iyunun 5-i saat 19:00-a olan məlumatına əsasən Daşkəsən, Göygöl, Goranboy, Tovuz, Gədəbəydə şimşək çaxıb, yağış yağıb.**



Hidrometeoroloji Proqnozlar Bürosundan bildirilib ki, Tovuz rayonunun Kirən məntəqəsində dünən saat 14:55-dən 15:07-dək diametri 20, Goranboy rayonunun Börü, Buzluq və Erkeç kəndlərinə saat 16:40-dan 16:45-dək 8-9 millimetr olan, Gədəbəy rayonunun Samanlıq kəndinə isə saat 17:10-da dolu düşüb.

# Baş prokurorluqda görüş



**Dünən Baş prokuror Kamran Əliyev Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və Liz Kristofersen ilə görüşüb.**

Baş prokuror Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində Avropa Şurasının qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu qeyd edib. K.Əliyev prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışıb, o cümlədən 2020-ci ilin iyununda təsdiq olunmuş yeni strukturda yer almış cinayət təqibindən kənar icraatlar, əmlakların bərpası və xidməti araşdırmalar üzrə fəaliyyət istiqamətləri barədə qonaqları məlumatlandırıb.

Ölkəmizə səfərlərindən məmnunluqlarını ifadə edən AŞPA-nın həmməruzəçiləri Azərbaycanın hüquq sistemində aparılan islahatları müsbət qiymətləndirdiklərini vurğulayaraq, Avropa Şurası ilə ölkəmizin müvafiq qurumları ilə əlaqələrin inkişafında və qarşılıqlı əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Görüşdə Avropa Şurasının Bakı Ofisinin rəhbəri Petr Zix və Milli Məclisin deputatı Kamal Cəfərov iştirak ediblər.

**"Xalq qəzeti"**

# Ədliyyə naziri vətəndaşları qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov Qazax rayonunda Qazax, Ağstafa, Tovuz və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**



Bu barədə Ədliyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Görüşdə vətəndaşların ədliyyə fəaliyyətinə dair müraciətləri diqqətlə dinlənilib, Vətən müharibəsi iştirakçılarının qayğılarına xüsusi həssaslıqla yanaşılıb. Müraciətlərdə qaldırılan məsələlərlə bağlı aidiyyəti tapşırıqlar verilib.

Bölgə sakinləri onlara göstərilən diqqət və qayğıya, yerlərdə mütəmadi qəbulların təşkilinə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

Səfər çərçivəsində ədliyyə naziri, həmçinin yerli ədliyyə orqanlarının və məhkəmənin iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə görüşüb.

Görüşdə bu il 100 illiyini qeyd etdiyimiz ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində müasir çağırışlara uyğun aparılan mütərəqqi islahatlardan bəhs olunub.

Nazir dövlətimizin başçısının tapşırığına əsasən "Elektron məhkəmə" sisteminin tətbiqi üzrə işlərin artıq başa çatdırılaraq Gəncə və Şirvan apellyasiya məhkəmələrinin yurisdiksiyasına daxil olan məhkəmələrin, o cümlədən Qazax Rayon Məhkəməsinin qoşulması ilə e-məhkəmə sisteminin bütün ölkəni tam əhatə etdiyini vurğulayıb.

***"Xalq qəzeti"***

# AŞPA nümayəndə heyəti DİN-də



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 5-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və xanım Liz Kristofersen ilə görüşüb.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, DİN ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq əlaqələrinin mövcudluğundan danışan nazir Vilayət Eyvazov bu əlaqələr çərçivəsində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Qeyd edib ki, daxili işlər orqanları əməkdaşlarının peşəkarlığının daha da artırılması, beynəlxalq təcrübənin öyrənilməsi sahəsində görülən işlər sistemli şəkildə həyata keçirilir.

Polis orqanlarının müvəqqəti saxlama yerlərinin müasir standartlara uyğun təşkil edildiyi, hökumət, eləcə də qeyri-hökumət təşkilatlarından olan müşahidəçilərin müvəqqəti saxlama yerlərində sərbəst və məhdudiyyətsiz monitorinq keçirmələrinə lazımi şərait yaradıldığı diqqətə çatdırılıb.

Həmməruzəçilər insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər barədə verdiyi əhatəli məlumata görə Vilayət Eyvazova minnətdarlıqlarını bildiriblər.

Görüşdə bir sıra digər məsələlər də müzakirə olunub, daxili işlər naziri qonaqları maraqlandıran sualları ətraflı cavablandırıb.

**"Xalq qəzeti"**

# Hərbi Dəniz Qüvvələrinin komandanı İtaliyada

**Azərbaycan Hərbi Dəniz Qüvvələri (HDQ) komandanı vitse-admiral Sübhan Bəkirov İtaliya Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Enriko Kredendinonun dəvəti ilə bu ölkəyə səfər edib.**

La Spezia Hərbi Dəniz Bazasında keçirilən 8-ci "Seafuture 2023" Beynəlxalq Dəniz Müdafiəsi sərgisinin açılış mərasimində iştirak edən vitse-admiral S.Bəkirov İtaliya Respublikasının müdafiə naziri cənab Guido Crosetto ilə görüşüb, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, Beynəlxalq Dəniz Müdafiəsi sərgisi 25 ölkənin HDQ komandanı, 36 ölkənin nümayəndə heyəti və müxtəlif aparıcı müdafiə sənayesi şirkətlərinin rəhbərlərinin iştirakı ilə keçirilir.

**"Xalq qəzeti"**



# Moskva İrəvana güzəştə gedirmi?

*Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

Azərbaycan artıq Laçın yolunu öz nəzarəti altına götürüb. İndi İrəvan deyir ki, Meqridən keçən yolda nəzarəti Rusiya sərhədçiləri deyil, özləri həyata keçirəcəklər. Bəli, onun bir dövlət olaraq buna suveren hüquqları var. Amma məsələ ondadır ki, həmin sərhəd nəzarəti icra ediləndə bizim üçün süni maneələr yaradılmasın.

Yəni, beynəlxalq hüquq və qaydalara əsasən, həmin sərhəd-keçid məntəqəsindən qatar, yaxud avtomobil bir dövlətin öz ərazisindən digər ərazisinə keçdiyi zaman heç bir çətinliklə üzləşməməlidir. Necə ki bu gün Rusiyanın Kalininqrad vilayətinə yolu NATO üzvü olan dövlətin – Litvanın ərazisindən keçir. Bəli, burada viza tələb olunmur, Rusiya vətəndaşları Litva ərazisinə düşə bilməzlər, amma sərhədi keçərkən, heç bir maneə yaradılmır.

Bizim durumda həmin ərazi Ermənistana məxsusdur və ölkə məsələ ilə bağlı qərar vermək hüququna malikdir. Əgər İrəvan oradan Rusiya sərhədçilərini çıxarmaq istəyirsə, öz işidir. Həm Zəngəzur dəhlizinə, həm də Rusiya – İran sərhədinə kimin – Rusiyanın, yoxsa Ermənistanın nəzarət etməsi məsələsinə müdaxilə etməyimiz marağımıza uyğun deyil. Amma biz Laçın yolundakı sərhəd məntəqəsində, həm də istədiyimiz şəkildə hər cür nəzarəti həyata keçiririk. Ermənistan da öz ərazisində bunu edə bilər.

**(əvvəli 3-cü səhifədə)**

2020-ci il 10 noyabr üçtərəfli Bəyanatı imzalandıqdan dərhal sonra Rusiya sülh danışıqlarında əsas vasitəçi kimi həm Qarabağ və Ermənistan arasındakı Laçın yoluna, həm də Azərbaycanı Naxçıvanla birləşdirəcək Zəngəzur yoluna nəzarəti öz əlində cəmləşdirmək təşəbbüsü ilə çıxış etmişdi. Bu barədə ilkin razılaşma da əldə edilmişdi. Bakının Moskvanın siyasi və maliyyə nöqteyi-nəzərindən böyük dividentlər gətirəcək dəhlizə nəzarətə yiyələnmək istəyinə qarşı çıxmaması, Naxçıvanla dəmir və avtomobil yolunun açılması ilə bağlı idi. Amma sülh danışıqlarının xarakteri dəyişdikcə, masa arxasına keçən kontingentin coğrafiyası genişləndikcə, bəyanatda göstərilən ilkin razılaşmanın bəzi bəndlərinə korrektələr etmək zərurəti ortaya çıxdı.

Düşünürük ki, rəsmi Bakının Ermənistanla şərti səhədində, Laçın yolunun üstündə Həkəri postunu qurması, suveren ərazimizə nəzarəti öz əlinə götürməsi İrəvana da identik şansı yaratmış oldu. Kremlin çeşidli müqavimətinə baxmayaraq, Azərbaycanın bu addımı atması, Rusiya Sülhməramlı Kontingentindən 20 metrlik məsafədə sərhəd-keçid məntəqəsini yaratması Ermənistanı Zəngəzur dəhlizinə nəzarəti əldə etmək barədə düşünməyə vadar etdi.

Son vaxtlar İrəvanla Kremlin münasibətlərində hiss edilən gərginliyin bir səbəbi də, çox güman ki, bununla bağlı idi. Armen Qriqoryanın aşıqlamasından anlaşılan odur ki, Moskvada hökumətlərarası üçtərəfli işçi qrupunun son görüşündə Rusiya rəhbərliyi Zəngəzur dəhlizinin giriş və çıxışında Ermənistanın müvafiq rəsmi strukturlarını yerləşdirmək inadı qarşısında geri çəkilməyə və güzəştə getməyə məcbur olub.

## Bakı nizamlayıcı rolunda

Sülh danışıqlarını müşayiət edən hadisələrin ardıcıllığına diqqət yetirsək görərik ki, Azərbaycanın Laçın yolu üzərində nəzarət-keçid məntəqəsini yaratması həm də Zəngəzurla bağlı bir çox məsələlərin dəqiqləşdirilməsi prosesində vacib amilə çevrildi. Açıq söyləmək lazımdır ki, Zəngəzur yoluna nəzarəti Rusiyanın təkbaşına həyata keçirməsi gələcəkdə Azərbaycana qarşı "istifadəyə yararlı" təzyiq vasitəsinə çevrilə bilərdi.

Yola nəzarəti İrəvanın həyata keçirməsi Bakı üçün daha sərfəli variant sayıla bilər. Çünki bu halda sərhəd - keçid - gömrük nəzarət müxanizmi asanlaşır, digər tərəfdən, qarşılıqlı asılılıq situasiyası ortaya çıxmış olur. Yəni, əgər erməni sərhədçiləri Azərbaycandan Naxçıvana və əksinə gedən qatar və avtomobillərə, vətəndaşlara problem yaradarsa, özləri də Laçın yolundakı Həkəri postunda eyni problemləri yaşamalı olacaqlar. Belə bir qarşılıqlı asılılıq həm də sərhəd-keçid məntəqələrində beynəlxalq standartların gözlənilməsi və sabitlik nöqteyi-nəzərindən nizamlayıcı mexanizm rolunu oynayacaq.

Aydın məsələdir ki, Rusiya həmin ərazidə, ümumilikdə bölgədə öz maraqlarını həyata keçirmək, zəifləyən nüfuzunu bərpa etmək barədə düşünür. Və bu zaman İrəvanın öz şərtlərini irəli sürməsi Moskvanı naqolay vəziyyətə salır. Amma bir faktı da nəzərdən qaçırmaq olmaz ki, Qarabağda müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentin fəaliyyət müddəti 2025-ci ildə başa çatsa da, ikitərəfli müqaviləyə görə, Rusiyanın Gümrüdəki 102 saylı hərbi hissəsinin xidmət müddəti 2044-cü ilədək davam edəcək. Çox güman ki, İrəvan tam suverenliyə nail olmaqadan ötrü bu məqamı da Moskva ilə aydınlaşdırmalı olacaq.

**İmran BƏDİRXANLI,**
**"Xalq qəzeti"**



*Ekspert rəyi*



**Fərhad MƏMMƏDOV,**
**politoloq**

Armen Qriqoryan müsahibəsində maraqlı məsələyə toxunub. Kommunikasiyaların açılması prosesindəki ziddiyyətlər özünü daha çox Rusiya–Ermənistan müstəvisində göstərir. İrəvanın boynuna götürdüyü öhdəlikləri yerinə yetirməsi Bakı üçün vacibdir. Gündəlikdə əsas iki öhdəliyin – kommunikasiyaların açılması və Ermənistan silahlı birləşmələrinin Qarabağdan çıxarılmasının icrası durur.

Birinci məsələ Azərbaycan üçün çox önəmlidir. Son iki il yarım ərzində bunun hansı formada həyata keçiriləcəyi məsələsinə fərqli fikirlər və yanaşmalar mövcud idi. İlkin yanaşma o idi ki, Laçın yolunda hansı mexanizm işləyirsə, Zəngəzur dəhlizində də həmin rejim tətbiq edilməlidir. İkinci yanaşma zamanla bağlı idi. Yəni, Laçın yolunda Rusiya sülhməramlı kontingentin fəaliyyətinə beşillik müddət qoyulmuşdusa, Zəngəzur dəhlizinə münasibətdə bu müddət yox idi.

Azərbaycan 2021-ci ilin dekabrında Brüsseldə fəaliyyət rejimi ilə bağlı təklif irəli sürdü. Həmin təklifə görə, Bakı Laçın yolunda giriş-çıxışa nəzarət edir, İrəvan da öz ərzisində suverenliyini reallaşdıra bilər. Artıq bu ilin 23 aprelindən Azərbaycan şərti sərhəddə nəzarətini təmin etdi, İrəvan da bundan yararlanıb Zəngəzur dəhlizi ilə giriş-çıxışa özünün nəzarət mexanizminin tətbiqini istəyir. Burada Rusiyanın Ermənistan ərazisində nəzarət funksiyasının məhdudlaşdırılması məsələsi nəzərdən keçirilməlidir.

# Azərbaycan NATO Hərbi Komitəsinin iclasında

**İyunun 5-də NATO-nun Brüsseldə yerləşən mənzil-qərargahında Alyansın ən yüksək hərbi strukturu olan Hərbi Komitə çərçivəsində ilk dəfə enerji təhlükəsizliyi üzrə tərəfdaşlarla birgə genişləndirilmiş formatda görüş keçirilib.**



İclasda Azərbaycanı təmsil edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü, fəlsəfə doktoru Esmira Cəfərova ölkəmizin uğurlu enerji siyasəti, habelə qlobal və regional müstəvidə enerji təhlükəsizliyinə töhfələri barədə təqdimatla çıxış edib. Azərbaycan təmsilçisi NATO mənzil-qərargahına səfəri çərçivəsində, həmçinin NATO Beynəlxalq Katibliyinin İqlim və enerji təhlükəsizliyi bölməsi və NATO-nun Vilnüsdə yerləşən Enerji Təhlükəsizliyi üzrə Mükəmməllik Mərkəzinin rəhbərliyi ilə ikitərəfli görüşlər keçirib.

Müzakirələr zamanı E.Cəfərova Azərbaycanı qlobal enerji təhlükəsizliyində etibarlı tərəfdaşa çevirmiş uzaqgörən enerji strategiyası, Cənub Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyində oynadığı əhəmiyyətli rol, ölkəmizin bərpaolunan enerji mənbələri kontekstində təqdim edə biləcəyi imkanlar və perspektiv layihələr barədə müttəfiq və tərəfdaş dövlətlərə məlumat verib.

NATO-ya üzv dövlətlərin nümayəndələri Azərbaycanın Alyansın etibarlı və vacib tərəfdaşı olduğunu vurğulayıblar. Həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı müsbət rol yüksək dəyərləndirilib, görülmüş işlər və gələcək layihələrin əhəmiyyəti qeyd edilib.

# Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün dövlət proqramı

**Mündəricat**


1. Qısa xülasə
2. Qlobal trendlər
3. Mövcud vəziyyətin təhlili
4. Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri
5. Hədəf göstəriciləri
6. Dövlət Proqramının maliyyələşmə mənbələri
7. Dövlət Proqramının icrası, monitorinqi və qiymətləndirilməsi
8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı


## 1. Qısa xülasə

Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan iqtisadi rayonunun inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir.

Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti dövründə Ermənistan tərəfindən blokada şəraitində olan regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tərəqqisi üçün əhəmiyyətli tədbirlər görülmüş, aqrar islahatlar reallaşdırılmış, infrastrukturun inkişafı istiqamətində mühüm işlər həyata keçirilmişdir. Məhz Ulu Öndərin siyasəti sayəsində bölgənin inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr qurulmuş, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi, Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılmışdır.

2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta Dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir.

Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır.

Hazırda bu imkanlardan istifadə edərək Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxmışdır. Mövcud potensialdan daha səmərəli istifadə etməklə bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və davamlılığının təmin edilməsi zəruridir. Bu isə, mütəmadi olaraq, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanaraq icra olunmasını nəzərdə tutur.

Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramı Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir.

Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilmişdir.

Dövlət Proqramı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir.

## 2. Qlobal trendlər

Regionların sosial-iqtisadi inkişafı sahəsində beynəlxalq təcrübələrin təhlili göstərir ki, son illər ərzində regionların potensialından istifadənin səmərəliliyinin *və iqtisadiyyatın* rəqabətqabiliyyətliliyinin artırılması, yaşıl iqtisadiyyatın formalaşdırılması, innovativ yanaşmaların tətbiqi kimi məsələlər önə çəkilir. Belə ki, ölkədə regionların inkişafı sahəsində qazanılan nailiyyətlərin daha da möhkəmləndirilməsi, həmçinin mövcud ehtiyacların təmin edilməsi məqsədilə hazırlanan və həyata keçirilən proqramlarla yanaşı, ayrı-ayrı regionlar və inzibati ərazi vahidləri üzrə yerli inkişaf planlarının hazırlanması və həyata keçirilməsi daha yaxşı nəticələr əldə etməyə imkan verir.

Hazırda ayrı-ayrı regionlar miqyasında daha dayanıqlı və davamlı gələcək qurulması istiqamətində iqtisadi artımın sürəti, onun keyfiyyəti və başlıca təkanverici amillərinin hərəkətə gətirilməsi həmin bölgələrin inkişaf gündəliyində duran əsas məsələlərdir.

Bununla belə, dayanıqlı inkişafın iqtisadi, sosial və ətraf mühit komponentlərinin ahəngdar inkişafı sahələrində standart yanaşmalar mövcud deyildir. Ona görə də tarazlı inkişaf yolunun müəyyən edilməsində hər bir bölgənin spesifik və coğrafi xüsusiyyəti nəzərə alınmalıdır.

Azərbaycan Respublikasında regionların inkişafı siyasəti əsas etibarilə milli xüsusiyyətlər nəzərə alınmaqla hazırlanan regional inkişaf proqramlarına əsaslanır. Bu proqramların icrası nəticəsində regionlarda sosial-iqtisadi və fiziki infrastruktur sahələrinin inkişafı, beynəlxalq standartlara uyğun yeni müəssisələrin və iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi istiqamətində irimiqyaslı işlər görülmüş və əhəmiyyətli nəticələr əldə olunmuşdur.

Mütərəqqi dünya təcrübəsi göstərir ki, hər bir ölkənin, onun regionlarının, şəhər və kəndlərinin sosial-iqtisadi inkişafında çevik və səmərəli yanaşmaların və innovativ həllərin tətbiqi mühüm rol oynayır. Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə və onun müvafiq hədəflərinə uyğunlaşdırılmışdır. Bu istiqamətdə atılacaq addımlar sırasına, qlobal hədəflərə uyğun olaraq, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, layiqli məşğulluq imkanlarının yaradılması, bölgə əhalisi üçün əlçatan, etibarlı və müasir enerji xidmətləri, xüsusilə bərpa olunan enerji mənbələrindən istifadə edilməsi, habelə təmiz enerji texnologiyalarının tətbiqi, iqtisadi inkişafı və insan rifahını dəstəkləyən keyfiyyətli və möhkəm infrastrukturun qurulması, habelə ekoloji ekosistemlərin dayanıqlığının təmin edilməsi kimi beynəlxalq inkişaf prioritetləri daxil edilmişdir.

Həmçinin Dövlət Proqramı çərçivəsində mühüm hədəf göstəriciləri və gələcək dayanıqlı inkişaf kursu müəyyən olunarkən təbii resurslardan *səmərəli istifadə,* biomüxtəlifliyin qorunması və "yaşıllaşma və karbonsuzlaşma" istiqamətlərində qlobal təşəbbüslərin məqsədləri nəzərə alınmış, smart ixtisaslaşdırma və rəqəmsallaşdırma sahələrində müşahidə olunan innovativ tendensiyaların tətbiqi imkanları da diqqətdə saxlanılmışdır.

Bu baxımdan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı sahəsində qarşıda duran əsas məqsəd beynəlxalq təcrübədə təsdiqini tapmış ən yaxşı təcrübələrin tətbiqi ilə əldə olunan iqtisadi və sosial nailiyyətlərin səmərəsinin artırılmasıdır.

Dövlət Proqramı hazırlanarkən davamlı inkişaf prinsipləri, o cümlədən BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi" ilə müəyyən olunan Dayanıqlı İnkişaf Məqsədləri, həmçinin mütərəqqi beynəlxalq təcrübə və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi potensialı və ehtiyaclara əsaslanan çağırışlar nəzərə alınmışdır.

## 3. Mövcud vəziyyətin təhlili

### 3.1. Əldə olunmuş nailiyyətlər

Ölkədə regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında görülmüş işlər infrastruktur layihələrinin həyata keçirilməsinə, Naxçıvan Muxtar Respublikasında qazlaşdırmanın tam təmin edilməsinə, enerji təchizatının yaxşılaşdırılmasına, müasir yolların inşasına, sosial infrastruktur obyektlərinin tikintisinə, yeni müəssisələrin yaradılmasına və iş yerlərinin açılmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanı ilə Şərur Sənaye Məhəlləsi yaradılmış, investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması üçün son 5 il ərzində 18 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi təqdim edilmişdir. İnvestisiya təşviqi sənədi çərçivəsində idxal olunan 77,9 milyon manat dəyərində avadanlığa gömrük və vergi güzəştləri tətbiq edilmişdir.

İxracın stimullaşdırılması məqsədilə müxtəlif ölkələrdə keçirilmiş tədbirlərdə yerli sahibkarlıq subyektinin dövlət dəstəyi ilə iştirakı təmin edilmiş və istehsal olunan məhsullar nümayiş etdirilmişdir.

Ötən dövrdə torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tutumu 100 milyon kubmetr olan Heydər Əliyev su anbarı istifadəyə verilmişdir.

Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası, o cümlədən 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 4,5 meqavat gücündə Heydər Əliyev su anbarı üzərində su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 20 meqavat gücündə "Biləv" su elektrik stansiyası, Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyaları, Babək rayonunun Xalxal kəndi ərazisində 22 meqavat gücündə Naxçıvan günəş elektrik stansiyası, Kəngərli rayonunda 5 meqavat gücündə, Şərur rayonunda 8 meqavat gücündə günəş elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası və 0,3 meqavat gücündə Culfa külək elektrik stansiyası istifadəyə verilmişdir.

Təbii qazla təchizat tam olaraq başa çatdırılmış, 27 kilometr uzunluğunda Naxçıvan–Şahbuz ortatəzyiqli və 82,2 kilometr uzunluğunda Naxçıvan–Sədərək yüksəktəzyiqli magistral qaz kəmərləri tikilib istifadəyə verilmişdir.

Naxçıvan şəhərinin və onun inzibati ərazisinə daxil olan yaşayış məntəqələrinin əhalisini içməli su və kanalizasiya xidməti ilə təmin etmək üçün gün ərzində 40 min kubmetr sutəmizləmə və 32 min kubmetr tullantı sutəmizləmə gücünə malik olan qurğular və ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilmişdir. Naxçıvan şəhərində, Əliabad qəsəbəsində, Tumbul, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində su xətti və kanalizasiya şəbəkəsi quraşdırılmışdır.

Rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində 1685,7 kilometr fiber-optik xətt çəkilmiş, 160 avtomat telefon stansiyası (ATS) quraşdırılmış, 87 ATS rekonstruksiya olunmuş, 223 ATS tam elektronlaşdırılmışdır.

Naxçıvan Hava Limanı regionun aviasiya nəqliyyat əlaqəsi üçün yeganə vasitə olmuş və 2004-cü ildən Beynəlxalq Hava Limanı statusu qazanmışdır.

Son on il ərzində şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olanlara və digər imtiyazlı şəxslərə 120 mənzil və 280 minik avtomobili verilmişdir. Ölkədə 2017-ci ildən həyata keçirilən özünüməşğulluq proqramına Naxçıvan Muxtar Respublikası üzrə 1320 ailə cəlb edilmişdir.

Ötən müddətdə Ağbulaq istirahət və xizək mərkəzi, Duzdağ fizioterapiya mərkəzi və digər turizm obyektləri fəaliyyətə başlamış, regionda fəaliyyət göstərən mehmanxanaların sayı 10-a çatdırılmışdır.

Ətraf mühitin mühafizəsi, yaşıllaşdırma, yol kənarlarında meşə zolaqlarının salınması istiqamətində işlər görülmüş, eləcə də Arazboyu Dövlət Təbiət Yasaqlığı, Arpaçay Dövlət Təbiət Yasaqlığı və Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı yaradılmışdır.

Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində bölgədə idman obyektləri, mədəniyyət müəssisələri tikilmiş və ya təmir olunmuş, müasir standartlara uyğun təhsil və səhiyyə müəssisələri əhalinin istifadəsinə verilmişdir.

### 3.2. Mövcud çağırışlar

3.2.1. Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlərin daha da möhkəmləndirilməsi, eləcə də regionun potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması üçün müasir çağırışlara və yanaşmalara əsaslanan aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur:

1. biznes mühitinin daha da yaxşılaşdırılması üçün sahibkarlara icazə və lisenziyaların vahid mərkəzdən verilməsi, "Lisenziyalar və icazələr portalı"nın fəaliyyətə başlaması, satınalmaların elektron portal vasitəsilə təşkili, sahibkarlıq subyektlərində aparılan yoxlamaların vahid reyestrinin formalaşdırılması, rəqabət mühitinin sağlamlaşdırılması, bank və sığorta filialları şəbəkəsinin genişləndirilməsi, dövlət orqanlarının (qurumlarının) tabeliyində fəaliyyət göstərən istehsal və xidmət sahələrinin özəlləşdirilməsi;

2. ölkədə tətbiq olunan dövlət xidmətlərinin Naxçıvan Muxtar Respublikasında da tam tətbiq olunması, "ASAN xidmət", "DOST" və digər mərkəzlərin fəaliyyətə başlaması və nəticədə dövlət xidmətlərinə əlçatanlığın artırılması;

3. Naxçıvan Muxtar Respublikası ərazisində olan təbii ehtiyatlar (əlvan metallar) hesabına hasilat sənayesinin inkişaf etdirilməsi;

4. xammal bazası əsasında yeni sənaye sahələrinin (tikinti materialları, qida məhsulları istehsalı və s.) qurulması və mövcud sənaye müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, habelə ayrı-ayrı sahələrdə güzəştlərin tətbiqinin nəzərdə tutulduğu sənaye zonasının yaradılması;

5. elektrik enerjisinin istehsalı və ixracı üzrə mövcud potensialdan istifadə etməklə yeni bərpa olunan enerji (əsasən, günəş) stansiyalarının, həmçinin istilik elektrik stansiyalarının tikintisi və eyni zamanda, tezlik tənzimlənməsinin dayanıqlığının təmini, mövcud elektrik stansiyalarının və şəbəkəsinin təmiri, avtomatlaşdırılmış idarəetmə sisteminin qurulması;

6. Naxçıvan Muxtar Respublikasının ərazisində Türkiyə sərhədinədək 18 km magistral boru kəmərinin çəkilməsi ilə Naxçıvan Muxtar Respublikasının Türkiyənin qaz şəbəkəsi ilə əlaqələndirilməsi və nəticədə qaz təminatının dayanıqlığının təmin edilməsi;

7. kənd təsərrüfatının inkişafında suvarma suyunun əhəmiyyətini nəzərə alaraq bölgədə suvarma şəbəkələrinin yenilənməsi, müasir suvarma sistemlərindən istifadənin genişləndirilməsi;

8. duz yataqları, mineral sular, tarixi və dini abidələr, ekoturizm üçün təbii əlverişli şəraitin olması nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikasında əlavə dəyər yaradılması baxımından turizm infrastrukturunun qurulması və bu sahənin təbliği;

9. xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasında vergi və gömrük güzəştləri müəyyən edilməklə rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması imkanının dəyərləndirilməsi;

10. Naxçıvan Muxtar Respublikasında turistlərə və ticarət məqsədilə oraya gələcək şəxslərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün müasir tipli ictimai-iaşə obyektlərinin, istirahət və əyləncə mərkəzlərinin sayının artırılması və xidmət səviyyəsinin yüksəldilməsi;

11. Naxçıvan Muxtar Respublikasında infrastruktur təminatının yaxşılaşdırılması, o cümlədən əhalinin fiber-optik və mobil internet xidmətlərinə çıxış səviyyəsinin yüksəldilməsi və dayanıqlığının təmin edilməsi, kəndlərdə içməli su təminatının artırılması;

12. Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların digər regionlara daşınması zamanı yaranan nəqliyyat xərcləri üçün xüsusi güzəştlər sisteminin formalaşdırılması, dəmir yolu stansiyalarının və dəmir yolu xətlərinin beynəlxalq tələblərə uyğun yenidən qurulması;

13. Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində göstərilən xidmətlərin keyfiyyətinin və əhatə dairəsinin artırılmasına, ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac duyulur. Burada özəl təhsil və səhiyyə müəssisələrinin yaradılması bu sahədə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə də zəmin yaradacaqdır.

3.2.2. Mövcud vəziyyətin təhlilində, hədəflərin və prioritet istiqamətlərin müəyyənləşdirilməsində GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlilindən istifadə edilmişdir. Naxçıvan Muxtar Respublikasının mövcud sosial-iqtisadi vəziyyətinin GZİT təhlili aşağıdakı kimidir:

| Güclü tərəflər | Zəif tərəflər |
| --- | --- |
| - təbii ehtiyatlar və xammal bazası;<br>- bərpa olunan enerji potensialı (günəş və külək enerjisi);<br>- sahibkarlığın inkişafına, ixracın stimullaşdırılmasına və əlverişli investisiya mühitinin yaradılmasına dövlət dəstəyi;<br>- beynəlxalq hava limanı;<br>- xarici ticarət üçün əlverişli iqtisadi-coğrafi mövqe | - dövlət xidmətlərinə əlçatanlıq səviyyəsinin aşağı olması;<br>- əlverişli biznes mühitini formalaşdıran zəruri təşviqlərin azlığı;<br>- maliyyəyə çıxış imkanlarının məhdudluğu;<br>- regionun enerji təchizatı və kommunikasiya xətlərinin aşağı səviyyədə diversifikasiya olunması, elektrik xətlərinin istismar müddətinin başa çatması;<br>- kənd təsərrüfatı və digər sahələr üzrə infrastruktur və su təminatı sistemində çatışmazlıqlar<br>- ölkənin digər əraziləri ilə birbaşa quru nəqliyyat əlaqəsinin olmaması |
| İmkanlar | **Təhlükələr** |
| - mühüm enerji və nəqliyyat dəhlizlərinə yaxınlıq, xüsusilə, Zəngəzur dəhlizi vasitəsilə Orta Dəhlizlə logistik bağlantı;<br>- rəqabətqabiliyyətli turizm potensialı;<br>- ixracyönlü sənaye sahələrinin inkişafı perspektivləri;<br>- xarici investisiyaların cəlb olunması;<br>- xarici ticarətin inkişafı;<br>- dövlət–özəl tərəfdaşlığı modelinin tətbiqi;<br>- ölkədə mövcud xidmət mexanizmlərinin (dövlət, maliyyə və bank xidmətləri) tətbiqi;<br>- regionun enerji təchizatı və kommunikasiya xətlərinin dayanıqlığının artırılması | - büdcə transferləri payının yüksək olması;<br>- ixrac bazarlarının coğrafi diversifikasiyasının məhdud olması;<br>- istehsal olunan məhsulların beynəlxalq bazarlarda rəqabət üstünlüyünün itirilməsi təhlükəsi;<br>- qlobal iqlim dəyişikliyi təsirləri, xüsusilə əkinəyararlı torpaq sahələrinin səhralaşması və deqradasiyası;<br>- əhalinin digər regionlara və xarici ölkələrə miqrasiyası |

GZİT təhlil əsasında "Güclü tərəflər"in verdiyi üstünlük və "İmkanlar"ın yaratdığı fürsətlərdən bəhrələnərək "Zəif tərəflər" inkişaf etdiriləcək və "Təhlükələr"in mümkün neqativ təsirləri minimuma endiriləcəkdir.

## 4. Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri

4.1. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün 2023–2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunmuş və Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcəkdir.

### 4.1.1. Prioritet 1. Əlverişli biznes mühitinin yaradılması

Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadi canlanmanın təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması bu sahədə prosedurların sadələşdirilməsi və asanlaşdırılması məqsədilə tədbirlərin icrası vasitəsilə həyata keçiriləcəkdir. Burada azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Həmçinin hüquqi və fiziki şəxslərə vergi və digər güzəştlərin tətbiq edilməsi ilə özəl sektorun inkişafına nail olunacaqdır. Bundan başqa, sosial sığorta ödənişlərinin tam və ya qismən dövlət tərəfindən subsidiyalaşdırılması nəzərdən keçiriləcəkdir.

Eyni zamanda, Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması məqsədilə yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görüləcəkdir.

Ölkədə fəaliyyət göstərən bankların və bank olmayan kredit təşkilatlarının Naxçıvan Muxtar Respublikasında da filiallarının açılması ilə əhalinin, o cümlədən sahibkarların bank xidmətlərinə çıxışı asanlaşacaq, əhalinin və sahibkarların sığorta savadlılığının artırılması və sığorta xidmətlərinə əlçatanlığının inkişafı məqsədilə müvafiq tədbirlər görüləcək, sahibkarlığın inkişafı, innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri həyata keçiriləcəkdir.

Eyni zamanda, sahibkarlıq subyektlərinə göstərilən xidmətlər vahid yanaşmada və mərkəzləşdirilmiş qaydada təşkil ediləcək, gömrük sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi ***və*** yükötürmə qabiliyyətinin artırılması istiqamətində işlər aparılacaqdır.

### 4.1.2. Prioritet 2 Ticarətin inkişafı

Naxçıvan Muxtar Respublikasında iqtisadi aktivliyi artırmaq məqsədilə ərazi ticarət və ticarət qovşağı kimi inkişaf etdiriləcəkdir. Belə ki, üç ölkə ilə sərhəd zonasında yerləşməsi Naxçıvan Muxtar Respublikasına ticarət qovşağı, xüsusilə malların təkrar ixracı (paylaşdırılması) yeri və ya sərhədyanı bazar kimi istifadə üçün əlverişli şərait yaradır. Bu məqsədlə, Naxçıvan Muxtar Respublikasına gətirilən bütün malların (siyahı üzrə Azərbaycan Respublikasında istehsal olunan mallar istisna olmaqla) idxal rüsumundan azad olunması, habelə Naxçıvan şəhərində malların xarici ölkə vətəndaşlarına vergi və gömrük nəzarəti altında idxal rüsumları və əlavə dəyər vergisi olmadan satılması üçün orada Ticarət Mərkəzinin yaradılması məqsədəuyğundur.

Eyni zamanda, əlavə olaraq yalnız hava yolu ilə Azərbaycan Respublikasının digər bölgələrindən Naxçıvan Muxtar Respublikasına səfər edən fiziki şəxslərin geri qayıdarkən həmin Ticarət Mərkəzindən güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) mal alıb gətirə bilmələri üçün hədlərin və şərtlərin müəyyən edilməsi təklif olunur. Ticarət Mərkəzinin yaradılması Bakıdan və Azərbaycanın digər bölgələrindən insanların alış-veriş üçün Naxçıvan Muxtar Respublikasına hava yolu ilə səfərlərini, həmçinin qonşu ölkələrdən insanların ticarət və əyləncə üçün gəlmə ehtimalını artıracaqdır. Aşağı büdcəli hava nəqliyyatı şirkətləri tərəfindən Naxçıvan Muxtar Respublikası ilə digər yerli və xarici hava limanları arasında müntəzəm sərnişin və yük daşınmalarının təşkil edilməsi də ticarət məqsədilə Naxçıvan Muxtar Respublikasına gələnlərin sayının artmasına əhəmiyyətli dəstək verəcəkdir.

Zəngəzur dəhlizi açıldıqdan sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhalisi ilə Naxçıvan Muxtar Respublikasının əhalisi arasında qarşılıqlı ticarət və səfərlər üçün imkanlar yaranacaq, güzəştlərin quru yolu ilə Azərbaycan Respublikasının digər bölgələrindən edilən səfərlərə tətbiqi məsələsinə ayrıca qiymətləndirmə aparılmaqla baxılacaqdır.

Həyata keçiriləcək tədbirlər Naxçıvan Muxtar Respublikasının ərazisində iqtisadi aktivliyin, məşğulluğun və ixracın artmasına, yerli istehsalın maya dəyərinin azalmasına və əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsinə, habelə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər bölgələri ilə işgüzar əlaqələrinin güclənməsinə kömək edəcəkdir.

Ticarət qovşağının olması həm də Naxçıvan Muxtar Respublikasında törəmə sahələrin (kafe və restoran, əyləncə mərkəzləri, otellər) yaranmasına və inkişafına gətirib çıxaracaqdır.

### 4.1.3. Prioritet 3. İxracyönlü sənayenin inkişafı

İxracyönlü sənaye sahəsində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, istehsal olunmuş sənaye məhsullarının keyfiyyəti yüksələcək, həmçinin yeni iş yerləri yaradılacaqdır. Naxçıvan Muxtar Respublikasında dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlaması təmin ediləcək, Naxçıvan Muxtar Respublikasında Sənaye Parkı yaradılacaq, istehsal olunan sənaye məhsullarının xarici bazarlara ixracı stimullaşdırılacaq, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət–özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasında mövcud olan iri müəssisələrin istehsal məhsullarının həm ***ölkədaxili*** satışının dəstəklənməsi, həm də xarici bazarlara çıxışının artırılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

Bununla yanaşı, mövcud olan təbii ehtiyatlar və xammal bazası əsasında sənaye sahələrinin yaradılması imkanları genişləndiriləcəkdir.

### 4.1.4. Prioritet 4. Kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişaf etdirilməli sahələri müəyyənləşdiriləcək, həmin sahələr üzrə ehtiyacların diaqnostikası aparılacaq və diaqnostika əsasında dəstək tədbirləri müəyyənləşdiriləcək, bitkiçilik, bağçılıq, bostançılıq, heyvandarlıq, arıçılıq sahələrinin inkişaf etdirilməsi, üzümçülük ənənələri nəzərə alınmaqla üzümçülük və şərabçılıq istiqamətində tədbirlər həyata keçiriləcək, mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi yolu ilə bu sahələrdə məhsul istehsalının artımına nail olunacaqdır.

Bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsulları müəyyənləşdiriləcək, onların brendləşdirilməsi, təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviqi diqqətdə saxlanılacaq, kənd təsərrüfatı məhsullarının emalı, o cümlədən meyvə qurularının istehsalı sahəsi dəstəklənəcək və ixrac imkanları genişləndiriləcəkdir.

Bununla yanaşı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialı və infrastruktur təminatı inkişaf etdiriləcək, aqroparkların yaradılması təşviq olunacaq, kənd təsərrüfatının istehsal vasitələri ilə təminat səviyyəsinin artırılması ilə müvafiq istehsal vasitələrinə əlçatanlıq səviyyəsi artırılacaq, fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə məsləhət və təlim xidmətləri təşkil olunacaqdır.

**(ardı 11-ci səhifədə)**

# Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün dövlət proqramı

**(əvvəli 10-cu səhifədə)**

**4.1.5. Prioritet 5.Turizmin inkişafı**

Naxçıvan Muxtar Respublikasının duz yataqları, mineral suları, tarixi və dini abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlər görüləcəkdir. Sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artırılması və tarixi memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması məqsədilə həmin abidələrin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılacaqdır.

Eyni zamanda, turizm və rekreasiya zonalarının yaradılması da regionun turizm potensialının gücləndirilməsinə əhəmiyyətli təsir göstərəcək, turizm sahələrinin təbliği ilə bağlı layihələrin həyata keçirilməsi və turizm atlasının hazırlanması təmin ediləcəkdir.

**4.1.6. Prioritet 6. Elektrik enerjisi istehsalının və ixracının artırılması**

Türkiyə ilə quru sərhədin mövcudluğu, həmçinin Azərbaycan–Türkiyə–Avropa elektrik dəhlizi layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasının ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi imkanı, Türkiyəyə elektrik verilişi xəttinin çəkilməsi, elektrik enerjisi ixracı məqsədilə tezlik tənzimlənməsinin Türkiyə Respublikasının enerji sistemi vasitəsilə aparılması və Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalı və ixracı potensialını artıracaq, bu isə ölkənin əlavə enerji gücləri hesabına dünya bazarına (Türkiyəyə və Avropaya) elektrik enerjisi satmaq imkanlarını və alternativlərini genişləndirəcəkdir.

Naxçıvan Muxtar Respublikasında mövcud elektrik stansiyalarının modernləşdirilməsi ***və*** dövlət–özəl tərəfdaşlığı çərçivəsində yenilərinin tikilməsi, həmçinin bərpa olunan enerji resurslarından (əsasən, günəş) və dövlət–özəl tərəfdaşlığı imkanlarından istifadə etməklə elektrik enerjisi istehsalının artırılması və yeni layihələrin icrası daha çox elektrik enerjisi ixracının həyata keçirilməsini təmin edəcəkdir**.**

Mövcud elektrik enerjisi xətlərinin və yarımstansiyaların müasir tələblərə uyğun olaraq yenidən qurulması, enerji sistemini operativ idarə etmək, enerjinin keyfiyyətinə nəzarət etmək və monitorinqlər aparılmaq üçün SCADA (nəzarət və məlumatların toplanması sistemi) mərkəzinin yaradılması elektrik təchizatı infrastrukturunun səmərəliliyinin artması, elektrik istehsalı və təchizatı sistemlərində itkilərin davamlı azalması ilə nəticələnəcəkdir.

**4.1.7. Prioritet 7. İnfrastruktur təminatının inkişafı**

Naxçıvan Muxtar Respublikasında ən müasir texnologiyaların tətbiqi telekommunikasiya və poçt xidmətlərinin çeşidini və keyfiyyətini artıracaq, internet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, təhlükəsizliyin, dayanıqlığın və xidmətlərin fasiləsizliyinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında fiber-optik magistral şəbəkə Türkiyə ilə əlaqələndirilməklə yenilənəcək, əhalinin keyfiyyətli internet xidmətlərinə çıxışı asanlaşacaq, həmçinin mobil rabitənin inkişafı ilə bağlı tədbirlər həyata keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasında nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə müvafiq layihələr gerçəkləşdiriləcəkdir.

Aşağı büdcəli hava nəqliyyatı şirkətləri tərəfindən Naxçıvan Muxtar Respublikası ilə yerli və xarici hava limanları arasında müntəzəm sərnişin və yük daşınmaları təşkil ediləcəkdir.

Zəngəzur dəhlizinin açılması burada dəmiryol infrastrukturunun yenilənməsini də zəruri edir. Bu səbəbdən dəmiryol infrastrukturu yenidən qurulacaq, təhlükəsiz, sürətli və dayanıqlı daşıma xidməti təmin ediləcəkdir.

Naxçıvan Muxtar Respublikasının təbii qazla təminatında risklərin azaldılması məqsədilə Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına təbii qaz nəqli üçün boru kəməri çəkiləcəkdir.

Əhalinin həyat şəraitinin yüksəldilməsi üçün rayon mərkəzlərinin və kəndlərin içməli su təminatının artırılması ilə bağlı tədbirlər görüləcəkdir.

Kənd təsərrüfatına yararlı torpaqların su ilə təminatının yaxşılaşdırılması, təsərrüfatlarda mövcud ənənəvi suvarmadan mərhələli olaraq mütərəqqi suvarma sistemlərinə keçidin təmin edilməsi ilə torpaqlardan səmərəli istifadə olunacaq, müasir suvarma infrastrukturu formalaşdırılacaqdır.

**4.1.8. Prioritet 8. Sosial sektorun inkişafı**

Əhalinin təhlükəsiz və rahat yaşayışının təmin olunması, mənzil fondunun inkişaf etdirilməsi və əhalinin yaşayış sahələrinə tələbatının ödənilməsi məqsədilə, dövlət–özəl tərəfdaşlığı çərçivəsində yerli və xarici investorlar cəlb olunmaqla, əhalinin güzəştli şərtlərlə mənzilə əlçatanlığı təmin ediləcəkdir.

Bununla yanaşı, ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin əhatə dairəsi genişlənəcək, aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə əlilliyi müəyyən edilmiş şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələr həyata keçiriləcəkdir.

Kütləvi bədən tərbiyəsi və idmanın həyat tərzinə çevrilməsi, böyüməkdə olan gənc nəsil üçün idman alətlərinin əlçatanlığının təmin edilməsi, əhalinin asudə vaxtlarının səmərəli təşkili üçün idman komplekslərinin yaradılması, əhalinin sıx yaşadığı şəhər və rayon məhəllələrində, parklarda və kəndlərdə açıq hava idman qurğularının qurulması layihələri icra olunacaqdır.

Özəl sektor tərəfindən sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə özəl təhsil və tibb müəssisələrinin yaradılması üçün sahibkarlar arasında təşviqat işi aparılacaqdır.

**4.1.9. Prioritet 9. İnsan kapitalının inkişafı**

Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində təhsilverənlərin peşəkarlıq səviyyəsinin davamlı olaraq yüksəldilməsini təmin edən innovativ texnologiyalara əsaslanan ixtisasartırma təlimləri təşkil ediləcək, istedadlı uşaqlar üçün liseylərin və təmayülləşmənin əhatə dairəsi genişləndiriləcək, təhsil müəssisələrində elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) əsaslı tədrisin tətbiqi həyata keçiriləcək, Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması layihəsi icra olunacaqdır.

Naxçıvan Muxtar Respublikasında ali təhsilin keyfiyyətinin artırılması məqsədilə Naxçıvan Dövlət Universiteti ilə digər ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıq gücləndiriləcək, birgə proqramlar təşkil olunacaq, həmçinin ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiqi üzrə layihələr həyata keçiriləcəkdir.

İnsan kapitalının inkişaf etdirilməsi məqsədilə peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən əmək bazarının tələblərinə uyğun yeni ixtisasların tədrisi, peşə təhsilinin ayrı-ayrı səviyyələri üzrə tələbə qəbulu həyata keçiriləcəkdir. Peşə təhsili müəssisələrində ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili səviyyələri üzrə fəaliyyətin təşkili peşə təhsilində mövcud sənaye müəssisələrinin tələblərinə uyğun olaraq qurulacaqdır. Muxtar respublikada əmək bazarının tələbələrinə uyğun olaraq xidmət, turizm, informasiya texnologiyaları ***və*** digər istiqamətlərdə təlimlərin təşkili həyata keçiriləcək.

Naxçıvan Muxtar Respublikasında startap ekosisteminin inkişaf etdirilməsi, eyni zamanda Azərbaycanda və beynəlxalq arenada özəl sektorun innovasiyasını və inkişafını təşviq etmək üçün tədbirlər həyata keçiriləcək, Gənclərin İnkişaf və Karyera Mərkəzi yaradılacaqdır.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə kadr potensialının inkişafına ehtiyac olduğunu nəzərə alaraq, yerli strukturların ölkənin müvafiq dövlət orqanları (qurumları) ilə intensiv təcrübə mübadiləsinin həyata keçirilməsi, əməkdaşların müvafiq təlim və təcrübə səfərlərinin təşkil edilməsi istiqamətində tədbirlər görüləcəkdir.

**4.1.10. Prioritet 10. İnstitusional inkişaf**

Təhsil sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi, optimallaşdırılması və rasionallaşdırılması üçün tədbirlər görüləcək, məktəbdənkənar təhsil müəssisələrində səmərəli idarəetmə sistemi tətbiq olunacaqdır.

Mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması üçün həmin müəssisələrin fəaliyyətinin optimallaşdırılması və sahənin inkişafı ilə bağlı layihələr (tarix-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bərpa layihələrinin hazırlanması, tarixi eksponatların qorunması, arxeoloji araşdırmalar aparılması və s.) həyata keçiriləcəkdir.

Əmək münasibətləri, məşğulluq, sosial müdafiə, tibb sahələrinə aid fəaliyyətlərin təşkili və dövlət xidmətlərinin inkişaf etdirilməsi məqsədilə bu sahələrdə göstərilən xidmətlər elektronlaşdırılacaqdır.

Eyni zamanda, Naxçıvan iqtisadi rayonunun ümumi planı, Naxçıvan Muxtar Respublikası şəhərlərinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün baş planlar hazırlanacaqdır.

Kənd təsərrüfatının dəstəklənməsi ilə bağlı fəaliyyətin və dövlət xidmətlərinin inkişaf etdirilməsi istiqamətində tədbirlər görüləcək, mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin inkişaf etdirilməsi məqsədilə xidmət mərkəzləri təşkil ediləcəkdir.

Dövlət əmlakının idarə olunması üzrə fəaliyyət və xidmətlər inkişaf etdiriləcək, yeni sahələrin özəlləşdirməyə açılması, sağlamlaşdırılması və idarəetməyə verilməsi ilə bağlı tədbirlər görüləcəkdir.

Ümumilikdə dövlət qurumlarının xidmətlərinin elektronlaşdırılması istiqamətində layihələr icra ediləcəkdir.

Bununla yanaşı, müvafiq institusional və peşəkar bacarıqların təkmilləşdirilməsi işlərinin həyata keçirilməsi məqsədilə beynəlxalq texniki dəstək və qrant layihələrinin Naxçıvan Muxtar Respublikasına cəlb edilməsi istiqamətində tədbirlər görüləcəkdir.

**4.1.11. Prioritet 11. Ətraf mühitin mühafizəsinin gücləndirilməsi**

Regionda ekoloji tarazlığın qorunması istiqamətində işlər davam etdiriləcək, bioloji müxtəlifliyin qorunması təmin olunacaq, meşə ilə örtülü ərazilərin, yaşıllıqların mühafizəsi gücləndiriləcək, meşəsalma və meşəbərpa tədbirlərinin davam etdirilməsi və yaşıllıq sahələrinin artırılması istiqamətində tədbirlər görüləcəkdir.

Eyni zamanda, Naxçıvan Muxtar Respublikasında "Yaşıl enerji" potensialının yaradılması, enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi tədbirləri genişləndiriləcək, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və s.) dövriyyəsi stimullaşdırılacaqdır.

Regionun təbii resurs potensialından istifadənin davamlı artırılması üçün aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları üzrə araşdırmalar aparılması, potensial xammal ehtiyatlarının müəyyən edilməsi və təbii sərvətlərin iqtisadi dövriyyəyə cəlb edilməsi məqsədilə təkliflər hazırlanacaq, sudan qənaətlə və səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirləri həyata keçiriləcək, eləcə də bərk məişət tullantılarının idarə edilməsi vəziyyəti qiymətləndirilərək, müvafiq təkmilləşdirmə işləri ilə bağlı layihələr həyata keçiriləcəkdir.

**5. Hədəf göstəriciləri**

5.1. Dövlət Proqramının əsas hədəf göstəriciləri aşağıdakılardır:

5.1.1. dayanıqlı inkişafın təmin olunması;

5.1.2. məşğulluq imkanlarının artırılması;

5.1.3. əhalinin həyat səviyyəsinin yüksəldilməsi;

5.1.4. təbii ehtiyatlardan səmərəli istifadə edilməsi;

5.1.5. ətraf mühitin mühafizəsinin təmin olunması.

**6. Dövlət Proqramının maliyyələşmə mənbələri**

6.1. Dövlət Proqramı üzrə tədbirlərin icrasının aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

6.1.1. Azərbaycan Respublikasının dövlət büdcəsi;

6.1.2. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi;

6.1.3. büdcədənkənar fondlar;

6.1.4. dövlət–özəl tərəfdaşlığı nəticəsində formalaşan maliyyə vəsaiti;

6.1.5. yerli və xarici investisiyalar;

6.1.6. beynəlxalq təşkilatların, donorların və fondların vəsaiti;

6.1.7. qanunla qadağan olunmayan digər mənbələr.

6.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinə özəl investisiyaların cəlb olunması təşviq ediləcəkdir.

**7. Dövlət Proqramının icrası, monitorinqi və qiymətləndirilməsi**

Dövlət Proqramının icrası məqsədilə müvafiq prioritet istiqamətlərə uyğun tədbirləri əhatə edən Tədbirlər Planı hazırlanmışdır. Tədbirlər Planı 5 (beş) illik müddəti əhatə edir. Tədbirlər Planına uyğun olaraq, 2023–2024-cü illər və 2025–2027-ci illər üçün təfsilatlı tədbirlər planları hazırlanacaqdır.

Dövlət Proqramının icrası tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr nəzərə alınmaqla monitorinq olunacaqdır. Bu göstəricilər müvafiq fəaliyyət istiqamətlərinin icra statusunu qiymətləndirməyə imkan verəcəkdir.

Dövlət Proqramı üzrə monitorinq və qiymətləndirmə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"na əsasən həyata keçiriləcəkdir.

## Dövlət proqramının həyata keçirilməsinə dair tədbirlər planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Prioritet istiqamət 1. Əlverişli biznes mühitinin yaradılması** | | | | | | | |
| 8.1.1. | Azad iqtisadi zonanın yaradılması | İN | NMR NK, DGK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Azad iqtisadi zonanın yaradılması ilə bağlı layihənin hazırlanması | Azad iqtisadi zonanın yaradılması istiqamətində tədbirlər görülməsi | Ticarət və logistika imkanlarının genişlənməsi ilə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı |
| 8.1.2. | Hüquqi və fiziki şəxslərə vergi, gömrük, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi | İN | DGK, ƏƏSMN, NMR NK | 2023–2027 | Güzəşt tətbiq olunacaq fəaliyyət sahələrinin müəyyən edilməsi | Vergilərdən azad olunma, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi | Özəl sektorun inkişafı |
| 8.1.3. | Yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi | İN | NMR NK, ASK | 2023–2027 | Yerli və xarici investorların cəlb olunması | Yerli və xarici investisiyalar əsasında yaradılan istehsalat, ticarət, xidmət və digər sahələrdə yeni müəssisələrin işə salınması | Naxçıvan Muxtar Respublikasının Ümumi Daxili Məhsulunun artımı və yeni iş yerlərinin açılması |
| 8.1.4. | Bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi | MB | İN, NMR NK | 2023–2027 | Bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı diaqnostikanın aparılması | Bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsinin təmin edilməsi | Bank və sığorta xidmətlərinə əlçatanlıq səviyyəsinin artırılması |
| 8.1.5. | Sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi | İN | KTN, NMR NK | 2023–2027 | Sahibkarlıq subyektlərinin güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə təşviqat tədbirlərinin həyata keçirilməsi | Sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi | Sahibkarlıq subyektlərinin iqtisadi və maliyyə göstəricilərinin yaxşılaşması |
| 8.1.6. | Gömrük sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılması istiqamətində iş aparılması | DGK | MN, DSX, NMR NK | 2023–2027 | İnfrastrukturun yaradılması üçün layihələndirmə işlərinin aparılması | Gömrük sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılmasının təmin edilməsi | Gömrük rejiminin sadələşdirilməsi və idxal-ixrac və tranzit dövriyyəsinin artması |
| **8.2. Prioritet istiqamət 2. Ticarətin inkişafı** | | | | | | | |
| 8.2.1. | Naxçıvan Muxtar Respublikasının bütün ərazisi üçün gömrük rüsum güzəştini (siyahı üzrə Azərbaycanda istehsal edilən mallar istisna olmaqla) nəzərdə tutan xüsusi gömrük rejiminin (zonasının) yaradılması | DGK | NMR NK, İN, MN | 2023–2027 | Hüquqi bazanın formalaşdırılması | Xüsusi gömrük rejiminin (zonasının) fəaliyyətə başlaması | |
| 8.2.2. | Naxçıvan şəhərində rüsumsuz ticarət mağazalarına bərabər güzəştlərin tətbiq olunduğu Ticarət Mərkəzinin yaradılması | NMR NK | DGK, İN, MN | 2023–2027 | Ticarət Mərkəzinin yerləşəcəyi yerin müəyyən edilməsi, hüquqi bazanın formalaşdırılması | Ticarət Mərkəzinin fəaliyyətə başlaması | Əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, turistlərin cəlb edilməsi və iqtisadi aktivliyin artması |
| 8.2.3. | Hava yolu ilə Naxçıvan Muxtar Respublikasına səfər edən, Azərbaycan Respublikasının digər bölgələrindən olan fiziki şəxslər üçün idxal gömrük ödənişləri üzrə güzəşt hədlərinin və şərtlərinin müəyyən edilməsi | DGK | İN, NMR NK, MN | 2023–2027 | Hüquqi bazanın formalaşdırılması | Güzəştlərin tətbiqinə başlanılması | |
| 8.2.4. | Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların digər bazarlara ixracını təşviq etmək məqsədilə logistik dəstək verilməsi | İN | RİNN, NMR NK | 2023–2027 | Müvafiq sahədə dəstək verilməsinə dair təkliflər hazırlanması | Məhsullara daşıma dəstəyinin verilməsi | İxracın həcminin davamlı artması |
| **8.3. Prioritet istiqamət 3. İxracyönlü sənayenin inkişafı** | | | | | | | |
| 8.3.1. | Naxçıvan Muxtar Respublikasında sənaye parkının yaradılması | İN | NMR NK | 2023–2027 | Sənaye parkının yaradılması üçün müvafiq sənədlərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Sənaye parkının fəaliyyətə başlaması | Sənaye sahəsinin inkişafı, yeni iş yerlərinin açılması |
| 8.3.2. | Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi | İN | NMR NK | 2023–2027 | İnvestorların cəlb edilməsi | İstehsalın təşkil edilməsi | Sənaye sahəsinin inkişafı və məşğulluğun artması |
| 8.3.3. | Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi | İN | NMR NK, KTN, AQTA, DGK | 2023–2027 | İstehsal olunan məhsulların vahid reyestrinin və rəqəmsal kataloqunun yaradılması | Hədəf bazarlar üzrə məhsul/bazar matrisinin hazırlanması, çatışmazlıqların müəyyənləşdirilməsi və aradan qaldırılması | Naxçıvan Muxtar Respublikasında ixracın artması və ixrac bazarlarının genişlənməsi |
| 8.3.4. | İxracyönlü potensial sənaye sahələri üzrə layihələrin hazırlanması və layihələrə investisiyaların cəlb edilməsi istiqamətində iş aparılması | İN | KTN, EN, ETSN, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Potensial sahələrin müəyyənləşdirilməsi, layihələrin hazırlanması və investorların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi | Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına birbaşa xarici investisiyaların cəlb edilməsi | Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və yeni iş yerlərinin yaradılması |
| 8.3.5. | İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsullardan istifadənin təşviq edilməsi | İN | NMR NK, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri və digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Mövcud istehsal sahələrinin potensialının qiymətləndirilməsi | İstehsal olunan məhsullardan işğaldan azad edilmiş ərazilərdə istifadə olunması | Məhsul istehsalının artması, infrastrukturun genişlənməsi, məşğulluğun artması |
| **8.4. Prioritet istiqamət 4. Kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı** | | | | | | | |
| 8.4.1. | Bitkiçiliyin, o cümlədən bağçılıq, üzümçülük və bostançılığın inkişaf etdirilməsi | KTN | NMR NK, İN | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında həmin sahələrin mövcud vəziyyətinin və inkişaf imkanlarının diaqnostikası, diaqnostikanın nəticələri əsasında prioritet altsahələr və dəstək tədbirləri barədə təkliflər hazırlanması | Müvafiq sahələrin inkişafı ilə bağlı dəstək tədbirlərinin həyata keçirilməsi | Kənd təsərrüfatında məhsul istehsalının artması |

**(ardı 12-ci səhifədə)**

# Dövlət proqramının həyata keçirilməsinə dair tədbirlər planı

(əvvəli 11-ci səhifədə)

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 8.4 2. | Heyvandarlığın və arıçılığın inkişaf etdirilməsi | KTN | NMR NK, İN | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında həmin sahələrin mövcud vəziyyətinin və inkişaf imkanlarının diaqnostikası, diaqnostika nəticələri əsasında prioritet altsahələr və dəstək tədbirləri barədə təkliflər hazırlanması | Müvafiq sahələrin inkişafı ilə bağlı dəstək tədbirlərinin həyata keçirilməsi | Kənd təsərrüfatında məhsul istehsalının artması |
| 8.4 3. | Naxçıvan Muxtar Respublikası üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi və təşviqi | NMR NK | KTN, İN | 2023–2027 | Orqanik kənd təsərrüfatı məhsullarının müəyyənləşdirilməsi | Müəyyənləşdirilmiş orqanik məhsulların təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviq edilməsi | Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafı və əhalinin gəlirlərinin artması |
| 8 4.4 | Kənd təsərrüfatı məhsullarının emal və qablaşdırma sahələrinin inkişaf etdirilməsi | NMR NK | İN, KTN | 2023–2027 | Müvafiq emal sahələrinin və sahələrin inkişafı üçün dəstək alətlərinin müəyyənləşdirilməsi | Müvafiq mexanizmlər vasitəsilə müəyyənləşdirilmiş emal sahələrinin inkişaf etdirilməsi üçün dəstək göstərilməsi | Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı, əhalinin məşğulluğunun və gəlirlərinin artması |
| 8 4.5 | Kənd təsərrüfatı istehsal vasitələri ilə təminat səviyyəsinin artırılması | KTN | NMR NK | 2023–2027 | Fermerlərin toxum, ting, yem istehsalı və kənd təsərrüfatı texnikası ilə təminat səviyyəsinin qiymətləndirilməsi | Müvafiq istehsal vasitələrinə əlçatanlığın və təminatın yaxşılaşdırılması | Kənd təsərrüfatı məhsuldarlığın və əhalinin gəlirlərinin artması |
| 8 4.6 | Fermerlərə məsləhət xidmətləri göstərilməsinin təşkili | NMR NK | KTN | 2023–2027 | Fermerlərin müvafiq məsləhət və təlim ehtiyaclarının müəyyənləşdirilməsi | Müəyyənləşdirilmiş ehtiyaclar əsasında məsləhət və təlim xidmətlərinin təşkili | Fermerlərin müvafiq sahələrdə bilik və bacarıqlarının inkişafı, müvafiq sahələrdə məhsul istehsalının artması |
| 8 4.7 | Aqroparkların yaradılması | NMR NK | İN, KTN | 2023–2027 | Müvafiq qanunvericiliyin formalaşdırılması, aqroparklar yaradılacaq ərazilərin müəyyənləşdirilməsi | Aqroparkların fəaliyyətə başlaması | Kənd təsərrüfatı sahəsində məhsul istehsalının və məşğulluğun artması |
| **8.5. Prioritet istiqamət 5. Turizmin inkişafı** | | | | | | | |
| 8 5.1 | Turizm infrastrukturunun yaxşılaşdırılması | NMR NK | DTA | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq infrastrukturların qurulması | Turizm infrastrukturunun inkişafı |
| 8 5.2 | Müxtəlif turizm növlərinin (qış, kənd, eko və s.) inkişaf etdirilməsi və turizm atlasının hazırlanması | NMR NK | DTA | 2023–2027 | Turizm növlərinin inkişafına dair layihələrin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi, turizm atlasının hazırlanması | Turizmin inkişafı, xarici və yerli turistlərin sayının artması |
| 8 5.3 | Naxçıvan Muxtar Respublikasının bəzi tarixi memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılması | MdN | NMR NK | 2023–2027 | Müvafiq siyahıya salınacaq tarixi memarlıq abidələrinin müəyyənləşdirilməsi | Tarixi memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması | Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artması və tarixi memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması |
| 8.5 4. | Turizm və rekreasiya zonalarının yaradılması | DTA | NMR NK | 2023–2027 | Turizm və rekreasiya zonaları layihələrinin hazırlanması | Turizm və rekreasiya zonalarının yaradılması üçün tədbirlər görülməsi | Turizmin inkişafı, xarici və yerli turistlərin sayının artması |
| **8.6. Prioritet istiqamət 6. Elektrik enerjisi istehsalının və ixracının artırılması** | | | | | | | |
| 8 6.1 | Dövlət–özəl tərəfdaşlığı ilə yeni istilik elektrik stansiyalarının tikintisi | EN | NMR NK | 2023–2027 | Müvafiq elektrik stansiyalarının tikintisinin layihələndirilməsi | Layihələrə uyğun olaraq, yeni elektrik stansiyalarının tikintisi ilə bağlı zəruri işlər görülməsi | Elektrik enerjisi istehsalının artması |
| 8.6 2. | Elektrik stansiyalarının mərhələli olaraq əsaslı təmir edilməsi | EN | NMR NK | 2023–2027 | Əsaslı təmir olunacaq elektrik stansiyalarının seçilməsi | Elektrik stansiyalarında əsaslı təmir işlərinin aparılması | Elektrik təchizatının yaxşılaşması, elektrik enerjisi istehsalının artması |
| 8.6 3. | Mövcud elektrik enerjisi xətlərinin və yarımstansiyaların müasir tələblərə uyğun olaraq yenidən qurulması | NMR NK | EN | 2023–2027 | Müvafiq sahədə layihələrin hazırlanması | Elektrik enerjisi xətlərinin və yarımstansiyaların yenidən qurulması işlərinin aparılması | Elektrik təchizatı infrastrukturunun səmərəliliyinin artması |
| 8 6.4 | Su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi | NMR NK | EN | 2023–2027 | Müvafiq su elektrik stansiyalarının tikintisi layihələrinin hazırlanması | Su elektrik stansiyalarının tikintisi ilə bağlı zəruri işlər görülməsi | Elektrik təchizatının yaxşılaşması, elektrik enerjisi istehsalının artması |
| 8.6 5. | Dövlət–özəl tərəfdaşlığı ilə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılmasının davam etdirilməsi | EN | NMR NK | 2023–2027 | Müvafiq sahədə enerji potensialının dəqiqləşdirilməsi, təkliflər hazırlanması və özəl sektora təqdim olunması | Naxçıvan Muxtar Respublikasında günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələrin icrası | “Yaşıl enerji” istehsalının artması |
| 8.6 6. | Xarici ölkələrə birbaşa elektrik enerjisi ixracının həyata keçirilməsi | NMR NK | EN, MN | 2023–2027 | Müvafiq layihənin hazırlanması | Naxçıvan–Türkiyə yüksəkgərginlikli elektrik xətlərinin çəkilməsi | Elektrik enerjisi ixracının artması |
| 8.6 7. | Yeni generasiya güclərinin enerji sisteminə etibarlı inteqrasiyası üçün infrastrukturun qurulması | NMR NK | EN | 2023–2027 | Müvafiq sahədə yeni infrastrukturun qurulmasına dair təkliflər hazırlanması | Təkliflərə uyğun olaraq yeni infrastrukturun qurulması istiqamətində tədbirlərin həyata keçirilməsi | Elektrik təchizatının yaxşılaşması |
| 8 6.8 | Enerji səmərəliliyinin təmin edilməsi ilə bağlı tədbirlər görülməsi | NMR NK | EN | 2023–2027 | Enerji səmərəliliyinin təmin edilməsinə dair layihələr hazırlanması | Enerji sistemini operativ idarə etmək, enerjinin keyfiyyətinə nəzarət və monitorinqlərin aparılması üçün SCADA (nəzarət və məlumatların toplanması sistemi) mərkəzinin yaradılması | Elektrik istehsalı və təchizatı sistemlərində itkilərin davamlı azaldılması |
| 8.6 9. | Elektrik enerjisinin ixracı məqsədilə tezlik tənzimlənməsinin Türkiyə Respublikasının enerji sistemi vasitəsilə aparılması və Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ENTSO-E (Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyası) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi | EN | NMR NK | 2023–2027 | ENTSO-E şəbəkəsinə qoşulma üçün imkanların müəyyən edilməsi | ENTSO-E şəbəkəsinə qoşulma üçün tədbirlər görülməsi | Tezlik tənzimlənməsinin Türkiyə enerji sistemi vasitəsilə aparılması |
| 8.6.10. | Yeni enerji dəhlizinin Naxçıvan Muxtar Respublikası ərazisindən keçəcək hissəsində müvafiq infrastrukturun yaradılması | NMR NK | EN | 2023–2027 | Tikintisi planlaşdırılan energetika qurğularının müəyyən edilməsi | Energetika qurğularının tikintisi | Elektrik enerjisi ixracının artması |
| **8.7. Prioritet istiqamət 7. İnfrastruktur təminatının inkişafı** | | | | | | | |
| 8 7.1 | Müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya və poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması | NMR NK | RİNN | 2023–2027 | Müvafiq sahədə müasir informasiya texnologiyalarının tətbiqinə dair layihələrin hazırlanması | Müvafiq sahədə müasir informasiya texnologiyalarının tətbiqinə dair layihələrin həyata keçirilməsi | Keyfiyyətli telekommunikasiya və poçt xidmətləri ilə təminat səviyyəsinin artırılması |
| 8.7 2. | Mobil rabitənin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi | RİNN | NMR NK | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mobil operatorların telekommunikasiya şəbəkələrinin “Mərkəzi Baza Sistemi”nə inteqrasiyası | İstehlakçılara nömrə resurslarının ayrılması və onlardan istifadənin əlçatanlığın artırılması | Mobil rabitə xidmətinin keyfiyyətinin yüksəlməsi |
| 8.7 3. | İnternet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | NMR NK | RİNN | 2023–2027 | Şəbəkənin texniki imkanlarının artırılması | Müvafiq şəbəkələrdən istifadənin təşviqi və genişləndirilməsi | Telefon və internet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və müştəri məmnunluğuna nail olunması |
| 8 7.4 | Fiber-optik magistral şəbəkənin yenilənməsi | NMR NK | RİNN | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında yüksəksürətli internet xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi | Xidmətlərin keyfiyyətinin yüksəldilməsi, dayanıqlığın və xidmətlərin fasiləsiz göstərilməsinin təmin edilməsi | İnternet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, müştəri məmnunluğuna nail olunması |
| 8.7 5. | Nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi | NMR NK | RİNN | 2023–2027 | Nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi məqsədilə layihə təkliflərinin hazırlanması | Müvafiq sahədə layihələrin həyata keçirilməsi | Nəqliyyat xidmətlərinin inkişaf etdirilməsi, ictimai nəqliyyatın keyfiyyətinin artırılması |
| 8 7.6 | Aşağı büdcəli hava nəqliyyatı şirkətləri tərəfindən Naxçıvan Muxtar Respublikası ilə digər yerli və xarici hava limanları arasında müntəzəm sərnişin və yük daşınmalarının təşkil edilməsi | AZAL | RİNN, İN, NMR NK | 2023–2027 | Potensial aviaşirkətlərin müəyyən olunması ilə bağlı araşdırmalar aparılması,<br><br>Naxçıvan Hava Limanına uçuşlar etməyə marağı olan aviaşirkətlərlə danışıqlar aparılması | Müqavilələrin bağlanılması və aviaşirkətlərin fəaliyyətə başlaması | Naxçıvan Muxtar Respublikasından hava nəqliyyatı ilə daşımaların sayının artması |
| 8.7 7. | Dəmiryol infrastrukturunun inkişafı | ADY | RİNN, MN, NMR NK | 2023–2027 | Dəmiryol infrastrukturunun yenidən qurulması istiqamətində zəruri hazırlıq işlərinin tamamlanması | Tikinti-quraşdırma işlərinin həyata keçirilməsi | Dəmiryol infrastrukturunun yenidən qurulması ilə təhlükəsiz, sürətli və dayanıqlı daşıma xidmətinin həyata keçirilməsi |
| 8.7 8. | Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına təbii qaz nəqli üçün boru kəmərinin çəkilməsi | SOCAR | EN, NMR NK | 2023–2027 | Layihə sənədlərinin hazırlanması | Təbii qaz təchizatı üçün kəmərin tikintisinin həyata keçirilməsi | Qaz təchizatının dayanıqlığının yaxşılaşdırılması |
| 8.7 9. | Torpaqların su ilə təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər görülməsi | ADSEA | NMR NK | 2023–2027 | Müvafiq sahədə layihə sənədlərinin hazırlanması | Layihə sənədləri əsasında bərpa və tikinti işlərinin aparılması | Torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi |
| 8.7.10. | Təsərrüfatlarda mövcud ənənəvi suvarmadan mərhələli olaraq mütərəqqi suvarma sistemlərinə keçidin təmin edilməsi | NMR NK | KTN | 2023–2027 | Müasir suvarma sistemlərinin tətbiqinə dair layihələrin hazırlanması | Müasir suvarma sistemlərinin tətbiqinin həyata keçirilməsi | Sudan səmərəli istifadə və su itkilərinin qarşısının alınması |
| 8.7.11. | Rayon mərkəzlərinin və kəndlərin içməli su təminatının artımı ilə bağlı tədbirlər görülməsi | NMR NK | ADSEA | 2023–2027 | Müvafiq sahədə layihələrin hazırlanması | İçməli su təminatının yaxşılaşdırılması ilə bağlı layihələrin həyata keçirilməsi | Əhalinin içməli su ilə təminatının artması |
| **8.8. Prioritet istiqamət 8. Sosial sektorun inkişafı** | | | | | | | |
| 8.8.1. | Əhalinin mənzil alışına əlçatanlığının yaxşılaşdırılması | MB | MİDA, İKZF | 2023–2027 | İpoteka kreditləşməsinin tətbiqi və sosial mənzillərin tikintisinin aparılması ilə bağlı layihənin hazırlanması | İpoteka kreditləşməsinin həyata keçirilməsi, sosial mənzillərin tikintisi | Əhalinin mənzil təminatının yaxşılaşdırılması |
| 8.8.2. | Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin əhatə dairəsinin genişləndirilməsi | NMR NK | ETN | 2023–2027 | Yeni internat məktəbi binasının inşası ilə bağlı layihə sənədlərinin hazırlanması | Yeni internat məktəbi binasının inşası, təchizatı və fəaliyyətinin təşkil edilməsi | Aztəminatlı və xüsusi himayəyə ehtiyacı olan uşaqların təhsil imkanlarının genişləndirilməsi |
| 8.8.3. | Aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin olunması istiqamətində sosial layihələrin həyata keçirilməsi | NMR NK | ƏƏSMN | 2023–2027 | Müvafiq sahədə mexanizmlər və normativ hüquqi bazaya dair təkliflər hazırlanması və qəbul edilməsi | Müvafiq sahədə tədbirlərin həyata keçirilməsi | Müvafiq şəxslərin sosial xidmətlərlə əhatəliliyinin artması |
| 8.8.4. | Əhalinin asudə vaxtının səmərəli təşkili üçün idman komplekslərinin yaradılması və açıq hava idman qurğularının qurulması | NMR NK | GİN | 2023–2027 | Müvafiq layihələrin hazırlanması | İdman komplekslərinin və qurğularının quraşdırılması | Gənclərin asudə vaxtının səmərəli təşkili |
| 8.8.5. | Özəl təhsil və tibb müəssisələrinin yaradılmasının təşviq edilməsi | NMR NK | ETN, SN | 2023–2027 | Özəl təhsil və tibb müəssisələrinin yaradılması üçün təşviqat tədbirlərinin həyata keçirilməsi | Özəl təhsil və tibb müəssisələrinin fəaliyyətə başlaması | Əhalinin keyfiyyətli təhsil və tibb xidmətlərinə çıxışının yaxşılaşdırılması |
| **8.9. Prioritet istiqamət 9. İnsan kapitalının inkişafı** | | | | | | | |
| 8.9.1. | Peşə təhsilinin inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | NMR NK | ETN, ƏƏSMN | 2023–2027 | Peşə təhsilinin inkişaf etdirilməsi ilə bağlı layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin icra edilməsi | Əmək bazarının tələblərinə uyğun peşə təhsilli gənclərin sayının artması |

(ardı 13-cü səhifədə)

# Dövlət proqramının həyata keçirilməsinə dair tədbirlər planı

(əvvəli 12-ci səhifədə)

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 8.9.2. | Ümumtəhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi | NMR NK | ETN | 2023–2027 | Təhsilin keyfiyyətinin artırılması ilə bağlı layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Orta təhsilin keyfiyyət göstəricilərinin artması |
| 8.9.3. | Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması | NMR NK | ETN | 2023–2027 | Müvafiq orta məktəbin yaradılması ilə bağlı layihə hazırlanması | İngilisdilli orta məktəbin fəaliyyətə başlaması | Orta təhsilin keyfiyyət göstəricilərinin artması |
| 8.9.4. | Ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiq edilməsi | NMR NK | ETN, SN | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Ali təhsilin keyfiyyət göstəricilərinin yüksəlməsi |
| 8.9.5. | Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili | NMR NK | ETN | 2023–2027 | Müvafiq layihə təklifinin hazırlanması və danışıqlar aparılması | Əməkdaşlıq layihələrinin həyata keçirilməsi | Ali təhsilin keyfiyyət göstəricilərinin yüksəlməsi |
| 8.9.6. | Gənclərin İnkişaf və Karyera Mərkəzinin yaradılması | GF | NMR NK | 2023–2027 | Müvafiq sahədə təkliflərin hazırlanması | Müasir gənclər məkanının yaradılması | Gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların ideoloji hazırlığı, şəxsi inkişafı istiqamətində fəaliyyətin təşkili |
| 8.9.7. | Gənclərin şəxsi və peşəkar inkişafı üçün tədbirlərin həyata keçirilməsi | GİN | GF, NMR NK | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Gənclərin intellektual və yaradıcı potensialının artması və cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakının təmin edilməsi |
| 8.9.8. | Dövlət qulluğunda bilik, bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | DİA | DİM, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Dövlət qulluqçularının bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi üçün təlim modullarının hazırlanması | Müvafiq dövlət orqanlarında (qurumlarında) dövlət qulluqçularının təlimlərə cəlb edilməsi | Dövlət orqanlarında (qurumlarında) qulluq keçən dövlət qulluqçularının bilik, bacarıq və səriştələrinin artması |
| 8.9.9. | Startap layihələrin dəstəklənməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | RİNN | İN, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Naxçıvan Muxtar Respublikasında startap təfəkkürünün və regionun innovasiya ekosisteminin inkişafı |
| **8.10. Prioritet istiqamət 10. İnstitusional inkişaf** | | | | | | | |
| 8.10.1. | Təhsil sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi | NMR NK | ETN | 2023–2027 | Təhsil müəssisələrində göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması ilə bağlı layihə təkliflərinin hazırlanması | Təhsil müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | Təhsil müəssisələrində xidmətlərin keyfiyyətinin yüksəlməsi |
| 8.10.2. | Mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və mədəniyyət sahəsinin inkişafının təmin edilməsi | NMR NK | MdN, AMEA | 2023–2027 | Mədəniyyət müəssisəsinin fəaliyyətinin optimallaşdırılması və sahənin inkişafı ilə bağlı layihələrin hazırlanması | Müvafiq sahədə layihələrin həyata keçirilməsi | Mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsi |
| 8.10.3. | Naxçıvan Muxtar Respublikasının dövlət orqanları (qurumları) ilə Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) arasında əməkdaşlığın gücləndirilməsi və müvafiq məlumat mübadiləsinin təmin edilməsi | PA | NK, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq sahələrdə əməkdaşlığın inkişafı və məlumat mübadiləsinin təmin edilməsi üçün tədbirlər görülməsi | Dövlət xidmətlərinin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.4. | Əmək münasibətləri, məşğulluq, sosial müdafiə sahələrinə aid fəaliyyətin təşkilinin və dövlət xidmətlərinin inkişaf etdirilməsi | NMR NK | ƏƏSMN | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq sahədə tədbirlərin həyata keçirilməsi | Müvafiq sahələrdə göstərilən xidmətlərin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.5. | Tibb sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi | NMR NK | İTSDA, SN | 2023–2027 | Tibb müəssisələrində xidmətlərin inkişafına dair layihələrin hazırlanması | Tibb müəssisələrində xidmətlərin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | Tibb müəssisələrində xidmətlərin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.6. | Naxçıvan iqtisadi rayonunun ümumi planının hazırlanması | DŞAK | Digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2025 | Ümumi planın sifariş olunması | İnkişaf istiqamətlərinin müəyyən edilməsi ilə ümumi planın hazırlanması | Ümumi planın təsdiq olunması |
| 8.10.7. | Naxçıvan Muxtar Respublikası şəhərlərinin baş planlarının hazırlanması | DŞAK | NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Baş planların sifariş olunması | Şəhər torpaqlarından istifadə növlərini müəyyən etməklə baş planların hazırlanması | Baş planların təsdiq olunması |
| 8.10.8. | Kənd təsərrüfatı sahəsinin dəstəklənməsi ilə bağlı fəaliyyətin və dövlət xidmətlərinin inkişaf etdirilməsi | KTN | NMR NK | 2023–2027 | Müvafiq sahədə dəstək mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | Kənd təsərrüfatı sahəsinin dəstəklənməsi ilə bağlı fəaliyyət və xidmətlərin həyata keçirilməsi | Aqrar istehsalın və emalın iqtisadi göstəricilərdə payının artması |
| 8.10.9. | Mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin inkişaf etdirilməsi və dövlət xidmətlərinin təşkil edilməsi | İN | NMR NK | 2023–2027 | "KOB dostu" ofislərinin yaradılması ilə bağlı layihələrin hazırlanması | "KOB dostu" ofislərinin yaradılması və xidmətlərin təşkili | Sahibkarların müvafiq dəstək xidmətlərinə əlçatanlığının yaxşılaşdırılması |
| 8.10.10. | Sahibkarlıq subyektləri tərəfindən vergi sahəsində könüllü əməletmə səviyyəsinin artırılması | İN | NMR NK | 2023–2027 | Naxçıvan şəhərində vergi ödəyicilərinə xidmət mərkəzinin yaradılması | Digər şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılması | Sahibkarlara xidmət səviyyəsinin yüksəldilməsinə nail olmaqla sahibkarlar tərəfindən könüllü əməletmə səviyyəsinin yüksəlməsi |
| 8.10.11. | Dövlət əmlakının idarə edilməsi sahəsində fəaliyyətin və xidmətlərin inkişaf etdirilməsi | İN | NMR NK | 2023–2027 | Dövlət əmlakının idarə edilməsi sahəsində müvafiq fəaliyyət və xidmətlərin inkişaf etdirilməsi ilə bağlı layihələrin hazırlanması | Dövlət əmlakının idarə edilməsi sahəsində müvafiq fəaliyyətin icrası və xidmətlərin təşkil edilməsi | Müvafiq sahədə dövlət xidmətlərinin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.12. | Dövlət qulluğuna qəbul və inzibati dövlət qulluğu vəzifələrinin tutulmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi | NMR NK | NK, DİM, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması və təsdiq edilməsi | Naxçıvan Muxtar Respublikası ərazisində dövlət qulluğuna qəbul və inzibati vəzifələrin tutulması üzrə vahid yanaşmanın tətbiq edilməsi | Dövlət qulluğuna qəbulda şəffaflığın artması |
| 8.10.13. | Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində tədbirlər görülməsi | RİNN | NMR NK | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında elektron xidmətlərdən istifadənin asanlaşdırılması | Naxçıvan Muxtar Respublikasında elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi | Elektron xidmətlərdə rəqəmsal həllərin tətbiqinin şaxələndirilməsi |
| 8. 10.14. | Texniki yardım və qrant layihələrinin Naxçıvan Muxtar Respublikasına cəlb edilməsi | İN | NMR NK, aidiyyəti qurumlar | 2023–2027 | Müvafiq donor təşkilatlarla danışıqlar aparılması və layihələrin müəyyənləşdirilməsi | Texniki yardım və qrant layihələrinin icra edilməsi | Beynəlxalq təcrübələrin tətbiqi ilə sosial-iqtisadi sahələrdə inkişafa nail olunması |
| **8.11. Prioritet istiqamət 11. Ətraf mühitin mühafizəsinin gücləndirilməsi** | | | | | | | |
| 8.11.1. | Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatlarından istifadə potensialının artırılması | NMR NK | ETSN, İN, aidiyyəti qurumlar | 2023–2027 | Potensial xammal ehtiyatlarının müəyyən edilməsi və təbii sərvətlərin iqtisadi dövriyyəyə cəlbi məqsədilə təkliflər hazırlanması | Müvafiq sahədə layihələrin icra edilməsi | Naxçıvan Muxtar Respublikasının təbii resurslarından səmərəli istifadənin təmin edilməsi |
| 8.11.2. | Meşəsalma və meşəbərpa tədbirlərinin görülməsi | NMR NK | ETSN | 2023–2027 | Meşəsalma və meşəbərpa işləri aparılacaq ərazilərin müəyyənləşdirilməsi | Meşəsalma və meşəbərpa işlərinin aparılması | Meşə fondu torpaqlarında meşə ilə örtülü sahələrin artması |
| 8.11.3. | Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və s.) dövriyyəsinin stimullaşdırılması | NK | RİNN, NMR NK, İN, DGK | 2023–2027 | Elektrik mühərrikli və hibrid nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə vergi-gömrük güzəştlərinin tətbiqi | Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrindən (minik avtomobilləri, avtobuslar və s.) istifadənin artırılması | Ekoloji vəziyyətin yaxşılaşması |
| 8.11.4. | Biomüxtəlifliyin qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsi | NMR NK | ETSN | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Biomüxtəlifliyin qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsi | Biomüxtəlifliyin qorunması |
| 8.11.5. | Sudan qənaətli və səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirlərinin görülməsi | NMR NK | KTN, ADSEA | 2023–2027 | Müvafiq sahədə həyata keçiriləcək layihələrlə bağlı təkliflər hazırlanması | İçməli sudan qənaətlə istifadə edilməsi ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Əhalinin sudan qənaətlə istifadə ilə bağlı məlumatlılıq səviyyəsinin artması |
| 8.11.6. | Bərk məişət tullantılarının idarə olunması ilə bağlı işlər görülməsi | ETSN | "Təmiz Şəhər" ASC, NMR NK | 2023–2027 | Bərk məişət tullantılarının idarə olunmasına dair layihə təkliflərinin hazırlanması | Bərk məişət tullantılarının idarə olunması tədbirlərinin həyata keçirilməsi | Bərk məişət tullantılarının idarə olunmasının təkmilləşdirilməsi və əhatə dairəsinin genişlənməsi |

## AKRONİMLƏR VƏ İXTİSARLAR

**ADSEA** - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
**ADY** - "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
**AMEA** - Azərbaycan Milli Elmlər Akademiyası
**AQTA** - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
**ASK** - Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası
**AZAL** - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
**DGK** - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
**DİA** - Dövlət İdarəçilik Akademiyası
**DİM** - Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
**DSX** - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
**DŞAK** - Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
**DTA** - Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
**EN** - Azərbaycan Respublikasının Energetika Nazirliyi
**ETN** - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
**ETSN** - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
**ƏƏSMN** - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**GF** - Azərbaycan Respublikasının Gənclər Fondu
**GİN** - Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
**İKZF** - Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu
**İN** - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
**İTSDA** - Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
**KTN** - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
**MB** - Azərbaycan Respublikasının Mərkəzi Bankı
**MdN** - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
**MİDA** - Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi
**MN** - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
**NK** - Azərbaycan Respublikasının Nazirlər Kabineti
**NMR NK** - Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti
**PA** - Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
**RİNN** - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
**SN** - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
**SOCAR** - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
**"Təmiz Şəhər" ASC** - "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti
**VXSİDA** - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

# Stoltenberq Ankarada İsveç və Kosovo ilə bağlı müzakirələr aparıb



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun baş katibi Yens Stoltenberq ilə görüşüb. Tərəflər İsveçin alyansa qəbulu məsələsini müzakirə ediblər. Ankara bir ildən artıqdır ki, İsveçin NATO-ya üzvlüyünə qarşı çıxır və öz mövqeyini Stokholmun Türkiyədə qadağan olunmuş Kürdüstan Fəhlə Partiyasına dəstək verməsilə əsaslandırır.**

"İsveç Türkiyənin narahatlığını aradan qaldırmaq üçün əhəmiyyətli addımlar atıb. Bunlara İsveç konstitusiyasında dəyişiklik edilməsi, silah embarqosunun dayandırılması və terrora, o cümlədən PKK-ya qarşı əməkdaşlığın gücləndirilməsi daxildir. Bir neçə gün əvvəl terrora qarşı yeni mühüm qanun qəbul edildi. Beləliklə, İsveç öz öhdəliklərini yerinə yetirdi. Türkiyənin NATO-nun Vilnüs sammitinə qədər İsveçin ərizəsini ratifikasiya etməyə hələ də imkanı var ", – deyə Yens Stoltenberq bildirib.

Stoltenberq onu da qeyd edib ki, Prezident Ərdoğanla danışıqlarda İsveçlə Daimi Müştərək Mexanizmin növbəti görüşünün iyunun 12-də keçirilməsi ilə bağlı razılığa gəlinib.

Bu arada politoloq Stanislav Bışok Stokholmun Şimali Atlantika Alyansına qoşulmaq üçün müraciətinə Ankaranın mövqeyini dəyərləndirib. O deyib: "NATO və NATO üzvlüyünü fetişləşdirməyə ehtiyac yoxdur. Siz NATO-nun üzvü olmaya, lakin hələ də alyansın təhlükəsizlik çətiri ilə əhatə oluna bilərsiniz. Bu təhlükəsizlik çətiri artıq İsveç üzərində açılıb. ABŞ və digər ölkələr İsveçə təhlükəsizlik zəmanəti verib. O indi özünəməxsus vəziyyətdədir: hərbi baxımdan başqa ölkələrə heç bir borcu yoxdur və NATO-nun əsas ölkəsi ABŞ artıq ona digər NATO üzvü olan ölkələrə verdiyi təminatları verir. Türkiyənin İsveçin alyansa daxil olmasına razılıq verməsi artıq formallığa çevrilib".

Y.Stoltenberq Prezident Ərdoğanla İsveçin NATO-ya daxil olması ilə bağlı danışdığı bir vaxtda PKK tərəfdarları Stokholmda nümayiş keçiriblər. Əllərində PKK/YPG-ni simvolizə edən plakatlar və Abdullah Öcalanın şəkillərini daşıyan terror təşkilatı tərəfdarları Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana qarşı şüarlar səsləndiriblər. Sonra polisin müşayiəti ilə İsveç parlamentinin qarşısınadək yürüş ediblər.

Türkiyə ilə NATO arasında müzakirə edilən məsələlərdən biri də Kosovoda Türkiyə Müdafiə Nazirliyinin NATO-nun tələbi ilə xüsusi təyinatlılardan ibarət tabor yerləşdirməsidir. Buna Kosovoda etnik zəmində baş verən münaqişə səbəb olub.

NATO-nun baş katibi Prezident Rəcəb Tayyib Ərdoğanla bağlı qapılar arxasında keçirdiyi görüşdən sonra Kosovoya qoşun göndərmək qərarına görə Türkiyə hakimiyyətinə minnətdarlığını bildirib. "Mən Türkiyəyə bölgədəki son iğtişaşlardan sonra Kosovonun şimalına əlavə qüvvələr göndərdiyinə görə təşəkkür edirəm" - Stoltenberq deyib.

Kosovodakı hadisələrə NATO missiyasının komandiri Ancelo Mişel Ristucci də münasibət bildirib. O deyib: "Kosovonun baş naziri Albin Kurtinin albanları serblərin çoxluq təşkil etdiyi əyalətə bələdiyyə başçıları təyin etməsi səhv addımdır. Əhali tərəfindən tanınmayan bələdiyyə başçılarının təyinatı beynəlxalq ictimaiyyətlə məsləhətləşmədən həyata keçirilməməli idi. Priştina hökumətinin ikinci birtərəfli hərəkəti bizimlə məsləhətləşmədən güc tətbiq etməsi oldu ki, bu da bizim müdaxiləmizi zəruri etdi, əlavə qüvvələr yerləşdirildi ".

Bu qüvvələrdən biri də Türkiyə xüsusu təyinatlılardan ibarət tabordur. Hazırda tabor xidməti vəzifəsini yerinə yetirir.

*Pünhan ƏFƏNDİYEV*
*"Xalq qəzeti"*

# Özbəkistanda Mirziyoyevin prezidentliyə namizədliyi qeydə alınıb

**Özbəkistan Mərkəzi Seçki Komissiyasının (MSK) iyunun 5-də keçirilən növbəti iclasında dövlət başçısı postuna növbədənkənar seçkilərdə prezident Şavkat Mirziyoyevin namizədliyi qeydə alınıb. Bu barədə TASS agentliyi məlumat yayıb.**



Xəbərdə deyilir ki, MSK, həmçinin ölkənin siyasi partiyalarının irəli sürdüyü daha üç namizədin qeydə alınması prosesini yekunlaşdırıb. Aprelin 30-da Özbəkistanda konstitusiyaya düzəlişlər üzrə referendum keçirilib və prezidentin səlahiyyət müddəti beş ildən yeddi ilə qaldırılıb.

Konstitusiya düzəlişləri həm də hazırkı dövlət başçısı Şavkat Mirziyoyevə üçüncü müddətə namizədliyini irəli sürmək imkanı verib. Mayın 8-də Özbəkistan Prezidenti dövlət başçısı postuna növbədənkənar seçkilərin keçirilməsi barədə fərman imzalayıb.

Ölkənin Seçki Məcəlləsinə uyğun olaraq, Ədliyyə Nazirliyində qeydiyyatdan keçən bütün siyasi partiyaların prezidentliyə namizəd irəli sürmək hüququ var.

*"Xalq qəzeti"*

# "Türkiyənin xarici siyasətdə gücünün artmasına xidmət edəcəyəm"



**Bu sözləri Türkiyənin yeni xarici işlər naziri Hakan Fidan deyib. Xəbəri "Anadolu" agentliyi yayıb.**

"Dövlətimizin və millətimizin bütövlüyü üçün hər cür dəstəyi göstərəcəyik. Türkiyənin Milli Kəşfiyyat İdarəsində (MİT) 13 il xidmət göstərdikdən sonra Xarici İşlər Nazirliyinə təyin olunduğum üçün Prezident Rəcəb Tayyib Ərdoğana təşəkkür edirəm", - deyə o bildirib.

Qeyd edək ki, 3 iyun tarixində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin yeni tərkibini açıqlayıb.

Yeni kabinetdə xarici işlər naziri postunda Mövlud Çavuşoğlunu Milli Kəşfiyyat İdarəsinin rəhbəri Hakan Fidan əvəzləyib.

*Mahmud QƏRİBOV, "Xalq qəzeti"*

# Yəməndə münaqişə yenidən alovlanıb

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Yəməndə atəşkəs səyləri davam edərkən, hökumət qüvvələri ilə husi qiyamçıları arasında toqquşmalar yenidən alovlanıb. "Əl-Cəzirə" telekanalı bildirir ki, tərəflər arasında toqquşmalar xüsusilə Yəmənin Marib və Taiz bölgələrində baş verib.**



Husilərə bağlı olan SABA xəbər agentliyi dünən hökumət qüvvələri ilə toqquşmalarda 2-si yüksək səviyyəli komandir olmaqla 11 silahlının həyatını itirdiyini bildirib. Sözügedən rəqəmin husilərin son bir ildə gündəlik olaraq açıqladığı ən çox ölüm sayı olduğu ifadə edilib.

Yəmən ordusunun Taizdəki qüvvələri isə cümə günü axşam saatlarında hərbi mövqelərə doğru hərəkət edən husilərə məxsus pilotsuz uçuş aparatının vurulduğunu açıqlayıb.

Digər tərəfdən, BMT aylardır ki, ölkədə atəşkəs və sülh prosesinin əldə olunması üçün diplomatik səylər göstərir. BMT-nin xüsusi nümayəndəsi Hans Qrundberq Yəməndə sülh prosesinin başlaması üçün ABŞ, Çin, Yaponiya, Səudiyyə Ərəbistanı, Oman və Birləşmiş Ərəb Əmirliklərinə səfər edib və diplomatik təmaslar qurub. Bütün bunlara baxmayaraq, Yəməndə toqquşmalar yenidən alovlanıb.

*"Xalq qəzeti"*

# Fransanın müdafiə sənayesində işçi qüvvəsi çatışmır



**Fransanın ən böyük müdafiə şirkətlərindən beziləri, o cümlədən reaktiv təyyarə istehsalçısı "Dassault Aviation" və raket şirkəti MBDA Rusiyanın Ukraynaya təcavüzündən sonra artan sifarişləri yerinə yetirməyə çalışarkən işçi qüvvəsi çatışmazlığı ilə mübarizə apardıqları üçün işə qəbulların sürətləndirirlər.**

"Rafale" döyüş təyyarəsinin arxasında duran "Dassault" şirkəti ikinci ildir işə qəbulu artırmaq niyyətindədir, lakin qaynaqçılar və metal işçiləri kimi bəzi ixtisaslı işlərin axtarışı getdikcə çətinləşir.

Baş icraçı Erik Trappier bu həftə jurnalistlərə verdiyi açıqlamada bütün şirkətlərin işə götürməkdə çətinlik çəkdiyini deyib.

O qeyd edib ki, "Dassault"un aviasiya və kosmos şirkətləri bəzilərindən daha az əziyyət çəkirlər, çünki onlar hələ də gənc işə götürülənlər üçün bir az cəlbedicidirlər, lakin çətinliklər istehsal müəssisələrinin olduğu Avropada, habelə ABŞ-da da müşahidə olunur.

*"Xalq qəzeti"*

# Ukrayna: bütün cəbhə boyu ağır döyüşlər gedir



(əvvəli 1-ci səhifədə)

Belə bir xəbər də yayılıb ki, Rusiya hərbçiləri Levadnomda öz mövqelərindən geri çəkilməli olublar.

Rəsmi Moskva bütün bu faktları təkzib edir, əksinə, cəbhənin bir çox istiqamətlərində Rusiya silahlı qüvvələrinin üstün mövqelər qazandığını bildirir. Göründüyü kimi, tərəflər bir-birinə qarşı həm də kəskin dezinformasiya müharibəsi aparırlar.

Yeri gəlmişkən, cəbhədə baş verən qızğın döyüşlər barədə xəbərlər sosial şəbəkələrdə də öz əksini tapır. Bir çox blogerlərin məlumatlarına görə, Ukrayna hərbçiləri dünən Donetsk və Zaporojye vilayətlərində rəqibin müdafiəsinin birinci eşolonunu yararaq 500 metrdən 3 kilometrədək irəliləyiblər. Lakin bu faktları dəqiqləşdirmək mümkün olmayıb.

Ukrayna Quru Qoşunlarının komandanı, general-polkovnik Aleksandr Sırski bildirib ki, Ukrayna Silahlı Qüvvələri Svatovsk rayonu (Luqansk vilayəti) istiqamətində Rusiya silahlı birləşmələrinə qarşı uğurla əks-hücuma keçərək 400 metr irəliləməyə nail olublar.

Onun sözlərinə görə, Rusiya ordusu cəbhədəki hərbi qruplaşmalarını məhbuslardan ibarət "Ştorm Z" hücum dəstələri ilə gücləndirib.

Sırski, həmçinin 80-ci əlahiddə hava hücumu briqadası döyüşçülərinin İvanovski meşəsi yaxınlığındakı ərazinin bir hissəsini azad etdiyini söyləyib. Qeyd edilir ki, söhbət Baxmut istiqamətində meşəlik ərazidən gedir.

2022-ci il fevralın 24-də Rusiyanın Ukraynaya hücumu ilə başlayan müharibə Avropada İkinci Dünya müharibəsindən sonra ən böyük silahlı hərbi münaqişədir. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının yaydığı son məlumatda deyilir ki, hərbi əməliyyatlar başlayandan indiyədək Rusiya ordusunun 210 min 350 hərbçisi məhv edilib. Rusiya mənbələri isə rəqəmlərin realliğı əks etdirmədiyini bildirir.

Rusiya Müdafiə Nazirliyi xəbər verir ki, ukraynalı silahlılar dünən Belqorod vilayətinin Novaya Tavoljanka rayonuna daxil olmağa cəhd ediblər, lakin hava və artilleriya zərbələri nəticəsində bunun qarşısı alınıb, 10-dan çox silahlı zərərsizləşdirilib.

"Qarşıdurma zamanı Ukraynanın 5 minaatan tağımı sıradan çıxarılıb, Rusiya ərazisinə hücum edən Polşa istehsalı olan iki "Krab" özüyeriyən silah qurğusu məhv edilib. Rusiya Silahlı Qüvvələri son sutka ərzində Donetsk istiqamətində 425-ə qədər ukraynalı hərbçini məhv edib. Bundan başqa, Rusiya hava hücumundan müdafiə sistemləri Donetskdə Ukrayna Silahlı Qüvvələrinə məxsus Su-27 təyyarəsini vurub. RF Silahlı Qüvvələri Zaporojye istiqamətində düşmənə xeyli itki verib", - Rusiya MN-in məlumatında qeyd olunub.

Bəli, Ukrayna torpağında on beş aydan çoxdur ki, qanlı müharibə gedir və bu, ağır zorakılıqlarla müşayiət olunan amansız qarşıdurmanın nə vaxt bitəcəyi bəlli deyil. Bir çox dövlətlər müharibənin dayandırılması və sülh danışıqlarının başladılması üçün cəhdlər edib. Bu dövlətlərdən biri də Çindir.



Çinin bu təşəbbüsü ilə bağlı Ukraynanın müdafiə naziri Oleksiy Reznikov "The Straits Times" qəzetinə müsahibəsində bildirib ki, Pekin Rusiyanı zəbt etdiyi bütün ərazilərdən geri çəkilməyə məcbur edə bilsə, Ukrayna müharibəni dayandırmaq üçün sülh təşəbbüsündə Çini vasitəçi kimi qəbul etməyə hazırdır.

Müdafiə nazirinin sözlərinə görə, Çin çox güman ki, Rusiya üzərində təsir imkanlarına malikdir, lakin onun niyyətləri qeyri-müəyyən olaraq qalır. Xatırladaq ki, Çin müharibədə sülhməramlı kimi çıxış etmək niyyətində olduğunu açıqlayıb və 12 bənddən ibarət "sülh planı"nı təqdim edib.

Bu arada məlum olub ki, italiyalı kardinal, İtaliya yepiskopları konfransının rəhbəri Matteo Cuppi Roma Papasının elçisi kimi Kiyevə gələcək. "Müqəddəs taxtın" mətbuat xidmətinin məlumatına görə, xüsusi elçi böhranın həlli yollarını müzakirə etmək üçün iyunun 5-6-da Ukraynada olacaq. Bu barədə açıqlamada bildirilir ki, kardinalın səfərinin məqsədi ədalətli sülhün yolları barədə Ukrayna hakimiyyətini diqqətlə dinləmək və gərginliyin azalmasına kömək edəcək humanitar səyləri dəstəkləməkdir.

Rusiya mediasında yayılan məlumata görə, Papanın elçisinin Moskvaya da səfəri planlaşdırılır.

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

*Beynəlxalq festival*

# Bakı Türk dünyasının kitablarına qucaq açıb

(əvvəli 1-ci səhifədə)

Beynəlxalq Türk Müəllifləri Birliyinin təşkilatçılığı, Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, TÜRKPA, Yunus Əmrə İnstitutu, İLESAM və digər qurumların dəstəyi ilə keçirilən açılış mərasimində Azərbaycan Dillər Universitetinin tələbələri iştirakçıları dünyanın müxtəlif dillərində salamladılar. II Qarabağ müharibəsinin qaziləri musiqi proqramı ilə çıxış etdikdən sonra Həsən Kürün ifasında "Cəbhədən məktub", Nicat Ağayevin "Mən vətənəm" şerləri səsləndirildi və içərisində şeirlər olan şarlar havaya buraxıldı.





Mərasimdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri Anar bu ilin qardaş Türkiyə üçün şanlı yubileylə əlamətdar olduğunu bildirdi: "Cümhuriyyətin 100 illiyi təkcə Türkiyə cəmiyyətinin deyil, bütün Türk dünyasının qürur mənbəyidir. Bu günlər Türkiyə seçkinin nəticələrinin sevincini yaşayır. Türkiyənin hər qələbəsi həm də Azərbaycanın qələbəsidir.

Azərbaycan öz tarixinin ən möhtəşəm qələbəsini əzəli torpaqlarını düşmən tapdağından azad etməklə qazandı. Bu qələbəni xalqımızın qəhrəman oğul və qızları silah gücünə, igidlikləri sayəsində əldə etdilər. Kitab mədəniyyəti, ədəbiyyat nəsilləri mübariz yetişdirir, bunun nəticəsi olaraq böyük qələbəyə nail oluruq. Sabaha kitabla getməliyik. Çünki, gələcəyimiz məhz gənc nəsillə bağlıdır".

Sonra Milli Məclisin deputatları Qənirə Paşayeva, Cavanşir Feyziyev, Xalq şairi Sabir Rüstəmxanlı, akademik Dilqəm Tağıyev və başqaları çıxış edərək festivalın türk dünyasının sarsılmaz birliyinə, xüsusilə eyni mədəniyyətə, tarixə malik olan qardaş Azərbaycan və Türkiyə dövlətlərinin əlaqələrinin daha da möhkəmlənməsinə böyük töhfə verəcəyini bildirdilər.

Yeddi gün davam etdəcək festivalın ilk saatlarından hiss olunurdu ki, budəfəki sərgi əvvəlki təqdimatlar daha genişmiqyaslıdır. İnsanlar dəstələrlə kitab stendlərinə, eləcə də incəsənət nümunələrinin nümayiş olunduğu bölmələrə yaxınlaşırdılar.

"Xalq qəzeti" ilə fikirlərini bölüşən AYB-nin mətbuat katibi Xəyal Rza da festival çərçivəsində təşkil olunan kitab yarmarkası ilə yanaşı, böyük tədbirlərin təşkil ounacağını da qeyd etdi. Bildirdi ki, budəfəki sərgi ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunub və sərginin davam edəcəyi günlər ərzində Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Türkmənistan, Özbəkistan günləri keçiriləcək. Eyni zamanda elmi konfranslar, şeir saatları, imza günləri təşkil ediləcək, uşaq tamaşaları nümayiş olunacaq. Festivalda ilk dəfə yay kinoteatrı formatında filmlərin nümayişi də planlaşdırılıb.

TEAS Press Nəşriyyat Evinin nümayəndəsi Günel İsmayılova tədbirin elə ilk saatlarında oxucuların onları sevindirdiyini dedi: "Təqdirəlayiq haldır ki, kitablara maraq böyükdür. Artıq ilk kitablarımızı satmışıq. Oxucularımız klassiklərin əsərlərinə, eləcə də detektiv nümunələrə, həmçinin "Üç alma" uşaq nəşrlərinə maraq göstərirlər.

Fəxriyyə İbrahimovanın hazırladığı kişi, qadın aksesuarları unikallığı ilə fərqlənir. Təbii daşlardan düzəldilmiş boyunbağılar, qolbaqlar, gümüş və digər materiallardan sırğa və üzüklər sahiblərini tapdıqca məmnun olur: "Belə sərgilər hamımız üçün çox yaxşıdır. Düzü, öz işlərimi təqdim etməklə yanaşı, digərlərinin əl işlərinə də baxıram. Mütailəni çox sevirəm deyə, kitab sərgisi də mənim üçün böyük maraq kəsb edir. Bundan əvvəl "International Business Festival 2023" sərgisində iştirak etdim və mənim üçün çox faydalı oldu. Bu sərgiyə 500-dən çox məhsulla qatılmışam".

"Kitabım.az" mağazasının nümayəndəsi Orxan Səfərov: "600-ə yaxın kitab gətirmişik. Sərginin sonrakı günləri də kitablar əlavə ediləcək. Təxminən, 2 minə yaxın kitab nümayiş etdiriləcək. İspaniya, ABŞ, Türkiyə, Fransa və digər ölkələrdən xarici ədəbiyyat gətirilib. İnsan axını var. Müasir yazarların kitablarına tələbat çoxdur. Eyni zamanda, elmi kitabları çox axtarırlar. Oxucularımızla ünsiyyət qurmaq baxımından sərgi çox faydalıdır. Onların tələblərini, maraqlarını öyrənirik".

"Üçbucaq Kitab Evi"nin təsisçi direktoru Tural İlyas kitab evi olaraq 4-5 nəşriyyatı təmsil etdiklərini bildirdi. Qeyd etdi ki, təqdim etdikləri kitablar oxucuların diqqətini cəlb etdiyinə görə razıdır.

Festivala gələnlərdən bir neçəsi ilə də həmsöhbət olduq.

Aybəniz Rüstəmova, tələbə: "Festivalı çoxdan gözləyirdim. Özümə siyahı tutmuşam. Dilçiliyə aid elmi kitabları axtaracağam. Eləcə də yaxşı bədii əsərlər istəyirəm".

16-17 yaşlarında iki oğlu ilə festivala gələn Zəhra Ağamalıyeva özünün tikmə, oyma işləri ilə maraqlandığını, oğlanlarına isə kitablar alacağını dedi: "Artıq ağacdan hazırlanmış oyma şamdan almışam. Oğlanlarımdan biri detektiv, digəri isə bədii əsərlər xoşlayır. Əvvəlki kitab sərgilərində də olmuşuq. Belə yarmarkaları çox bəyənirik".

Festivalı tərk edərkən ən balaca iştirakçılardan biri diqqətimi cəlb edir. 5 yaşlı Namiq anası Səriyyəni şəkilli kitabların yanına dartır. Ona yaxınlaşıb soruşuram ki, hansı kitabı axtarır. Məstan və Toplanın şəkilləri olan kitabı göstərir. Bu balaca ünvanı düz tapıb. Bütövlükdə, kitablarla sabaha addımlayanların yolu uğurlu olacaq! Beynəlxalq Bakı festivalı onlara bu yolda geniş qapı açıb.

***L.AZAD,***
***"Xalq qəzeti"***

*Dostluq meridianı*



# Səmərqənddə Azərbaycan musiqisi günü

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə Daşkənd və Səmərqənd şəhərlərində Azərbaycan musiqisi günləri keçirilib.**

Səmərqənd şəhərindəki Gənclər Sarayında baş tutan tədbirdə dövlət və hökumət nümayəndələri, mədəniyyət və incəsənət xadimləri, yerli azərbaycanlılar və qardaş özbək xalqının nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəl foyedə ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan foto və nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

Səmərqənd şəhər hakiminin müavini Rüstəmbek Qabulov Azərbaycan musiqisi günləri tədbirini Səmərqənd şəhərində keçirilməsini böyük hadisə adlandıraraq, ölkələrimiz arasında bütün sahələrdə inkişaf edən münasibətlərdən danışıb, mədəniyyət sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu xüsusi fəxrlə qeyd edib. O, tədbirin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr olunduğunu, ulu öndərə özbək xalqının da böyük sevgi və rəğbətinin olduğunu vurğulayıb, Heydər Əliyevin 100 illik yubileyinə aid tədbirlərin Özbəkistanda da böyük təntənə ilə keçirildiyini bildirib.

AMM-nin direktoru Samir Abbasov Özbəkistanda Azərbaycan mədəniyyətinə aid böyük tədbir və konsertlərin, demək olar ki, hər il qədim Səmərqənd şəhərində keçirildiyini və qardaş ölkədə Azərbaycan mədəniyyətinə, musiqisinə hər zaman böyük marağın olduğunu vurğulayıb. Daha sonra "Özbəkistanda Azərbaycan musiqisi günləri" çərçivəsində Azərbaycan və Özbəkistanın xalq artisti Gülyanaq Məmmədova "Can Azərbaycandan can Özbəkistana sevgilərlə" adlı konsert proqramı ilə çıxış edib. Azərbaycan və özbək mahnılarını ifa edən Gülyanaq Məmmədova xalq mahnılarımızı, muğamlarımızı səsləndirərək tamaşaçıların çoxsaylı alqışları ilə qarşılanıb.

Konsertdə özbək musiqisinin tanınmış simalarından olan Özbəkistanın Əməkdar artisti Yulduz Turdiyeva səhnəyə çıxaraq Gülyanaq Məmmədova ilə duet və xalq mahnılarımızı ifa edib.

Böyük anşlaqla keçən konsert proqramı səmərqəndli tamaşaçılar tərəfindən məmnunluq hissi və coşqu ilə qarşılanıb.

***Qulu KƏNGƏRLİ***

**Səmərqənd**

# FHN-in Cənub Regional Mərkəzi təlim keçirib

**Fövqəladə Hallar Nazirliyi Cənub Regional Mərkəzinin təşkilatçılığı ilə Lənkəran şəhərinin Xəzər dənizi sahilində "Su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması" mövzusunda təlim keçirilib.**



Təlimin keçirilməsində əsas məqsəd xilasedicilərin suda boğulma halları ilə bağlı xilasetmə əməliyyatları, habelə ilkin yardımın göstərilməsi üzrə praktiki vərdişlərinin daha da təkmilləşdirilməsi olub.

Təlimdə FHN-in Cənub Regional Mərkəzi və Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xilasediciləri iştirak ediblər.

Şərti olaraq baş vermiş sudaboğulma hadisəsi zamanı xilasedicilər zərərçəkmişləri "xilas edərək" ilkin yardım göstərib, habelə "suda boğulmuş şəxsin cəsədi çıxarılaraq aidiyyəti üzrə təhvil verilib".

***Q.QASIMOV, "Xalq qəzeti"***

# 1 yoluxma faktı qeydə alınıb

**İyunun 5-də Azərbaycanda COVID-19 infeksiyasına 1 yoluxma faktı qeydə alınıb**

Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 1 yoluxma faktı qeydə alınıb, 1 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 831 min 862 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 549 nəfər müalicə olunaraq sağalıb, 10 min 277 nəfər vəfat edib. Aktiv xəstə sayı 36 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 454, bu günə qədər isə ümumilikdə 7 milyon 626 min 672 test icra olunub.

***"Xalq qəzeti"***


# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

## AÇIQ TENDER ELAN EDİR

Lot - 1. Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs - Əhməd Məmmədov 496-52-05) .

İştirak haqqı 3000,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar tenderdə iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat-Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi tender zərflərinin açıldığı gündən sonra azı 100 bank günü təşkil etməlidir;
- tender təklifinin 1 faizi həcmində bank təminatı;
- tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini da-yandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqli təqdim edilməlidir);
- maliyyə vəziyyəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat. (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq olunmalıdır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması və məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının oxşar təyinatlı və analoji işlər sahəsində azı 3 milyon manat həcmində müqavilələri və təhvil - təslim aktları təqdim edilməlidir;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliy-yətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
- iddiaçının texniki imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən);
- müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən);
- sahibkarlıq subyektinin meyarını müəyyən edən sənəd;
- müvafiq fəaliyyət sahəsini həyata keçirmək üçün lisenziya (əlavələri ilə birlikdə).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 3 iyul 2023-cü il saat 17.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını isə möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 13 iyul 2023-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 iyul 2023-cü il saat 10.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 7 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***



# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan məişət avadanlıqlarının satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyunun 15-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1176.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 118 (30234) 6 iyun 2023-cü il, çərşənbə axşamı

veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## "Neftçi"– "Qəbələ" finalını 9 min azarkeş izləyib

**Futbol üzrə Azərbaycan kuboku yarışlarında yeni rekord müəyyənləşib. Belə ki, "Bakcell Arena"dakı "Neftçi" ilə "Qəbələ" arasında finalı 9 min tamaşaçı izləyib.**



Bu, mövsümün 19 kubok oyununun ən yüksək göstəricisi hesab olunur. Finala qədər isə rekord 5 min olub.

Ümumilikdə, kubok yarışlarının 19 matçında 31 min 980 izləyici qeydə alınıb. Orta hesabla hər oyunu 1683 tamaşaçı izləyib.

## Güləşçilərimiz Bişkekdə 4 medal qazandılar

**Qırğızıstanın paytaxtı Bişkekdə güləş üzrə reytinq seriyasının üçüncü mərhələsində Azərbaycan güləşçiləri 1 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar.**



Qızıl medala 74 kiloqram çəki dərəcəsində çıxış edən Turan Bayramov sahib olub. Eyni çəkidə mübarizə aparan Cəbrayıl Qadjiyev gümüş medal qazanıb. Komandamızın digər üzvü Abubakr Abakarov (86 kq) da ikinci yeri tutub.

Millimizin üzvü Xadjimurad Qadjiyev isə bürünc medala layiq görülüb.

## Triatlon üzrə "IronWind" keçirilib

**Bakının Pirallahı rayonundakı Nərəkənd parkında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş triatlon üzrə "IronWind" açıq ölkə turniri keçirilib.**



Azərbaycanla yanaşı, Türkiyə, ABŞ, Böyük Britaniya, Xorvatiya, Rusiya və digər ölkə təmsilçilərinin də iştirak etdiyi yarışda 83 idmançı gücünü sınayıb.

Qadınların "Absolute" kateqoriyası üzrə yarışında ilk üçlükdə İnna Anisimova, Rabiyə Oruclu və Natalya Vallek yer alıblar. Kişilərin mübarizəsində isə Oleksandr Mordasov birinci olub. Teymur Fərəcov yarışı ikinci, Konstantin Vedmed isə üçüncü pillədə başa vurublar.

*L.QURBANOVA, "Xalq qəzeti"*

*Texnologiya yenilikləri*



## Təhlükəsiz ödəniş kartı

**"Samsung" şirkəti kartlarla gündəlik əməliyyatları daha təhlükəsiz və rahat etmək üçün "Biometric Card IC" kartını təqdim edib. Bu yeni karta NFC çipi, barmaq izi skanı texnologiyası və xüsusi təhlükəsizlik prosessoru əlavə edilib. Məlumatı "samsung.com" saytı paylaşıb.**

Yeni texnologiya kart sahiblərinə şəxsi identifikasiya nömrəsi (PIN) və ya imza əvəzinə barmaq izlərindən istifadə etməyi təklif edir. Bu isə əməliyyatları daha sürətli edir və asanlaşdırır. Həmçinin kart oğurlansa və ya itirilsə belə, saxta ödənişlər etmək mümkünsüz olur.

Biometrik kart adlanan ödəniş kartına üç ədəd rəqəmsal barmaq izi şablonu əlavə etmək olar. Ödəniş etmək üçün kart terminala yaxınlaşdırılır və kartda quraşdırılmış sensora barmaqla (adətən baş barmaq) toxunulur. Biometrik uyğunluq yoxlanılır və proses davam edir.

Qeyd edək ki, şirkətin əsas məqsədi funksionallığı itirmədən xərcləri azaltmaqdır.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## Yadplanetlilər siqnal göndərirlər?

**Tədqiqatçılar qalaktikadakı ulduzların sıx yerləşdiyi ərazini yaxından müşahidə etməklə, yerüstü yüksək inkişaf etmiş sivilizasiyaların mövcudluğu ilə bağlı araşdırmalarını genişləndirirlər. Və yadplanetlilər tərəfindən potensial olaraq yaradıla bilən, əvvəllər də diqqətdən kənarda qalmış siqnal növünü izləyirlər.**



Elm adamlarının dediyinə görə, bu yeni təşəbbüs qabaqcıl sivilizasiyalara ulduzlararası məkanda yerləşən geniş məsafələrdə bir-biri ilə əlaqə qurmağa imkan verəcək. Bunun üçün alimlər fərqli siqnal növündən istifadə edirlər.

Bu genişzolaqlı "pulsasiya" adlanan siqnallar radar ötürülməsində istifadə olunan impulslara bənzəyir, hər 11-100 saniyədən bir təkrarlanır və bir neçə meqaherts boyunca yayılır.

*Fidan SALMANOVA, "Xalq qəzeti"*

*Sosial şəbəkələrdən seçmələr*

## "Bu çiçəkləri dostlara ərmağan edirəm..."

**Bir ziyalı xanım dünən özünün "Facebook" səhifəsində maraqlı paylaşım edib. Orada ibrətamiz bir hekayət yazılıb:**



"Zəngin və harın adam günün birində yoxsul və fağır şəxsə içi çör-çöp dolu səbət uzadır. Kasıb adam səbəti gülümsəyərək alır və oradan uzaqlaşır. Sonra səbəti boşaldır və rəngarəng çiçəklərlə doldurur. Və zəngin adamın yanına gedərək səbəti ona uzadır.

Varlı şaşıraraq soruşur:

– Mən sənə bir səbət zibil verdim, sən niyə mənə çiçəklərlə dolu səbət verirsən?

Yoxsul belə deyir:

– "Çünkü hər bir insan qəlbində nə varsa onu verir...

Deməli, əsl zənginlik yüksək mənəviyyat sahibi olmaqdadır."

Paylaşımın müəllifi bu hekayəti bitirib sonda belə yazır:

"Bu çiçəkləri dostlara ərmağan edirəm..."

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

## Leonardo da Vinçinin qəribə yuxu rejimi



**Məşhur italyan rəssamı, mühəndis, yazıçı, heykəltəraş və ixtiraçı olan Lenardo da Vinçinin (1452-1514) qəribə yuxu rejimi olub. Belə ki, o, bütün sutka ərzində hər dörd saatdan bir 15-20 dəqiqə yatırmış (ümumilikdə, təxminən, 2 saat). Günün qalan hissədini isə böyük şövqlə işləyirmiş.**

Xatırladaq ki, da Vinçi təkrarolunmaz "Mona Liza" tablosunun müəllifidir. Təəssüflər olsun ki, müasir günümüzə qədər dahi rəssamın yalnız 15 rəsm əsəri gəlib çıxmışdır.

Mühəndis kimi isə o dövr insanlarının qavraya bilməyəcəyi, yalnız bir neçə əsr sonra bəşəriyyətin tam yiyələnəcəyi, olduqca mürəkkəb ixtiralar etmişdir. Onun çəkdiyi vertolyot, tank, ikigövdəli gəmi və s. eskizlər alimin sonsuz dühasından xəbər verir.

*"Xalq qəzeti"*

## Mopassan Eyfeli niyə xoşlamırdı?

**"Gömbul" və digər çox sayda məşhur hekayə və povestlərin müəllifi olan fransız yazıçısı Mopassanın (1850-1893) Parisdə ən zəhləsi getdiyi yer Eyfel qülləsi olub. Buna rəğmən Mopassan, adətən, məhz bu qüllədə yerləşən restoranda nahar və şam edərmiş. Bu haqda ondan soruşanda cavabı çox maraqlı olub: "Eyfel qülləsi yeganə yerdir ki, buradan bu mənasız dəmir skelet görünmür".**



Qeyd edək ki, Mopassan dünya ədəbiyyatı klassikləri arasında ən çox oxunan yazıçılardandır. Onun əsərləri əsasında çox sayda filmlər çəkilmiş, teatr tamaşaları səhnəyə qoyulmuşdur. İncə lirizm və ciddi sarkazm, dərin psixologizm Mopassanın yaradıcılığının səciyyəvi xüsusiyyətləridir.

Mopassan burjua cəmiyyətinə nifrət edirdi, lakin onun dəyişdirilə biləcəyinə inanmırdı. Böyük yazıçının ömrünün sonu psixi xəstəxanada başa çatmışdır.

*S.RZAYEVA, "Xalq qəzeti"*

## NASA Marsa insan göndərməyə hazırlaşır

**2025-ci ildə Ayda baza qurmaq niyyətində olan ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi (NASA) hazırda Marsa missiya hazırlığındadır. "2040-cı ildə insanlar Marsa çata bilər".**



Bu fikri NASA rəhbəri Bill Nelson "El Mundo" nəşrinə müsahibəsində deyib: "Aya üçdörd günə çatmaq olar, lakin Mars çox uzaqdadır. Oraya çatmaq üçün yeddi və ya səkkiz il vaxt lazım olacaq. Planetləri mövqeyi geri dönüş səyahətinə qayıtmağa imkan verənə qədər, altı aydan səkkiz aya kimi bir neçə il Marsda qalmalı olacaqlar".

Bundan əvvəl isə Rusiyada Marsa missiyanın hazırlanmasından danışırdılar. "Ay ekspedisiyalarının toplanmış təcrübəsi bunun üçün faydalı olacaq. "Kosmik texnika və texnologiyalar" jurnalında çap olunan məqalədə deyilir ki, astronavtların Marsa uçuş üçün hazırlanması Yerin aşağı orbitində uzunmüddətli pilot uçuşlar zamanı əldə edilmiş təcrübəyə əsaslanacaq.

*P.ŞÖVKƏTOĞLU, "Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

## Gündə 1-2 stəkan alma şirəsi...

**Eyni miqdarda sərin su ilə qarışdırılmış alma şirəsi isti havada sərinlənmək üçün ən yaxşı içkidir. Şirələrin istehsalı üzrə layihə rəhbərləri isti havada tərlə birgə bədənindən duzların da itirildiyini bildirirlər. Onların fikrincə, belə olanda adi su içmək azdır. Alma şirəsi orqanizmin duz balansını da təmin edir.**



Kanadalı alimlərin tədqiqatlarına görə, bu içki susuzlama zamanı insana köçürülən məhlula alternativdir. Onu uşaqlara və yaşlılara xüsusilə vermək lazımdır.

Bu şirədə ürək sistemi üçün vacib olan kalium var. Yayda şirəni birbaşa yox, sərin su ilə qarışdırıb içmək lazımdır. İsti havalarda gün ərzində 1–2 stəkandan artıq şirə içmək olmaz. Turş və şirələrə üstünlük vermək lazımdır: portağal, qreypfrut və giləmeyvələr. Onlarda olan orqanik turşular bədənə, beyinə lazım olan maddələri verəcək.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*

**Proqnoz**

## Bölgələrdə yağış yağacaq, dolu düşəcək, duman olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən iyunun 6-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.Lakin səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 17-22°, gündüz 23-28° isti olacaq.Atmosfer təzyiqi 758 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-50 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq. Havanın temperaturu gecə 18-23°, gündüz 26-31°, dağlarda gecə 7-12°, gündüz 13-18°, bəzi yerlərdə 20-23° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

**✓ 2021-ci il iyulun 29-da "ZİRVƏ-A" MTK tərəfindən Ənvər Mehdi oğlu Əmirəliyevin adına verilmiş 000000188 nömrəli müqavilə itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN

Bakı şəhərindən Cavanşir Yusifov və Fazil Fərəcov Səbuhi Məmmədova və ailəsinə anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5168
SİFARİŞ 1384
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00